# QARABAĞ AZƏRBAYCANDIR!


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 225 (8541) CÜMƏ, 30 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


## Dost və qardaş xalqlarımız hər zaman bir-birinin yanında olacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana və Türkiyə xalqına Cümhuriyyət Günü münasibətilə təbriklərini çatdırıb, tərəqqi və xoşbəxtlik arzularını ifadə edib.

Prezident İlham Əliyev Türkiyə Prezidentinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizə daim göstərdiyi siyasi dəstəyi bir daha yüksək qiymətləndirərək, dost və qardaş Azərbaycan və Türkiyə xalqlarının bundan sonra da bir-birinin yanında olacağına əminliyini bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək qardaş Azərbaycan xalqına salamlarını və ən xoş arzularını çatdırıb, dost və qardaş xalqlarımızın hər zaman bir-birinin yanında olacağını vurğulayıb.

Telefon söhbəti zamanı ikitərəfli münasibətlər və regional məsələlər müzakirə edilib.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham Əliyev Türkiyə xalqını Cümhuriyyət Bayramı münasibətilə təbrik edib

Prezident İlham Əliyev rəsmi "Twitter" səhifəsində 29 Oktyabr - Türkiyənin Cümhuriyyət Bayramı ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Türkiyə Cümhuriyyət Bayramı. Bir millət, iki dövlət. Qardaş Türkiyə xalqını təbrik edirik!"

## Birinci vitse-prezident Mehriban Əliyeva qardaş Türkiyə xalqını 29 Oktyabr - Respublika Günü münasibətilə təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Türkiyənin Respublika Günü münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Qardaş Türkiyə xalqını 29 Oktyabr - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Türkiyənin və Türkiyə xalqının hər bir azərbaycanlının qəlbində xüsusi yeri vardır. Bizi etibarlı və möhkəm dostluq, qardaşlıq telləri bağlayır. Bizim uğurlarımıza və qələbələrimizə sizin necə sevindiyinizin şahidiyik. Bizim dərdimizə necə şərik olduğunuzu görürük. Bütün bunlar Azərbaycan ilə Türkiyə Respublikası arasında birliyin, dostluğun, səmimiyyətin möhkəmliyini göstərir. Qoy xalqlarımızın dostluğu və qardaşlığı əbədi və sarsılmaz olsun! Bütün Türkiyə xalqına möhkəm cansağlığı, xoşbəxtlik və sülh arzu edirəm. Uca Tanrı xalqlarımızı qorusun!"

## Xarici diplomatlar Bərdədə erməni terrorunun izləri ilə tanış olublar

Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri oktyabrın 29-da Bərdəyə səfər ediblər.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, Baş prokuror Kamran Əliyev və başqaları müşayiət ediblər.

Səfərin məqsədi diplomatları və hərbi attaşeləri oktyabrın 27 və 28-də cəbhə zonasından kənarda yerləşən, 100 min əhalisi olan Bərdədə Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Baş prokuror Kamran Əliyev, Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) direktoru Qəzənfər Əhmədov yerli və xarici jurnalistlərə açıqlamalar veriblər.

*Ardı 4-cü səh.*




## İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu işğalçı Ermənistanı döyüş meydanında cəzalandırır

Ermənistanın sentyabrın sonlarında törətdiyi növbəti hərbi təxribatdan sonra başlanan ikinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun müzəffər yürüşü ilə davam edir. Qısa zaman kəsiyində ordumuz işğalçıya elə bir zərbə vurub ki, bundan sonra onun özünə gəlməsinə onilliklər lazımdır. Ən əsası da odur ki, Füzulidən Ermənistanla dövlət sərhədinə qədər böyük bir ərazi artıq işğaldan azad edilib.

### İşğal edilmiş ərazilərimizin xeyli hissəsi işğaldan azad olunub

Artıq Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Xocavəndin kəndlərində, Suvqovuşanda Azərbaycan bayrağı dalğalanır. 6 rayon üzrə azad edilmiş yaşayış məntəqələrinin ümumi sayı 180-i ötüb. Beynəlxalq öhdəliklərini yerinə yetirməyən Ermənistan oktyabr ayında humanitar atəşkəslə bağlı 3 dəfə əldə olunmuş razılaşmaları dərhal pozub və hər dəfəsində də Azərbaycan tərəfindən layiqincə cəzalandırılıb. İşğal altında olan ərazilərinin bir qismini azad edən Azərbaycan həm də dünya ictimaiyyətinə göstərdi ki, danışıqları pozan, işğal siyasətindən əl çəkməyən Ermənistanı güc yolu ilə başa salmaqdan başqa yol yoxdur.

Eyni zamanda Dağlıq Qarabağda yenidən alovlanan müharibə Azərbaycan Ordusunun gücü və döyüş imkanları barədə deyilən fikirlərin həqiqət olduğunu praktik şəkildə təsdiqlədi. Rusiyanın "İnterfaks" agentliyinə müsahibəsində Prezident İlham Əliyev bununla bağlı deyib: "Azərbaycan Ordusu döyüş meydanında özünün üstünlüyünü sübut etdi. İşğal edilmiş ərazilərin xeyli hissəsi bu bir ay ərzində azad olundu. Erməni tərəfinin təqribən 30 il ərzində işğal olunmuş torpaqlarda möhkəmləndirilmiş rayonlar yaratmasını nəzərə alsaq, orada bir neçə müdafiə xətti var idi. Ərazinin relyefi də erməni tərəfi üçün daha əlverişlidir, çünki ora dağlıq ərazidir və bizim hərbi qulluqçular əks-hücum əməliyyatlarını həyata keçirərkən həm mühəndis qurğularını, həm də dağlıq relyefi adlamalı olurdu. Buna görə də bütün bu amillər nəzərə alınmaqla, ölkəmizin ərazilərinin xeyli hissəsi bir ay ərzində azad edildi və bu göstərir ki, Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi".

Ərazilərinin bir qismini azad etməklə Azərbaycan danışıqlar prosesində müəyyən olunmuş baza prinsiplərindən birini demək olar ki, təmin edib. Belə ki, ilkin olaraq işğalçılardan azad edilməsi nəzərdə tutulan 5 rayondan 4-ü artıq Azərbaycanın nəzarəti altındadır.

*Ardı 6-cı səh.*

## Haqq dünyasına köçən arzu

### Erməni terrorunun qurbanı olan 15 yaşlı Nigar həkim olmaq istəyirdi

Nigar xoşbəxt yaşayırdı. Ailənin böyüyü olan bu yeniyetmə balamız ata-anasının bir sözünü iki etməzdi. Ondan məktəbi bitirəndən sonra hansı ixtisası seçəcəyini soruşanda fikirləşmədən "həkim olacağam" deyirdi.

Bu arzusunu gerçəkləşdirmək üçün müəllimlərinin verdiyi tapşırıqları böyük həvəslə yerinə yetirirdi. Oxuduğu hər mövzuya dərindən yiyələnir, hətta yeri gələndə sinif yoldaşlarına da kömək göstərirdi. Bütün fənlərdən yüksək qiymətlər alması Nigarın universitetə daxil olmaq arzusunu gündən-günə gerçəkləşdirirdi. Cəmi bircə il qalmışdı. Hərdən ailəsində söhbət düşəndə darıxdığını, bu bir ilin də tez keçməsini arzuladığını bildirirdi.

Ancaq oktyabrın 17-də gecə saatlarında erməni vandallarının Gəncəyə ikinci dəfə atdıqları raket bir çoxları kimi Nigarın da arzusunu ürəyində qoydu. Raketlər şəhərdə böyük dağıntılar törətdi, düşdüyü yerin ətrafında demək olar ki, nə qədər ev vardısa, hamısı yerlə-yeksan oldu.

*Ardı 9-cu səh.*

## Azərbaycan Respublikasının Xocavənd rayonunun Vəng kəndinin Çinarlı kəndi adlandırılması haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndinə əsasən **qərara alır:**

Azərbaycan Respublikasının Xocavənd rayonunun Hadrut qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Vəng kəndi Çinarlı kəndi adlandırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 oktyabr 2020-ci il*

## Vətəndaş məsuliyyətsizliyi karantin rejiminin uzadılmasını zəruri etdi

Dünyanın koronavirusla bağlı mənzərəsi getdikcə daha tünd çalarlar almaqdadır. Tibb elmi üçün yeni olan COVID-19 infeksiyasına yoluxanların sayı günbəgün deyil, saatbasaat artır. Tədqiqatçılar hazırda virusun yayılmasında kritik mərhələ olduğunu söyləyirlər. Dünya ölkələrinin əksəriyyəti koronavirus pandemiyasının yeni dalğasını yaşayır.

### Dünya koronavirusun caynağındadır...

ABŞ hələ də virusa yoluxma və ölüm sayına görə liderliyini qoruyur. Yoluxanların ümumi sayına görə Hindistan ABŞ-dan sonra ikinci, ölüm sayına görə isə ABŞ və Braziliyanın ardından 3-cü sıradadır.

Böyük Britaniyada hər gün təqribən 100 min insan koronavirus xəstəliyinə tutulur. London İmperial Kollecində aparılan araşdırmada epidemiyanın yayılmasının sürətləndiyi və virusa yoluxanların sayının hər 9 gündə iki dəfə artdığı açıqlanıb. İtaliyada son 24 saat ərzində rekord sayda koronavirusa yoluxma halı qeydə alınıb - 24991.

*Ardı 9-cu səh.*

**Düşmənin 2 "Su-25" tipli hücum təyyarəsi məhv edilib, 308 tankı - 255-i məhv edilib, 53-ü qənimət kimi götürülüb; 79 ədəd piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb; 297 ədəd müxtəlif çaplı toplar - 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb; 106 ədəd minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb; 54 ədəd tank əleyhinə vasitə; 88 "Qrad" qurğusu; 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi; 1 "Tos"; zenit-raket kompleksləri - 4 "Tor", 42 "Osa", 4 "Kub", 1 "Kruq", 2 "S-125" qurğusu; 6 "S-300" atıcı qurğusu; 14 ədəd müxtəlif artilleriya qurğusu, 1 aşkaretmə stansiyası; 1 lokator; əməliyyat taktiki raket kompleksləri - 2 ədəd "Elbrus"; 1 ədəd "Toçka-U" məhv edilib; 422 yük avtomobili - 237-i, onlardan 20-si sursatı ilə birgə məhv edilib, 173 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

# Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Ermənistan Respublikası silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri əks-hücum əməliyyatlarına başlamış və Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər ərazilərini işğaldan azad etmişlər. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində uğurlu əməliyyatları davam etməkdədir.

İşğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili və "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli 1166 nömrəli Fərmanından irəli gələn vəzifələrin icrasının təmin olunması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılsın.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi müvafiq ərazilərin müvəqqəti komendantlarını təyin etsin və müvəqqəti komendantlıqların fəaliyyətini təşkil etsin.

3. Müvəqqəti komendantlıqlar öz fəaliyyətini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə əlaqələndirsinlər.

4. Müvəqqəti komendantlıqların nəzdində aşağıdakı dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin daxil olduğu əməliyyat qərargahları yaradılsın:

4.1. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti;

4.2. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi;

4.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi;

4.4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;

4.5. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi;

4.6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

4.7. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi;

4.8. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi;

4.9. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik;

4.10. müvafiq yerli icra hakimiyyəti orqanları.

5. Zərurət olduqda, əməliyyat qərargahlarının fəaliyyətinə bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulanlardan başqa, digər dövlət orqanlarının (qurumlarının) nümayəndələri cəlb oluna bilər.

6. Müvəqqəti komendantlıqlar fəaliyyət göstərdikləri ərazilərdə aşağıdakı vəzifələrin yerinə yetirilməsini təşkil etsinlər:

6.1. mühüm əhəmiyyətli obyektlərin, o cümlədən nəqliyyat və telekommunikasiya infrastrukturu obyektlərinin, enerji və su təchizatı sistemlərinin, su anbarlarının, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsi;

6.2. ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması;

6.3. aşkar edilən hərbi texnikanın, silahın, döyüş sursatının, zəhərləyici və partlayıcı maddələrin toplanması, inventarlaşdırılması və mühafizəsi;

6.4. kənd təsərrüfatı texnikası istisna olmaqla, digər mülki təyinatlı texnikanın, nəqliyyat vasitələrinin inventarlaşdırılması, saxlanılması və mühafizəsi;

6.5. aşkar edilmiş sənədlərin uçotunun aparılması və sonrakı təhlil üçün mühafizəsi;

6.6. hərbi vəziyyət rejiminin təmin olunması üçün "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər tədbirlərin həyata keçirilməsi.

7. Müvəqqəti komendantlıqlar aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə aşağıdakı vəzifələri yerinə yetirsinlər:

7.1. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik ilə birlikdə minalardan təmizləmə və zərərsizləşdirmə işlərinin aparılması üçün zəruri tədbirlər görülməsi;

7.2. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə birlikdə terrorçuluq, casusluq, təxribat və Azərbaycan Respublikasına qarşı yönəldilmiş digər qanunazidd fəaliyyətin qarşısının alınması;

7.3. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə birlikdə energetika qurğularının, o cümlədən hidrotexniki qurğuların vəziyyətinin ilkin qiymətləndirilməsi, yanğınların, təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılması və zərurət yarandıqda, müvafiq mülki müdafiə tədbirlərinin yerinə yetirilməsi;

7.4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə infrastruktur obyektlərinin, torpaq sahələrinin və digər daşınmaz əmlak obyektlərinin ilkin inventarlaşdırılması və mühafizəsi;

7.5. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə kənd təsərrüfatı üçün yararlı torpaqların müəyyənləşdirilməsi, kənd təsərrüfatı texnikası və istehsal vasitələrinin, kənd təsərrüfatı heyvanlarının uçotunun aparılması, saxlanılması və mühafizəsi, fitosanitar və epizootik vəziyyətin ilkin qiymətləndirilməsi;

7.6. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə zəruri rabitə şəbəkəsinin qurulması;

7.7. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə ətraf mühitin qorunması, topoqrafiya və xəritəçəkmə işlərinin aparılması, təbii sərvətlərdən səmərəli istifadə məqsədilə onların ilkin qiymətləndirilməsi və mühafizəsi;

7.8. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birlikdə tarix və mədəniyyət obyektlərinin (abidələrinin və müəssisələrinin) ilkin inventarlaşdırılması və mühafizəsi.

8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi işğaldan azad olunmuş ərazilərdə giriş-çıxışın xüsusi rejiminin tətbiqini təmin etsinlər.

9. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti işğaldan azad edilmiş ərazilərdə dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının rabitə ilə təmin olunmasını təşkil etsinlər.

10. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) əməkdaşlarına təxirəsalınmaz tibbi yardım göstərilməsinin və digər səhiyyə xidmətlərinin təşkili məqsədilə zəruri tədbirlər görsünlər.

11. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi işğaldan azad olunmuş ərazilərdə dövlət orqanlarının (qurumlarının) normal fəaliyyəti üçün müvafiq binaların elektrik enerjisi, su və təbii qaz ilə təminatını həyata keçirsinlər.

12. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti işğaldan azad olunmuş ərazilərin peyk təsvirlərini, digər geoinformasiya məlumatlarını və müxtəlif məzmunlu təhlilləri müvafiq dövlət orqanlarının (qurumlarının) sorğuları əsasında onlara təqdim etsin.

13. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası müvəqqəti komendantlıqların fəaliyyətinə ümumi nəzarəti həyata keçirsin.

14. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanda nəzərdə tutulan tədbirlərin maliyyələşməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

15. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Biz, Özbəkistanın qadın şairləri bu günlərdə Azərbaycanda baş verən hərbi əməliyyatlarla əlaqədar Sizə müraciət edir və həyatını itirən insanlarla əlaqədar başsağlığı veririk.

Biz bilirik ki, Azərbaycan 30 ildir Ermənistanın işğalı altında olan torpaqlarını azad etmək və BMT-nin münaqişənin həllinə dair qəbul olunmuş 4 qətnaməsinin tələblərini yerinə yetirmək üçün hərbi libas geyinib öz torpaqları uğrunda Vətən savaşı aparır. Tarixdən bizə yaxşı məlumdur ki, Qarabağ diyarı daim türk yurdu olub, bütün tarixi mənbələr, sənədlər, abidələr bu faktı bir daha təsdiq edir.

Necə ola bilər ki, Qarabağda 80 min nəfərə yaxın olan ermənilərin hüquqları, onların gələcək taleyi hamını maraqlandırır, amma bu diyarın əbədi sakinləri olan, etnik təmizləmə nəticəsində öz torpaqlarından qovulan bir milyondan çox azərbaycanlının nə dünənki, nə bugünkü, nə də gələcək həyatı heç kimi maraqlandırmır və bu haqda danışan yoxdur.

Biz bu dünyada ədalətin, beynəlxalq hüququn olmamasının son zamanlar bir daha görməkdəyik. Kim o torpaqlardan qovulan insanların 27 il çəkdikləri əziyyətlərin, məşəqqətlərin əvəzini qaytaracaq?

Biz işğaldan azad edilən Cəbrayıl rayonunun görüntülərini izləyəndə məyus olduq və dəhşətə gəldik. Bura tamamilə xarabazara - bütün infrastrukturu dağılmış bir əraziyə çevrilib. Bu rayon böyük İpək Yolunun üzərində yerləşib və buradakı tarixi Xudafərin körpüsü əsrlərlə xalqlarımız arasında mədəni, ticarət bağlantısı olub. Bu gün bütün dünya bilməlidir ki, ermənilər heç bir hüquqa hörmət qoymayaraq Dağlıq Qarabağ bölgəsinin ətrafında ondan ərazi cəhətdən daha böyük olan 7 rayonu zəbt edib və bunu sərsəmcəsinə təhlükəsizlik zonası adlandırır, bu əraziləri 27 ildir işğal altında saxlayırlar. Halbuki, bu rayonların əhalisinin 97 faizi yerli azərbaycanlılardır. Bu, hansı qanuna, məntiqə və beynəlxalq hüquqa sığır? Bu danışıqlar dözümlü, sülhsevər Azərbaycan xalqı tərəfindən 27 ildir ki, aparılır və hamımız onun nəticəsini yaxşı gördük.

Müharibə dünən və bu gün bütün dəhşətləri ilə Azərbaycan torpağında getməkdədir. Şəhərləri dağılan da, ərazisində ağır texnika hərəkət edən də və sabahları güllə səsləri ilə açan da Azərbaycandır. Ermənistan ərazisində bir güllə belə atılmır, qanlar tökülmür. Ona görə də işğalçı tərəf bu gün belə arxayın və riyakarcasına dinc əhaliyə raket zərbəsi endirməkdə davam edir.

Atəşkəs müqaviləsi imzalanandan sonra döyüşlərin getdiyi ərazidən 100 kilometr məsafədə yerləşən, dahi Nizami Gəncəvinin vətəni və böyük mədəniyyət beşiyi olan Gəncənin dinc əhalisini gecə saat 2-də raket atəşinə tutmaq bizləri çox sarsıtdı və hiddətləndirdi. Xocalıda tökülən o qanlardan, uşaqların, anaların fəryadından doymayan canilər dinc Gəncəni də vurdular. Bu, sivil dünyada qəbulolunmaz hadisə və bəşəri cinayətdir.

Hesab edirik ki, işğal bitməli, doğma yurdlarından qovulmuş, etnik təmizləmə, soyqırımına məruz qalmış dinc azərbaycanlılar öz torpaqlarına qayıtmalıdırlar. Biz isə öz aramızda bu cür ideyalara, başqalarının torpaqları hesabına öz ərazisini böyütməyə, xalqları zülm və iztirablara məhkum edənlərə "dur" deyirik. Hamımız artıq yaxşı görürük ki, bu cür haqsızlığın axırı nə ilə bitir. 30 ildir davam edən bu münaqişə regiona, xalqlara nə qədər zərbə vurdu, yüz minlərlə insanın həyatını, arzularını məhv etdi.

Biz qadın şairlər olaraq bu imkandan istifadə edib bütün dünya analarına, qabaqcıl təfəkkürlü insanlara buradan müraciət edirik. Biz analar daim sülh istəyirik və istəməliyik. Amma davamlı və əbədi sülh. Bu sülhü yurd yerləri, evləri, abidələri, qəbirlərimizin düşmən tapdağı altında olması, özümüzün isə köçkün kimi həsrətdən çürüyərək məhv olmağımız hesabına deyil, azad, ədalətli və beynəlxalq hüququn, ərazi bütünlüyünün təmin edildiyi şərtlərlə istəyirik.

Biz də türk ellərinin, türk dünyasının hər bir ziyalısı, vətəndaşı, füqarası olaraq haqqın, ədalətin və bunu özünün əsas qayəsi hesab edən Sizlərin, Azərbaycanın yanındayıq.

Biz bu gündən qarabağlıyıq! Ürəyimiz daim Sizinlə, Azərbaycanla döyünür. Vətən əmanətdir, Vətən anadır, Ana isə bizlərdə müqəddəsdir.

Hörmətli cənab Prezident, torpaqlarınızın son qarışınadək azadlığı uğrunda mübarizədə Tanrı Sizə və bütün ədalət carçılarına yar olsun! Qarabağ Azərbaycandır və nida işarəsi!

Dərin hörmət və ehtiramla,

***Dilbar Heydərova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Gülbahor Ashurova*** *- professor, şairə*
***Dildora Hasanova*** *- jurnalist, Özbəkistan Dövlət Televiziyasının "Mənbələr danışanda" verilişinin baş redaktoru və aparıcısı*
***Uktamoy Xaldarova*** *- şairə, tərcüməçi*
***Gulnora Shininova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Kutlibeka Rəhimboeva*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Şərifə Səlimova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Zülfiyə Muminova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Nəzirə Salomova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Sayora Tuyçiyeva*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Hulkar Hamroeva*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Zebo Mirzəyeva*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Zəhra Həsənova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Faroqat Xudoyqulova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Güljamol Əsgərova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Zilola Xocaniyozova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Mahfuza Imomova*** *- şairə, Özbəkistan Yazıçılar Birliyinin üzvü*
***Şaxlo Qasımova*** *- şairə, tərcüməçi*
***Xamrogul Ashurova*** *- şairə*
***Mavjuda Rajabova*** *- şairə*

*Özbəkistan Respublikası, Daşkənd şəhəri.*

# Noyabrın 2-dən bütün təhsil müəssisələrində tədris distant formada təşkil olunacaq

Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2020-ci il 2 noyabr tarixindən tədris və təlim-tərbiyə prosesi distant (məsafədən) formada təşkil olunacaq.

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Baş Nazir Əli Əsədov "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə" Qərar imzalayıb.

Qərar 2020-ci il dekabrın 1-dək qüvvədədir. Qərarın qüvvədə olduğu müddətdə sanitar-epidemioloji vəziyyətlə bağlı Azərbaycan Respublikasının baş dövlət sanitariya həkiminin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyləri əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi ayrı-ayrı inzibati ərazi vahidlərində fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılmasının bərpası və ya dayandırılması barədə qərar qəbul edə bilər.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bu qərara uyğun olaraq tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılmasının bərpası və ya dayandırılması barədə qərar qəbul edildiyi halda, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri də tabeliklərində olan təhsil müəssisələrinə münasibətdə müvafiq qərarlar qəbul edə bilərlər.

Qərara əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri bu qərarın icrası ilə bağlı zəruri tədbirlərin görülməsini təmin edəcəklər.

# 2020/2021-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. 2020/2021-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abasov Hüseynağa Hüsaməddin oğlu
Abbaslı Aliyə Fariz qızı
Abbaszadə Nuray Xasay qızı
Abdullayev Hüseyn Yaşar oğlu
Abdullayev Vüsal Əliyeviç
Abdullayeva Şəfa Cəsarət qızı
Abuzərli Rəna Nazim qızı
Ağakişiyev Məhəmməd Rəsul oğlu
Ağazadə Pərvanə Fayiq qızı
Alışzadə Röyalə İlqar qızı
Allahverdiyev Nüsrət Ramil oğlu
Atakişiyev Əlosman Seymur oğlu
Babayeva Fidan Namiq qızı
Bağırov Siyavuş Mehdi oğlu
Baxışova Şəbnəm Sakit qızı
Bayramlı Elçin Rövşən oğlu
Bəşirova Aişə Həbib qızı
Bulud Uğur Seyran oğlu
Bürcəliyev Səbuhi Məlikəjdər oğlu
Cabbarlı Nərmin Sidqi qızı
Cəfərova Aytən Musa qızı
Çələbiyev Ayxan Elxan oğlu
Dadaşeva Aysel Etibar qızı
Dünyamalıyev Zeynal Hafiz oğlu
Əhmədova Fatimə Rza qızı
Əhmədzadə Davud Raci oğlu
Əhmədzadə Elmir Asif oğlu
Əliyev Həsənbala Fuad oğlu
Əliyev Tərlan Mehman oğlu
Əliyev Yusif Hüseyn oğlu
Əliyeva Fəzilə Samir qızı
Əliyeva Fidan Faiq qızı
Əmirova Aytac Rakif qızı
Əsədli Şəfa Zahir qızı
Əsgərli Zeynəb Ramil qızı
Əsgərova Şənay Zaur qızı
Əzimli Xətai Xanoğlan oğlu
Əzimzadə Rüstəm Eyvaz oğlu
Əzizov Məhəmməd Mehman oğlu
Hacıyeva Röya Rauf qızı
Həsənov Nəriman Pərviz oğlu
Həsənova Zümrüd Raciyevna
Hüseynquliyev İlham Əlövsət oğlu
Hüseynli Elxan Namiq oğlu
Hüseynli Pərizad Nizami qızı
Hüseynov Fərid Mehman oğlu
Hüseynov İsmayıl Kamil oğlu
Hüseynov Səbuhi Ramiq oğlu
Hüseynov Ümid Şövqi oğlu
Hüseynova Nuranə Rafiq qızı
Xəlilov Cavidan Mayıl oğlu
İbrahimov Rafiq Elşən oğlu
İlyaslı İlyas Zöhrab oğlu
İsmayılov Elmir Fuad oğlu
İsmayılov Famil Zaur oğlu
İsmayılov Rüfət Rəşad oğlu
İsmayılzadə Əhməd Səlim oğlu
İsmayılzadə Mirənvər Nail oğlu
İsparova Ləman Rizvan qızı
İsrafilov Araz Rəfael oğlu
Kazımova Nəzrin Adil qızı
Kərimli Aydan Cəsarət qızı
Kərimli Əziz İlham oğlu
Qadiyeva Günay Telman qızı
Qallacov Məhəmməd Şamil oğlu
Qarayev Mətin Vüqar oğlu
Qardaşəliyeva İlahə Şahgül qızı
Quliyeva Günel İlqar qızı
Quliyeva Sücahət Taleh qızı
Quluyev Əli Həsən oğlu
Lalayev Fərid Cəmil oğlu
Məlikov Anar Şaiq oğlu
Məmmədov Elvin Vəli oğlu
Məmmədova Aytac Səxavət qızı
Məmmədova Məhin Kamran qızı
Məmmədzadə Azadə Zaur qızı
Məsimov İsmayıl Cahangir oğlu
Mikayıl Zadə Aslan Samir oğlu
Miraləm Nərgiz Elşad qızı
Muxtərov Əli Natiq oğlu
Muradov Oruc Vaqif oğlu
Mustafazadə Murad Nadir oğlu
Namazov Rəvan Əbülfət oğlu
Nəbili Oktay Sübhi oğlu
Nəzərov Aqil Elnur oğlu
Nuri Nahid Natiq oğlu
Orucov Əlövsət Əli oğlu
Orucova Balaqız Anar qızı
Paşayeva Səba Gəray qızı
Peşəkərova Pərvanə Səday qızı
Ramazanlı Azər Maarif oğlu
Rəfiyeva Nəzrin Bənamil qızı
Rzalı Cəmilə Tərlan qızı
Salamova Hədiqə Vüqar qızı
Sayılov Allahverdi Pənah oğlu
Şahbazzadə Zərifə Şəhriyar qızı
Şərifova Mahirə Vahid qızı
Tağıyev Cavidan Ayaz oğlu
Tərişli Fidan Əfqan qızı
Vəliyeva Kifayət Vüqar qızı
Yusifova Aynur İsaxan qızı
Yusifzadə Cəvahir Əfəndi qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2020-ci il*

# "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqların qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının Aşqabad şəhərində keçirilmiş 2019-cu il 31 may tarixli iclasında imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqların qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Saziş Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2020-ci il*

# Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyinin təsis edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyi təsis edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2020-ci il*

# Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikasının Kuba Respublikasında (Havana şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı maddi-texniki təchizat və maliyyələşdirilmə məsələlərini həll etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Səfirliyin strukturunu və ştat cədvəlini təsdiq etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2020-ci il*

# Baş Nazir Əli Əsədov Türkiyənin Vitse-prezidenti Fuat Oktaya məktub ünvanlayıb

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov oktyabrın 29-da Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktaya məktub ünvanlayıb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Nazir Əli Əsədov Türkiyə Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Fuat Oktayı və qardaş türk xalqını təbrik edib.

Baş Nazir həmçinin məktubunda Türkiyənin Vitse-prezidentini Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təxribatı ilə əlaqədar son hadisələr barədə məlumatlandırıb. Ermənistanın Azərbaycana qarşı vəhşiliklərini və hərbi cinayətlərini pislədiyinə, Azərbaycanın haqq işini dəstəklədiyinə görə Türkiyə Respublikasının rəhbərliyinə və bütün qardaş türk xalqına bir daha dərin təşəkkürünü bildirib.

Azərbaycanla Türkiyənin bütün məsələlərdə bir-birini dəstəkləməsinin, bir-birinin yanında olmasının iki ölkənin əsrlərin sınağından çıxmış qardaşlığının və müttəfiqliyinin bariz şəkildə ifadəsi olduğu vurğulanıb.

# Sahibə Qafarova Cümhuriyyət Günü münasibətilə türkiyəli həmkarını təbrik edib




Oktyabrın 29-da Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopla telefonla danışıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Sahibə Qafarova türkiyəli həmkarına 29 Oktyabr - Cümhuriyyət Günü münasibətilə təbriklərini çatdırıb, qardaş türk xalqına tərəqqi və firavanlıq arzulayıb.

Milli Məclisin Sədri qardaş Türkiyə Respublikasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizə göstərdiyi dəstəyə görə bir daha minnətdarlığını bildirib, iki qardaş xalqın həmişə bir-birinin yanında olacağına əminliyini ifadə edib.

Sahibə Qafarova Ermənistanın son dövrlər döyüş meydanında məruz qaldığı uğursuzluqlarla barışmayaraq mülki əhalini hədəfə aldığını, bunun müharibə cinayəti olduğunu deyib.

Azərbaycan xalqının öz dövlətinin və Prezidentinin yanında olduğunu bildirən Sahibə Qafarova deyib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bərqərar olmuş güclü idarəçilik sistemi, iqtidarla xalq arasındakı sarsılmaz birlik Dağlıq Qarabağ məsələsinin tam həllini təmin edəcək".

Təbriklər və xoş sözlər üçün təşəkkürünü bildirən Mustafa Şentop Türkiyənin bundan sonra da Azərbaycanın yanında olacağını və torpaqlarımızın düşmən tapdağından tezliklə tamamilə azad olunacağı günü səbirsizliklə gözlədiklərini diqqətə çatdırıb.

# Azərbaycan və Türkiyənin Xarici İşlər nazirləri arasında telefon danışığı olub

Oktyabrın 29-da Azərbaycan Respublikası Xarici İşlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon söhbəti zamanı nazir Ceyhun Bayramov həmkarına Türkiyə Cümhuriyyətinin qurulmasının 97-ci ildönümü münasibətilə səmimi təbriklərini çatdırıb, qardaş Türkiyəyə davamlı sülh, əmin-amanlıq və firavanlıq arzulayıb.

Nazirlər bölgədəki son vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.

Ermənistan tərəfindən azərbaycanlı mülki şəxslərin xaincəsinə hədəfə alınması və dinc insanlara qarşı növbəti müharibə cinayətlərinin törədilməsinin qəbuledilməz olduğu, bu cinayətlərə görə cavabdeh şəxslərin ədalət məhkəməsi qarşısında cavab verməsinin zəruriliyi vurğulanıb.

* * *

Oktyabrın 28-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun Avropa İttifaqının xarici və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borel ilə telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ceyhun Bayramov ali nümayəndəni Ermənistan silahlı qüvvələri tərəfindən humanitar atəşkəsin kobud şəkildə pozulması, mülki şəxslərin və infrastrukturun hədəf alınması, dinc əhali arasında çoxsaylı tələfata nail olmaq üçün kasetli bombalardan istifadə edilməsi ilə bağlı məlumatlandırıb. Nazir Ermənistan silahlı qüvvələrinin 27 və 28 oktyabr tarixlərində Bərdə şəhərinə raket hücumları ilə mülki şəxslərin məqsədyönlü şəkildə qətlə yetirildiyini qeyd edib. O vurğulayıb ki, bu Ermənistanın törətdiyi növbəti müharibə cinayətidir və bu cinayətə görə tam məsuliyyəti Ermənistan daşıyır.

Aİ-nin ali nümayəndəsi Jozef Borel mülki əhalinin atəşə tutulması ilə bağlı təəssüfünü ifadə edib və mülki şəxslərin hədəf alınmasının yolverilməzliyini vurğulayıb. Eyni zamanda o, münaqişənin sülh yolu ilə həllini təmin etmək üçün tərəflər arasında dialoqun bərpa olunmasının vacibliyini qeyd edib.

# Azərbaycanın Baş prokuroru ilə türkiyəli həmkarları arasında telefon danışığı olub



Oktyabrın 29-da Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ilə Türkiyə Respublikasının Ədliyyə naziri Əbdülhəmid Gül, Baş prokuroru Bekir Şahin və Ali Məhkəməsinin sədri Mehmet Akarca arasında telefon danışığı olub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Kamran Əliyev Türkiyə Respublikasının milli bayramı - Cümhuriyyətin elan olunmasının 97-ci ildönümü münasibətilə həmkarlarını təbrik edib, onlara firavanlıq arzularını çatdırıb.

Baş prokuror tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək bu əlaqələrin Türkiyə xalqının dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimiz" və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamları ilə ifadə edildiyini, hər iki dövlətin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasəti nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxaraq dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulayıb.

Kamran Əliyev Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının xalqlarımızın ortaq milli, mənəvi dəyərlərindən və ənənələrindən güc almaqla dünya ölkələrinə nümunə olduğunu vurğulayıb, qardaş Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsində ölkəmizin haqlı mövqeyini müdafiə etməsi və Vətən müharibəsi dönəmində ən yüksək mənəvi dəstəyinin xalqımız üçün olan əhəmiyyətindən söz açıb.

Baş prokuror Ermənistan Respublikasının rəhbərliyinin göstərişi ilə düşmənin silahlı qüvvələrinin dinc əhalimizə qarşı törətdiyi cinayətlər, o cümlədən oktyabrın 27-də və 28-də mülki əhalinin sıx yaşadığı Azərbaycanın Bərdə şəhərinə raketlərin atıldığını və nəticədə 25 nəfərin həlak olması, 82 nəfərin yaralanması, çoxsaylı yaşayış evləri və mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyməsi barədə həmkarlarını məlumatlandırıb.

Türkiyəli həmkarları, öz növbəsində Ermənistanın Azərbaycana yönəlmiş terror əməlləri ilə əlaqədar həlak olanların ailələrinə və xalqımıza dərin hüznlə başsağlığı verərək yaralananlara Allahdan şəfa diləyiblər.

Ermənistanın Azərbaycana yönəlmiş terrorçu hücumlarına görə cavab verməli olduğunu bildirən həmkarlar Ermənistanın oktyabrın 27-də və 28-də Bərdə şəhərinin dinc sakinlərini hədəfə alaraq raket zərbələri endirməsini kəskin pisləyib, Türkiyənin daim Azərbaycanın yanında olacağını diqqətə çatdırıblar.

Kamran Əliyev və türkiyəli həmkarları Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün istiqamətlərdə uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.






*Hikmət HACIYEV:*

## "Bərdə sakinlərinin əzmini diplomatik korpusun nümayəndələri və hərbi attaşelər də gördülər"

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə biz Bərdə və Tərtər şəhərlərinə bu səfəri təşkil etdik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bərdədə təşkil edilən brifinqdə bildirib.

Prezidentin köməkçisi səfərdə iştirak edən Azərbaycanda akkreditasiya olunmuş diplomatik nümayəndələrə və hərbi attaşelərə təşəkkür edib. O deyib ki, dünən və ondan əvvəlki gün Ermənistan silahlı qüvvələri "Smerç" raketləri və kasetli bombalardan istifadə edərək Azərbaycanın Bərdə şəhərini intensiv şəkildə atəşə tutub. Bunun nəticəsində çoxlu sayda insan həlak olub və yaralanıb. Bərdə şəhəri cəbhəyanı zonadan 60-70 kilometr kənarda yerləşir. Ermənistanın Bərdə şəhərini qadağan olunmuş silahlarla atəşə tutmasının yalnız bir məqsədi var idi: mülki insanların qətlinə səbəb olmaq və onlar arasında panika yaratmaq. Ancaq onlar bu məqsədlərinə heç bir halda nail ola bilməyəcəklər. Bərdə sakinlərinin əzmini diplomatik korpusun nümayəndələri və hərbi attaşelər də gördülər.

## "Ermənilərin bu əməlləri Xocalı soyqırımından başlayan və hazırda davam edən müharibə cinayətlərinin tərkib hissəsidir"

Ermənistan hərbi-siyasi rəhbərliyi o qədər azğınlaşıb ki, diplomatik nümayəndəliklərin təmsilçiləri Tərtərdə olanda da atəş açırdılar.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bərdədə keçirilən brifinqdə deyib.

Prezidentin köməkçisi qeyd edib ki, bu, ermənilərin Xocalı soyqırımından başlayan və bu gün də davam edən müharibə cinayətlərinin, insanlıq əleyhinə cinayət əməllərinin tərkib hissəsidir. Onlarda hər hansı məsuliyyət hissi qalmayıb. Gördüyümüz kimi, onların hədəfi mülki insanlardır.

"Tərtər şəhərində Ermənistan silahlı qüvvələrinin gün ərzində atdığı mərmilərin, mülki insanlara, yaşayış binalarına dəymiş zərərin bu gün bir daha şahidi olduq", - deyə Hikmət Hacıyev qeyd edib.

## "Azərbaycan Ordusu düşmənin cavabını verir və onları iti qovan kimi qovuruq"

Azərbaycan erməni təxribatlarına qarşı cavab tədbirləri görmək hüququnu özündə saxlayır, amma biz mülki əhaliyə qarşı döyüşmürük.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bərdədə jurnalistlərə müsahibəsində deyib.

Hikmət Hacıyev bildirib ki, Azərbaycanın özünümüdafiə hüququ var. BMT-nin Nizamnaməsinin 54-cü maddəsinə əsasən, Azərbaycan təhlükəsizliyini təmin etmək üçün legitim hərbi hədəflərə qarşı cavab tədbirləri görmək hüququnu özündə saxlayır. Amma Azərbaycanın məqsədi budur, biz mülki şəxslərlə döyüş aparmırıq, aparmayacağıq da.

"Biz döyüş meydanında döyüş aparırıq. Ermənistanın mülki şəxslərinə qarşı döyüş aparmırıq, ancaq legitim hərbi hədəflərə qarşı. Bu, bizim mədəniyyətimiz, xalqımızın mentalitetidir. Ermənistanla Azərbaycan arasındakı fərq bundan ibarətdir", - deyə Prezidentin köməkçisi qeyd edib.

Hikmət Hacıyev diqqətə çatdırıb ki, Xarici İşlər naziri tərəfindən artıq Minsk qrupunun həmsədr ölkələrinə və digər beynəlxalq təşkilatlara ermənilərin Bərdədə törətdiyi terror barədə məlumat verilib: "Bu, gördüyünüz kimi, Vaşinqtonda keçirilmiş görüşdən sonraya təsadüf edib və qarşıdan Cenevrə görüşləri gəlir. Ondan əvvəl Ermənistan tərəfindən növbəti bir xəyanətkar, alçaq və şərəfsiz hücum həyata keçirildi. Gördüyünüz kimi, Bərdə şəhərinin mərkəzində hər hansı bir hərbi məntəqə, hərbi hədəf yoxdur. Onların məqsədi, gücü ancaq mülki insanlara çatır və bu məqsədlə kasetli bombalardan istifadə edirlər. Məqsəd də birdir, insanlar arasında daha çox qırğın törətmək. Bu, Azərbaycan xalqını qorxutmur. Xalqımız daha da möhkəmdir. Ali Baş Komandanın əmrinə əsasən, biz də burdayıq, xalqımızla bir yerdəyik. Bərdə şəhərinin əzmini görürsünüz, digər şəhərlərimizdə - Tərtər, Gəncə, Mingəçevirdə olduğu kimi. Bu, xalqımızı daha da möhkəmləndirir".

Prezidentin köməkçisi deyib ki, əgər onlar bununla Azərbaycan xalqının əzmini sındıra biləcəklərini düşünürlərsə, yanılırlar. "Biz bundan sonra Tərtərə də gedəcəyik, atırlar-atsınlar. Amma Azərbaycan xalqının əzmini heç zaman sındıra bilməyəcəklər. Torpaqlarımız işğaldan azad olunacaq. Bir sözlə, əgər kişidirlərsə, döyüş meydanında ortaya çıxsınlar. Döyüş meydanından alçaqcasına, şərəfsizcəsinə qaçırlar, gücləri ancaq raket atmaqla qadın və uşaqlara çatır. Onun da cavabını Azərbaycan Silahlı Qüvvələri döyüş meydanında layiqincə verir. Ali Baş Komandanımız dediyi kimi, onları iti qovan kimi qovuruq və bundan sonra da qovacağıq. Onlar döyüş meydanında bir-bir cəzalandırılır. Azərbaycan Silahlı Qüvvələri döyüş meydanında Xocalı soyqırımını törədənlərin çoxunun cavabını verir. Artıq mətbuatda da məlumat var ki, qondarma rejimin müdafiə naziri olan şəxs də cəhənnəmə yola salınıb. Digərləri də öz paylarını alacaqlar. Ali Baş Komandan demişkən, iti qovan kimi hamısını qovacağıq", - deyə Hikmət Hacıyev bildirib.

## Cinayətlərin törədilməsi barədə əmr verən düşmənin komandirləri bir-bir məhv edilir

Azərbaycan bütün cəbhə xətti boyunca düşmənin layiqli cavabını verir, cinayətlərin törədilməsi barədə əmr verən düşmənin hərbi komandirləri bir-bir məhv edilir.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bərdədə jurnalistlərə müsahibəsində deyib.

Hikmət Hacıyev qeyd edib ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşib: "Biz torpaqlarımızı işğaldan azad edəcəyik. Qardaş Türkiyənin dəstəyi Azərbaycanın haqq işini gücləndirir. Hazırda eşitdiyiniz kimi, düşmən yenə artilleriyadan atəş açır, amma biz qorxmuruq və qorxmayacağıq".

## Baş prokuror: "Tarixdə heç bir vaxt bu kimi cinayətləri törədənlər məsuliyyətdən qaça bilməyiblər"

Azərbaycan xalqına qarşı növbəti cinayət həyata keçirilib. Tam məsuliyyətimlə deyirəm ki, bu cinayət birbaşa olaraq Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən törədilib.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Azərbaycanın Baş prokuroru Kamran Əliyev Bərdədə jurnalistlərə açıqlamasında deyib.

"Bir daha tam məsuliyyətimlə deyirəm ki, bu, Azərbaycanın döyüşdəki uğurları ilə bağlıdır. Azərbaycan Ordusu cəbhədə irəlilədikcə, erməni silahlı birləşmələrinə zərbələr endirdikcə, daim Ermənistanın siyasi rəhbərliyi tərəfindən bu kimi göstərişlər verilir. Bununla bağlı tərəfimizdən cinayət işi başlanılıb. Dünəndən istintaq-əməliyyat qrupu Bərdə şəhərində işləyir və zəruri olan bütün sübutlar toplanılır. Tarixdə heç bir vaxt bu kimi cinayətləri törədənlər məsuliyyətdən qaça bilməyiblər və qaça da bilməyəcəklər", - deyə Kamran Əliyev bildirib.

## İndiyədək 90 dinc sakin erməni terrorunun qurbanı olub

Sentyabrın 27-dən bugünə kimi 90 dinc sakin erməni terrorunun qurbanı olub.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, Baş prokuror Kamran Əliyev bunu Bərdədə jurnalistlərə açıqlamasında deyib.

"Ermənistanın bu cür əməllərinə qarşı cavab veriləcək və onlar gec-tez məsuliyyətə cəlb ediləcəklər. Azərbaycanda törədilən bu terror aktı onun döyüşdə olan uğurları ilə bağlıdır. Tam əminliklə deyə bilərəm ki, Azərbaycan hər dəfəsində döyüşlərdə uğurlar əldə etdikdə, Ermənistan hakimiyyəti bizim dinc insanlara qarşı terror törətməyi əmr edir", - deyə Baş prokuror bildirib.

Qeyd edək ki, Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin əməkdaşları oktyabrın 29-da Bərdəyə səfər ediblər. Səfərin məqsədi diplomatları oktyabrın 27-də və 28-də cəbhə zonasından kənarda yerləşən, 100 min əhalisi olan Bərdə şəhərində Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

# Konstitusiya Məhkəməsi Bərdədə Ermənistanın törətdiyi terror aktları ilə bağlı dünya ölkələrinin konstitusiya ədalət mühakiməsi orqanlarına müraciət edib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Bərdə şəhərində oktyabrın 27-də və 28-də mülki əhaliyə qarşı Ermənistanın hərbi-siyasi rəhbərliyinin törətdiyi terror aktları ilə bağlı dünya ölkələrinin konstitusiya ədalət mühakiməsi orqanlarına müraciət edib. Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən bildirilib.

Müraciətdə deyilir: "Ermənistan silahlı qüvvələri humanitar atəşkəs rejimini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı şəhər və kəndləri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya və raketlərdən atəşə tutmaqla dağıntı və yanğınlar törədir. Ermənistan silahlı qüvvələri hərbi cinayətlərini davam etdirərək beynəlxalq hüquq normaları ilə qadağan edilmiş kaset bombalarından istifadə etməklə, oktyabrın 27-də Bərdə şəhərini müxtəlif istiqamətlərdən ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 4 dinc sakin həlak olub, 13-ə yaxın insan yaralanıb. Oktyabrın 28-də isə Bərdə şəhərinin Ermənistan tərəfindən yenidən raket atəşinə tutulması 21 dinc sakinin həlak olması, 70-ə yaxın insanın yaralanması ilə nəticələnib.

Həmin terror aktlarının nəticəsində ölənlər və yaralananlar arasında azyaşlı uşaqlar və qadınlar var. Mülki infrastruktura ciddi ziyan dəyib.

Döyüş zonasından 40 kilometr məsafədə yerləşən Bərdə şəhərinə iki gün ard-arda raket zərbələrinin endirilməsi və mülki şəxslərin vəhşicəsinə qətlə yetirilməsi erməni faşizminin növbəti təzahürüdür.

Ümumiyyətlə, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın müxtəlif yaşayış məntəqələrində 90 mülki şəxs həlak olub, 392 nəfər yaralanıb.

Dinc əhaliyə qarşı törədilən bu terror aktları bir daha onu göstərir ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq humanitar hüquq normalarını, xüsusilə "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasını, BMT-nin Uşaq Hüquqları Konvensiyasını, habelə insan hüquqları sahəsində digər beynəlxalq hüquq sənədlərini kobud şəkildə pozmaqla öz təcavüzkar siyasətindən əl çəkmir, sülh və insanlıq əleyhinə yönəlmiş cinayətlərini davam etdirir.

Biz dünyanın bütün konstitusiya ədalət mühakiməsi orqanlarını, Ermənistan hökumətinin qadağan edilmiş silahlardan istifadə edərək beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi hərbi və qeyri-insani cinayət əməllərini və qəddar işğalçı siyasətini qınamağa çağırırıq".

# OPEC münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır

Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Məhəmməd Sanusi Barkindo Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı məktubda hazırda ölkəmizdə mülki şəxslərin ölümü və böyük dağıntılarla müşayiət olunan hərbi əməliyyatların davam etməsindən dərin narahatlıq keçirdiklərini bildirib.

Qeyd edib ki, bu münaqişə həmçinin dünya bazarlarında enerji təchizatının təhlükəsizliyi və sabitliyi üçün böyük əhəmiyyət kəsb edən Azərbaycanın əsas neft və qaz infrastrukturunu təhlükə altına qoyub. Baş katib bütün tərəflərin, eyni zamanda, beynəlxalq ictimaiyyətin təşəbbüsləri və birgə səyləri nəticəsində hərbi əməliyyatlara dərhal son qoyulacağına, münaqişənin daha da genişlənməsinin qarşısı alınacağına ümidvar olduğunu deyib. Vurğulayıb ki, OPEC münaqişənin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə və ədalətli həllinin tərəfdarıdır.

Məktubda həmçinin vurğulanır ki, Azərbaycan OPEC və qeyri-OPEC ölkələrinin son 4 ildə birgə təşviq etdiyi tarixi sazişlərin sadiq tərəfdarı olduğunu sübut edib.

"Əməkdaşlığımızın ilk günlərindən etibarən Azərbaycanın 2016-cı il dekabrın 10-da imzalanmış "Əməkdaşlıq Bəyannaməsi"nə qoşulmasından sonra ölkənizin fəal iştirakını və öz öhdəliklərinə davamlı sadiqliyini, eləcə də onun neft bazarının daha çox ehtiyac duyduğu sabitliyin bərpa olunmasına göstərdiyi fəal dəstəyi yüksək qiymətləndiririk", - deyə OPEC-in Baş katibi qeyd edib.

# TÜRKPA-nın Baş katibi Azərbaycan şəhərlərinə edilən hücumları şiddətlə qınayır

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Baş katibi Altınbek Mamayusupov erməni silahlı qüvvələri tərəfindən Azərbaycan şəhərləri Bərdə və Tərtərdə mülki şəxslərə qarşı törədilməkdə davam edən qeyri-insani addımları şiddətlə qınayır.

AZƏRTAC xəbər verir ki, Baş katib bunun insanlıq əleyhinə addım və beynəlxalq humanitar hüququn bütün mövcud normalarının kobud şəkildə pozulması kimi qiymətləndirilə biləcəyini vurğulayır. Bununla əlaqədar olaraq TÜRKPA beynəlxalq hüquq prinsiplərinə sadiqliyini bir daha təsdiqləyərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında qısa zamanda həllini qətiyyətli şəkildə dəstəkləyir.

Baş katib insanların həyatlarını itirmələri ilə bağlı Azərbaycan xalqına dərin hüznlə başsağlığını bildirib və yaralananlara şəfa diləyib.

# Terrorçu Ermənistanın hədəfi yenə də dinc əhalidir

## Xarici diplomatlar Bərdədə erməni terrorunun izləri ilə tanış olublar






*Əvvəli 1-ci səh.*

Daha sonra erməni terrorunun izləri ilə tanışlıq olub. Bildirilib ki, Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.






Ermənistan cəbhədə aldığı ağır məğlubiyyətlərin acısını dinc sakinlərdən çıxır və Azərbaycanın mülki şəxslərini hədəf alır. Ermənistana qarşı siyasi-diplomatik təzyiqlərin olmaması və bu ölkənin əməllərinin qınanmaması onu yeni cinayətlər törətməyə sövq edir. İstifadəsi qadağan olunmuş raketlərin dinc insanlara qarşı tətbiq edilməsi nəticəsində çoxsaylı mülki şəxs həlak olub. Ümumiyyətlə sentyabrın 27-dən bəri mülki şəxslərdən 90 nəfər həlak olub, 400-ə yaxın dinc sakin isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2338 ev, 92 çoxmənzilli yaşayış binası və 415 mülki obyekt yararsız vəziyyətə düşüb.

Diqqətə çatdırılıb ki, oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən kasetli raketlərlə atəşə tutulması nəticəsində aralarında 7 yaşlı uşaq da olmaqla 5 mülki şəxs həlak olub, 10-a yaxın dinc sakin yaralanıb. Ondan bir gün sonra - oktyabrın 28-də yenidən düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərində dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə olunmaqla zərbələr endirilməsi nəticəsində aralarında uşaq və qadınlar da olmaqla 21 dinc sakin həlak olub, 70-ə yaxın mülki şəxs yaralanıb. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Erməni terroru nəticəsində ölənlər arasında Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) könüllüsü də var. O, Bərdə şəhərində dinc sakinlərə humanitar dəstək verərkən qətlə yetirilib.

Beləliklə, Ermənistan atəşkəs rejiminə üçüncü dəfədir əhəmiyyət vermir. Oktyabrın 10-da Moskvada birgə bəyanat, oktyabrın 18-də Parisin vasitəçilik səyləri ilə öhdəliyin yenidən elan edilməsi və oktyabrın 24-də Vaşinqtonda təcili humanitar atəşkəsin həyata keçirilməsi razılığı Ermənistan tərəfindən kobud şəkildə pozulub.

## Xarici diplomatlar Tərtərə səfər ediblər





Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri oktyabrın 29-da Bərdədə erməni terrorunun izləri ilə tanış olduqdan sonra Tərtərə səfər ediblər.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, səfərin məqsədi diplomatları və hərbi attaşeləri Tərtərdə Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

Erməni vandalizmi ilə tanış olan diplomatlara məlumat verilib ki, Tərtər mütəmadi olaraq atəş altındadır. Sentyabrın 27-dən bugünə qədər rayona ümumilikdə 15 min 500-ə yaxın mərmi düşüb. Hətta elə olub ki, bir gündə 2280 ədəd mərmi atılıb. Mərmilərin düşməsi nəticəsində 17 dinc sakin həlak olub. Onlardan 1-i uşaq, 1-i isə qadındır. Altmışdan çox yaralı var. İndiyə qədər 133 ev tamamilə dağılıb, 873 ev qismən ziyan çəkib, 14 məktəb, 3 xəstəxana, 18 inzibati bina, 65 ictimai yaşayış binasına (1-i tamamilə dağıdılıb) ziyan dəyib.

Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Tərtərdə erməni terrorundan zərər görmüş ərazilərə baş çəkib, müharibə cinayətlərinin şahidi olublar.

* * *

Sonra diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərlərinin iştirakı ilə Bərdədə brifinq keçirilib. Brifinqdə erməni vandalizminin acı nəticələrindən danışılıb, bununla bağlı cinayət işinin başlandığı bildirilib, suallar cavablandırılıb.

## Ermənistanın raket zərbələri nəticəsində Bərdə Olimpiya İdman Kompleksi yararsız vəziyyətə düşüb




Bərdənin təcavüzkar Ermənistan tərəfindən raket atəşinə tutulması nəticəsində bir çox mülki obyektlərlə yanaşı, Bərdə Olimpiya İdman Kompleksinə də ziyan dəyib. Nəticədə bu idman qurğusu tamamilə yararsız vəziyyətə düşüb.

Azərbaycan Milli Olimpiya Komitəsindən AZƏRTAC-a bildiriblər ki, 3,8 hektar ərazini əhatə edən Bərdə Olimpiya İdman Kompleksinin hər iki binasının infrastrukturu sıradan çıxıb.

Kompleksin direktoru Qabil Məmmədovun verdiyi məlumata görə, xoşbəxtlikdən işçilər arasında zərərçəkən yoxdur. Ancaq ilkin hesablamalara əsasən, kompleksə yüz minlərlə manat dəyərində ziyan dəyib.




Qeyd edək ki, yüksəksəviyyəli müxtəlif yarışların keçirilməsi üçün nəzərdə tutulan və beynəlxalq standartlara cavab verən kompleks 2003-cü il oktyabrın 7-də istifadəyə verilib.

Ermənistan silahlı qüvvələri humanitar atəşkəs rejimini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya və raketlərdən atəşə tutmaqla dağıntı və yanğınlar törətməkdə davam edir.

## Baş Prokurorluq: "Ermənistanın işğal olunmuş ərazilərimizdə mədəni sərvəti və əmlakı məhv etməsi və talaması ilə bağlı cinayət işi başlanıb"

Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzkar siyasəti nəticəsində işğal edilmiş ərazilərdəki yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən ümumilikdə 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, 700-dən artıq tarix və mədəniyyət abidəsi, o cümlədən Cəbrayıl rayonunda 11 və 15 aşırımlı Xudafərin körpüləri, Kəlbəcər rayonunda Gəncəsar və Xudavənd məbədləri, Ağdam rayonunun Xaçın Türbətli kəndində məqbərə, Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri - Azıx mağarası, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi zərurət olmadan hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə olunmuş gücləndirilmiş mühafizə altındakı Xocalı, Ağdam rayonunda Üzərliktəpə, Füzuli rayonunda Qaraköpək kurqanları və digər tarixi mədəniyyət abidələri, eləcə də arxeoloji qazıntılar zamanı aşkarlanmış ümumdünya əhəmiyyətinə malik 100 mindən artıq qiymətli və nadir eksponat məhv edilib və talanıb, habelə işğalı əbədiləşdirmək və ermənilərin guya işğal olunmuş ərazilərdə tarixən yaşamasını beynəlxalq ictimaiyyətə inandırmaq üçün aparılmış qanunsuz arxeoloji qazıntı işləri zamanı aşkar olunmuş Azərbaycan xalqına məxsus tarixi mədəniyyət nümunələri talan edilərək qanunsuz olaraq Ermənistan Respublikasına aparılıb.

Ermənistan Respublikasına qanunsuz çıxarılmaqla özgəninkiləşdirilərək talan edilmiş, xüsusi tarixi, elmi, ədəbi və mədəni dəyəri olan əşyalar və sənədlər talanması nəticəsində məhv olmuş, korlanmış və dağıdılmış, ağır nəticələrə səbəb olmuş Azərbaycan Respublikasına, onun vətəndaşlarına, ayrı-ayrı fiziki və hüquqi şəxslərə məxsus xüsusilə külli miqdar təşkil edən milyardlarla manat dəyərində daşınar və daşınmaz əmlaklar yandırılmaqla, partladılmaqla və başqa ümumi təhlükəli üsullarla qəsdən məhv edilib. Bundan başqa, işğal olunmuş ərazilərdə Azərbaycan dövlətinə məxsus yeraltı və yerüstü sərvətlər talanmaqla ətraf mühitə qəsdən geniş, uzunsürən və ciddi ziyan vurulub.

Qeyd olunan faktlarla bağlı toplanmış materiallar əsasında Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 116.0.2-ci (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 116.0.8-1-ci (hərbi zərurət olmadan qəsdən mədəni sərvəti, o cümlədən gücləndirilmiş mühafizə altında olan mədəni sərvəti hücum obyektinə çevirmə, yaxud gücləndirilmiş mühafizə altında olan mədəni sərvətdən və ya ona bilavasitə bitişik ərazilərdən hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə etmə), 183.2.1-ci (xüsusi dəyəri olan əşyaları talama), 186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə), 193-1-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma), 206.4-cü (qaçaqmalçılıq) və digər maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilməklə istintaq-əməliyyat qrupu yaradılıb.

İşğaldan azad olunmuş ərazilərdə prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış və dəymiş zərərin müəyyən edilməsindən ötrü zəruri olan digər istintaq hərəkətləri keçirilir.

Ermənistanın işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, təqsirkar şəxslərin beynəlxalq və milli qanunvericiliyin tələblərinə əsasən məsuliyyətə cəlb edilməsi və sanksiyaların tətbiq olunması məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən beynəlxalq qurumlara müraciət edilməklə mümkün olan bütün tədbirlər görüləcək.

## Ermənistanın təxribatları nəticəsində həlak olan mülki şəxslərin sayı 90-a çatıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 29-u saat 13:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 90 nəfər həlak olub, 392 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2406 ev, 92 çoxmənzilli yaşayış binası və 423 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

## Düşmən istifadəsi qadağan olunan raketlərlə dinc əhalini hədəf alıb

Bərdəyə "Smerç" tipli raket atılıb. Burada dinc əhali hədəfə alınıb.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) direktoru Qəzənfər Əhmədov ermənilərin dünən Bərdə şəhərinə endirdiyi raket zərbələri nəticəsində dağılmış ərazilərə diplomatik korpusun nümayəndələri ilə birgə baş çəkən zaman yerli və xarici mətbuata açıqlamasında deyib.

O bildirib ki, hər raketin içərisində 72 ədəd bombacıq olur: "Biz iki ədəd raketin qalıqlarını tapmışıq. Bu raketlərin beynəlxalq konvensiyalara görə, dinc əhaliyə qarşı istifadəsi qadağandır. Ermənilər bundan əvvəl də bu tipli raketləri Goranboy və Ağcabədiyə atıb. Düşmən açıq şəkildə dinc əhalini hədəfə alıb".

Qeyd edək ki, Azərbaycandakı diplomatik korpusun nümayəndələri, səfirlər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri oktyabrın 29-da Bərdəyə səfər ediblər. Səfərin məqsədi diplomatları oktyabrın 27 və 28-də cəbhə zonasından kənarda yerləşən, 100 min əhalisi olan Bərdə şəhərində Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

Oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən kasetli raketlərlə atəşə tutulması nəticəsində aralarında 7 yaşlı uşaq da olmaqla 5 nəfər mülki şəxs həlak olub, 10-a yaxın dinc sakin yaralanıb. Ondan bir gün sonra - oktyabrın 28-də yenidən düşmənin silahlı birləşmələri tərəfindən Bərdə şəhərində dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə olunmaqla zərbələr endirilməsi nəticəsində aralarında uşaq və qadınlar da olmaqla 21 dinc sakin həlak olub, 70-ə yaxın mülki şəxs yaralanıb. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

# Müdafiə Nazirliyi xəbər verir

## Anar EYVAZOV: "Azərbaycan Ordusunun qarşısında bir hədəf var: işğal altında qalan bütün torpaqlarımızın azad olunması"

Humanitar atəşkəs rejimini kobudcasına pozaraq şəhər və rayonlarımızda dinc əhalini və mülki infrastrukturu atəşə tutan düşmən bölmələrini Azərbaycan Ordusu cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində gedən döyüşlərdə darmadağın edib. Dəqiq atəş zərbələrinə tab gətirə bilməyən düşmən itki verərək qaçmağa və geriyə çəkilməyə məcbur edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 29-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, ümumilikdə düşmənin ordu korpusunun və diviziyasının yüksək rütbəli zabitləri daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif artilleriya qurğusu, 6 ədəd avtomobil texnikası və bir neçə dayaq məntəqəsi bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib. Döyüş meydanında məhv olan bölmələrinə dəstək üçün gələn düşmənə məxsus iki "Su-25" tipli hücum təyyarəsi hərbi hava hücumundan müdafiə bölmələrimiz tərəfindən havada məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, düşmənin bir neçə istiqamətdə hücum etmək cəhdinin qarşısı qətiyyətlə alınıb. Ermənistan ordusu Bərdə, Goranboy və Tərtər rayonlarında yaşayış məntəqələrimizi və mülki infrastrukturlarımızı raket və artilleriya silahları ilə atəşə tutmaqla növbəti müharibə cinayətlərinə əl atıb.

Özbaşınalığın hökm sürdüyü Ermənistan ordusunda könüllülər və nizami bölmələrinin şəxsi heyəti arasında açıq qarşıdurmalar, tabesizlik, bir-birilərinə qarşı silah tətbiq etmə, döyüşə girməkdən imtina, əmr olmadan mövqelərdən geri çəkilmə və kütləvi fərarilik halları baş alıb gedir. Təşviş və xaos bürümüş ordusunun uğursuzluğunu gizlətmək məqsədilə feyk foto və videomaterialların, saxta məlumatların da faydasız olduğunu görən Ermənistan rəhbərliyi düşdükləri ağır vəziyyətlə barışmağa məcbur edilir.

"Beynəlxalq humanitar hüququn normalarını kobudcasına pozaraq dinc sakinləri və mülki infrastrukturu hədəfə almaqla Ermənistan silahlı qüvvələri müharibə cinayətlərini davam etdirir. Azərbaycan Ordusunun qarşısında bir hədəf var: mülki insanlara ziyan vurmadan, yalnız legitim hərbi hədəfləri dəqiq atəşlə məhv edərək işğal altında qalan bütün torpaqlarımızın azad olunması. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

### Ermənistan cəmiyyətində təşviş, ordusunda isə xaos, kütləvi fərarilik və özbaşınalıq hökm sürür

Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə qarşı həyata keçirdiyi uğurlu döyüş əməliyyatları və dəqiq atəş zərbələri nəticəsində erməni cəmiyyətində təşviş, Ermənistan ordusunda isə xaos, kütləvi fərarilik və özbaşınalıq hökm sürür.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əldə edilən məlumatlara əsasən könüllülər və düşmənin ordu bölmələrinin şəxsi heyəti arasında mübahisələr, bir-birinə qarşı silah tətbiq etmək, döyüşə girməkdən imtina, əmr olmadan mövqelərdən geri çəkilmə və kütləvi fərarilik baş alıb gedir.

Düşmənin 7-ci dağatıcı alayının mövqelərinə gətirilmiş könüllülərlə müqavilələi hərbi qulluqçular arasında baş verən mübahisə silahlı qarşıdurma ilə nəticələnib. Ölən və yaralananlar var.

Xocavənd rayonunun Sos yaşayış məntəqəsi istiqamətində hərəkət edən şəxsi heyətin komandanlığa tabe olmaqdan və əmri yerinə yetirməkdən imtina edərək ərazini tərk etməsi barədə yuxarı komandanlığa məlumat verilib. Həmin hərbi qulluqçuların yenidən mövqelərinə qaytarılması ilə bağlı görülən tədbirlər isə nəticəsiz qalıb.

Ermənistan silahlı qüvvələrinin 543-cü alayının hərbi qulluqçuları kütləvi şəkildə Dağlıq Qarabağa getməkdən imtina edib. Təcili olaraq hərbi hissəyə gələn hərbi prokurorluq əməkdaşları döyüşə getməkdən imtina edən hərbçiləri həbslə hədələyərək onları istənilən döyüş tapşırığını yerinə yetirmələri barədə iltizam imzalamağa məcbur ediblər.

Oxşar hadisə Ermənistanın Koti yaşayış məntəqəsində dislokasiya edilən hərbi hissədə də baş verib. Burada xidmət edən hərbi qulluqçular döyüşə getməkdən imtina etdiklərinə görə hərbi polis tərəfindən həbs edilib.

Görülən bütün cəza tədbirlərinə baxmayaraq, Ermənistan müdafiə nazirliyinin rəhbərliyi Dağlıq Qarabağa getməkdən imtina edənlərin qarşısını almaqda acizdir.

Erməni hərbi qulluqçularının döyüşdən kütləvi şəkildə imtina etməsinə səbəb Azərbaycan Ordusunun döyüş meydanında qələbələri və düşmənə endirdiyi dəqiq atəş zərbələri nəticəsində çoxlu sayda döyüş texnikasının və canlı qüvvəsinin məhv edilməsi ilə bağlı təqdim edilən videogörüntülərdir.










### Azərbaycan Ordusunun Ermənistanla sərhəd zastavanı minaatanlardan atəşə tutması ilə bağlı yayılan məlumat tamamilə dezinformasiyadır

Ermənistan mətbuatının Azərbaycan Ordusunun guya Ermənistan ərazisində İranla həmsərhəd bölgələrdə yerləşən Rusiya sərhəd zastavasını minaatanlardan atəşə tutması ilə bağlı yaydığı məlumat tamamilə dezinformasiyadır və təxribat xarakteri daşıyır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əksinə, həmin istiqamətdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisi atəşə tutulub.

Bir daha bildiririk ki, bizim Ermənistan ərazisində heç bir hərbi məqsədimiz yoxdur.

### Ermənistan ordusunun yüksək rütbəli bir neçə zabiti məhv edilib və yaralanıb

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində bölmələrimizin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dünən gün ərzində düşmənin bir neçə istiqamətdə hücum etmək cəhdinin qarşısı qətiyyətlə alınıb. Döyüş texnikası və canlı qüvvə sarıdan xeyli sayda itki verən düşmən geri çəkilib.

Görülən cavab tədbirləri nəticəsində düşmənin 1-ci ümumqoşun ordusu komandanının müavini polkovnik Artur Sarqisyan və 18-ci motoatıcı diviziyanın rabitə rəisi mayor Aram Ğazaryan məhv edilib.

Bundan əlavə, 1-ci ümumqoşun ordunun artilleriya idarəsinin zabiti polkovnik-leytenant B.Aseryan, 2-ci motoatıcı alayın komandiri Hunan Hayrumyan yaralanıb və 5-ci dağatıcı alayın 3-cü taborunun komandir müavini Roman Tunyan isə itkin düşüb.

### Yaylım atəşli reaktiv sistemlərimizin hamısı tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir

Oktyabrın 29-da Ermənistan Müdafiə Nazirliyi guya Azərbaycana məxsus "Smerç" yaylım atəşli reaktiv sisteminin vurulması barədə videogörüntülər yayıb. Bildiririk ki, təqdim edilən video saxtadır və harada çəkildiyi məlum deyil.

AZƏRTAC xəbər verir ki, bu barədə Ermənistan tərəfinin əsassız iddiaları ilə bağlı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin açıqlamasında ifadə olunub.

Nazirliyin məlumatında bildirilib ki, Azərbaycana məxsus "Smerç" yaylım atəşli reaktiv sistemlərinin hamısı tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

### Dağlıq Qarabağın yaşayış məntəqələrinə raket və aviasiya zərbələrinin endirilməsi xəbəri yalandır

Ermənistan mətbuatının guya Azərbaycan Ordusunun bölmələrinin Xankəndiyə raket, Əsgəran, Ağdərə və Xocavəndə isə aviasiya zərbələrinin endirilməsi xəbəri yalandır. Bu xəbər düşmənin bu gün Azərbaycanın yaşayış məntəqələrini raket-artilleriya atəşinə tutmasından diqqəti yayındırmaq məqsədini güdür.

Ermənistan silahlı qüvvələrindən fərqli olaraq Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə riayət edir və yalnız düşmənin atəş nöqtələrinə adekvat zərbələr endirir.





### Azərbaycan HHQ-nin aviasiya vasitələri bugünkü döyüşlərdə tətbiq olunmayıb

Ermənistan tərəfinin guya bu gün aviasiya vasitələrimizin tətbiqi ilə Ağdərə şəhərinə zərbələr endirilməsi barədə yaydığı xəbər dezinformasiyadır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu gün Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus heç bir aviasiya vasitəsi ümumiyyətlə havaya qalxmayıb.

### Ermənistanın iki Su-25 təyyarəsi məhv edilib

Oktyabrın 29-da saat 13:18 və 13:20 radələrində cəbhənin Qubadlı istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin iki Su-25 hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

### Bərdənin qisası alındı: Bu şəhərdə dinc sakinləri atəşə tutan düşmən qüvvələri döyüş meydanında məhv edilib

Rəşadətli Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərində törətdiyi qanlı terror cinayəti nəticəsində həlak olan şəhidlərimizin qisasını alıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bərdədə dinc sakinləri atəşə tutan düşmən qüvvələri döyüş meydanında məhv edilib.

### Gənc zabitin dəqiq hesablamalarla verdiyi koordinatlar əsasında düşmən hədəfləri darmadağın edilib

Azərbaycan Silahlı Qüvvələrinin zabiti leytenant Salmanov Fəqan Rzalı oğlu döyüş meydanında şəxsi bacarığı ilə seçilən hərbi qulluqçulardandır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, onun dəqiq hesablamaları ilə verdiyi çox sayda hədəflər məhv edilib.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Həsənov Novruz Muxtər oğlu da torpaqlarımızın işğalçılardan azad olunması uğrunda gedən döyüşlərdə verilən döyüş tapşırığının öhdəsindən layiqincə gəlir.

N.Həsənov top komandiri olaraq dəqiq atəşlə düşmənin 3 ədəd KS-19 topunu məhv edib.

### Müdafiə Nazirliyi düşmənin döyüş meydanında atıb qaçdığı döyüş sursatı və texnikalarının videogörüntüsünü paylaşıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi düşmənin döyüş meydanında atıb qaçdığı hərbi sursat, zirehli və avtomobil texnikalarının videogörüntüsünü paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir.

### Geri çəkilməyə məcbur edilən düşmən məğlubiyyətinin əvəzini dinc sakinləri atəşə tutmaqda görür

Azərbaycan Ordusunun endirdiyi zərbələr nəticəsində Ermənistan silahlı qüvvələrinin bölmələri geri çəkilməyə məcbur edilir. Düşmən xeyli itki verir, onun döyüş texnikası sıradan çıxarılır. Ermənistanın hərbi rəhbərliyi də artıq buraxdıqları səhvləri etiraf etmək məcburiyyətində qalıb. Onlar düşdükləri ağır vəziyyətlə barışmağa məcburdurlar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, biz torpaqlarımızı azad etdikcə düşmənin xeyli sayda silah-sursatını qənimət kimi götürürük.

Beynəlxalq humanitar hüquq normalarını kobudcasına pozan Ermənistan silahlı qüvvələri dinc sakinləri və mülki infrastrukturu hədəfə alır.

Azərbaycan Ordusunun qarşısında yalnız bir tapşırıq var: mülki insanlara ziyan vurmadan, ancaq hərbi obyektlərə zərbə endirməklə torpaqları işğaldan azad etmək.

* * *

Bərdə və Goranboy rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Xatırladaq ki, oktyabrın 29-da Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyovun və Baş prokuror Kamran Əliyevin müşayiəti ilə Bərdə rayonunda olublar.

* * *

Ermənistan silahlı qüvvələri oktyabrın 29-da saat 09:25 radələrində Goranboy rayonunun ərazisini artilleriya atəşinə tutub.

* * *

Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin dövlət rəsmiləri ilə birgə Tərtərə səfəri zamanı humanitar atəşkəs rejimini növbəti dəfə kobudcasına pozan Ermənistan silahlı qüvvələri qəsdən həmin istiqaməti atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, biz Ermənistanın bu addımını qəti surətdə pisləyir və beynəlxalq ictimaiyyətə qarşı təcavüz aktı kimi dəyərləndiririk.

---

**Prezidentə yazırlar**

## "Cənab Prezident, ədalət mübarizənizdə canımızla, qanımızla Sizin yanınızdayıq"

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə vətəndaşlarımızdan, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyə və digər ölkələrin vətəndaşlarından məktublar gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Türkiyənin Balıkesir şəhərindən **Berkut Gencay Sarıkız** yazır: "Hörmətli cənab Prezident, mən məktəbliyəm. Azərbaycanı çox sevirəm. Düşünürəm ki, atamın mənə məktəb ləvazimatı almaq üçün verdiyi 100 türk lirəsini Azərbaycanın Silahlı Qüvvələrinə bağışlamağım, inşallah, əsgərlərimizə töhfəm olar. Mən isə hələlik köhnə dəftərimdən, qələmlərimdən istifadə edə bilərəm. Həmin pulun əsgərləriniz olan böyük qardaşlarıma daha çox kömək olacağına ümid edirəm. İnşallah, qələbə sizinlədir. Allah əsgərlərimizin ayağına daş, gözünə yaş salmasın".

Yozqat şəhərindən **Hilalsu Mert** yazır: "Hörmətli cənab Prezident, mənim 10 yaşım var. Sizi səmimi-qəlbdən salamlayır, dəyərli böyüyüm kimi əllərinizdən öpür, uca Allaha Sizi qoruması üçün dua edirəm. Hər gün televiziyadan ölkənizin torpaqlarınızı işğaldan azad etmək üçün göstərdiyiniz mübarizəni həyəcanla izləyirəm. Mən inanıram ki, uğrunda şəhidlər verdiyiniz doğma torpaqlarınızı erməni zülmündən qurtaracağınız günlər yaxındadır. Biz bütün ailə üzvlərimizlə birlikdə Sizə və qəhrəman əsgərlərinizə görə dua edirik. Kədəriniz kədərimiz, sevinciniz sevincimizdir. Mən özümə məxsus sırğamı Azərbaycan əsgərinə kömək üçün yaradılan fonda bəxş etməklə, ümid edirəm ki, az da olsa igid əsgərlərimizə dəstək ola bilərəm. Allaha əmanət olun".

Giresun şəhərindən **Erdal Adlan** yazır: "Hörmətli cənab Prezident, müraciətimin əvvəlində tarixboyu Azərbaycanın və Türkiyənin azadlığı uğrunda şəhid olan bütün əsgərlərimizə Allahdan rəhmət diləyirəm. Cənab Prezident, keçən əsrin 90-cı illərinin əvvəlində 10 yaşım olsa da, Dağlıq Qarabağın işğal edilməsi barədə xəbərləri babamla birlikdə böyük ürək ağrısı ilə qarşıladıq, göz yaşlarımızı saxlaya bilmədik. İllərdir bu yara ürəyimizdə qaysaq bağlamır, içimizi qanadırdı. Amma əmin idim ki, əsl türk olan azərbaycanlı qardaşlarım bir qarış torpaq belə verməzlər. Erməni terrorçularını doğma torpaqlarınızdan qovmanıza çox sevindim. Onları sonacan qovun, 10 yaşında olan uşaqlarımızın bir daha üzülməsinə imkan verməyin. Ermənilərin hələ 1915-1923-cü illərdə doğulduğum Giresun şəhərində törətdikləri vəhşiliklər, tarixboyu türklərə qarşı xainlikləri hələ də yaddaşlardan silinməyib. Siz mübarizənizdə qazandığınız qələbələrlə təkcə öz şəhidlərinizin deyil, erməni terrorunun qurbanı olan hər bir kəsin qisasını alırsınız. Türkiyə hər zaman candan əziz olan Azərbaycanın yanındadır. Ölkəmizin hər bir vətəndaşı Azərbaycan üçün canından belə keçməyə hazırdır və bunu özlərinə şərəf bilirlər. Mən, həmçinin türk qanı daşıyan hər kəs haqq işinizi hələlik dualarımızla dəstəkləyirik. Ədalət mübarizənizdə canımızla, qanımızla Sizin yanınızda olduğumuzu unutmayın. Şəhidlərinizə rəhmət, yaralılara şəfa diləyirəm. Tanrı türkü qorusun! Türk qanı daşıyan xoşbəxtdir".

Rusiyanın Moskva şəhərindən **Namiq Əlimuradov:** "Hörmətli cənab Prezident, artıq bir aydır ki, doğma Vətənim sevimli Azərbaycanımda baş verən hadisələri izləyirəm. Qarabağ torpaqlarının qaytarılması uğrunda savaşda Azərbaycan Ordusunun növbəti uğuru barədə hər dəfə xəbər alanda sevinc və qürur hissləri keçirirəm. Vətəndən xeyli uzaqda olmağım heç bir zaman mənim Azərbaycana sevgimi azalda, ölkəmə görə duyduğum fəxarət hissini zəiflədə bilməz. Cənab Prezident, Sizə, eləcə də Azərbaycan xalqına mətanət, əzm və bütün işlərdə uğurlar arzulayıram. Valideynlərimizin bizə təlqin etdiyi və Azərbaycanda yaşayan bütün xalqlara xas olan qüvvətli haqq-ədalət hissi bizi baş verən hadisələrə biganə qalmağa qoymur. Hər an Azərbaycanın köməyinə gəlməyə hazıram, sözdə də, əməldə də. Bizim hamımıza, xüsusən də Sizə uğurlar diləyirəm, cənab Prezident. Haqq kimin tərəfindədirsə, o qalib gəlir, çünki haqq güclüdür. Qarabağ Azərbaycandır!"

Rusiyanın Novosibirsk şəhərindən **Mayis Məmmədov:** "Hörmətli cənab Prezident, sentyabrın 27-də Ermənistanın Azərbaycan mövqelərinə və yaşayış məntəqələrinə hücumuna cavab olaraq Azərbaycan Ordusunun başlatdığı və işğal edilmiş ərazilərin azad olunmasına yönəlmiş hərbi əməliyyatlar gedişində şəhid olmuş qardaşlarımıza görə "Rus-Azərbaycan Evi" Regional İctimai Təşkilatı adından və şəxsən öz adımdan bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Dinc əhali arasında həlak olanlar, yaşayış binalarında, eləcə də məktəblər və uşaq bağçaları daxil olmaqla ictimai binaların dağıdılması bizi hədsiz kədərləndirir. Dinc əhaliyə qarşı silah və güc tətbiqini biz qətiyyətlə pisləyirik. Hazırda biz - Sizin soydaşlarınız Vətəndən uzaqda olsaq da, cərəyan edən hadisələri, 30 ilə yaxın işğal altında olmuş torpaqlarımızın Azərbaycan Silahlı Qüvvələrinin əks-hücumu nəticəsində azad edilməsi prosesini diqqətlə izləyir, haqq-ədalət mübarizəsində Sizi dəstəkləyirik, çünki həmvətənlərimizin taleyinə biganə qala bilmərik. Bizim ürəklərimiz Azərbaycanla həmahəng döyünür. Ümid edirik ki, əldə olunmuş müvəqqəti atəşkəs münaqişənin nizamlanması üçün yeni imkan yaradacaq. İnanırıq ki, tarix və beynəlxalq hüquq nöqteyi-nəzərindən haqlı olan Azərbaycan döyüş meydanlarında olduğu kimi, diplomatiya sahəsində də öz üstünlüyünü davam etdirəcək, ədalətli mübarizəsini sona çatdıraraq Dağlıq Qarabağın Azərbaycanın tərkibinə qaytarılmasına nail olacaq, regionda sabitliyi, sülhü və asayişi bərpa edəcəkdir. İndi bizim gözəl ölkəmiz yeni sınaqla üz-üzədir. Lakin ötən illərin təcrübəsi bizə inanmağı, mübarizə aparmağı və qalib gəlməyi öyrədib. Hörmətli cənab Prezident, mən Sizin strateji siyasətinizi dəstəkləyir və qürur duyuram. İnanıram ki, qətiyyətli rəhbərliyiniz və həmişə xalqı doğru yola istiqamətləndirən müdrikliyiniz sayəsində bundan sonra da sülhü və hər kəs üçün rifahı təmin edəcəksiniz. Hansı ölkədə yaşamağımızdan asılı olmayaraq biz - soydaşlarınız Sizin siyasətinizi dəstəkləyirik, Azərbaycanda sabitlik və firavanlıq naminə əlimizdən gələni edəcəyik. Rusiya ilə Azərbaycan arasında böyük dostluq bir çox nəsillərdən bəri davam edir, Rusiya və Azərbaycan xalqları çətin vəziyyətdə bir-birlərinə kömək etməyə həmişə hazırdırlar. Ümidvaram ki, Rusiya-Azərbaycan dostluğu illər keçdikcə hər iki dövlətin tərəqqisi, rifahı və əməkdaşlığı naminə daha da dərinləşəcək, inkişaf edəcək və möhkəmlənəcək".

Tovuz sakini **Kürzəli Bayramov** dövlət başçısına yazır: "Hörmətli cənab Prezident, işğaldan azad olunan bütün torpaqlara və yaşadığımız sevinc hisslərinə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin sayənizdə uzun illərin həsrətinə son qoyuldu, əzəli, əbədi torpaqlarımıza qovuşuruq. Sevinc hisslərimizi sözlə ifadə edə bilmirik. Hər zaman yanınızdayıq, cənab Prezident.

Şəki sakini **Elvin Məmmədov:** "Müzəffər Ali Baş Komandan, mən bir zabit olaraq Azərbaycanın bu haqq savaşında, işğal altında olan doğma torpaqlarımız uğrunda gedən Vətən müharibəsində canımdan, son damla qanımdan belə keçməyə hazıram. Bir Azərbaycan oğlu kimi ön cəbhədə düşmənlə üz-üzə vuruşaraq şəhidlərimizin intiqamını almaq istəyirəm. Müzəffər Ali Baş Komandan, hərbi anda sadiq qalacağıma, düşmənə qarşı vicdanla vuruşacağıma Sizi əmin edirəm. Əmrinizi gözləyirəm".

Şamaxı rayonunun sakini **Rubabə Nuriyeva:** "Hörmətli cənab Prezident, Sizin dərin savadınız, dünyagörüşünüz qarşısında dünyanın siyasət meydanında heç bir siyasətçi tab gətirə bilməz. Siz Azərbaycan xalqının xilaskarısınız. Gələcək nəsillər Azərbaycan deyəndə Sizi, İlham Heydər oğlu deyəndə isə Azərbaycanı xatırlayacaq. Allah Sizi qorusun. Yaşasın Azərbaycan xalqı! Yaşasın sevimli Prezidentimiz! Azərbaycanın şanlı Ordusuna eşq olsun!".

# Qisas alınır

## İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusu işğalçı Ermənistanı döyüş meydanında cəzalandırır



*Əvvəli 1-ci səh.*

### Hədəfi mülki əhali olan Ermənistan terror dövlətidir

Sentyabrın 27-dən başlayan döyüş əməliyyatları Ermənistanla bağlı bir həqiqəti növbəti dəfə bütün dünyaya nümayiş etdirdi. Belə ki, şanlı Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirə bilməyərək geri çəkilən Ermənistan ordusu işğalçı ölkənin hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə hər gün yaşayış məntəqələrimizi və dinc əhalini hədəfə alır.

Döyüş əməliyyatlarının aparıldığı bölgələrə aidiyyəti olmayan şəhər və rayonlarımızı hər gün intensiv şəkildə raket və ağır artilleriya atəşinə məruz qoymaqla Ermənistan bir daha terrorçu mahiyyətini təsdiqləmiş oldu. Humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq cəbhə xəttindən kənarda yerləşən və hərbi obyektlərin olmadığı Gəncə və Bərdə şəhərlərinin qadağan olunmuş silahlardan, əməliyyat-taktiki raket sistemlərindən atəşə tutulması göstərdi ki, Ermənistanın hədəfi mülki əhali, uşaqlar və körpələrdir.

Sentyabrın 28-də Bərdə şəhərində dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan zərbə endirilməsi ilə Ermənistan növbəti müharibə cinayətinə imza atdı. Mülki əhaliyə qarşı törədilən bu cinayət nəticəsində 21 dinc Azərbaycan vətəndaşı qətlə yetirildi, 70-ə yaxın insan yaralandı. Bundan bir gün əvvəl isə Bərdənin Qarayusifli kəndinin ağır artilleriyadan atəşə tutulması nəticəsində 5 nəfər, o cümlədən 7 yaşlı uşaq Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi terrorun qurbanı oldu. Bəli, Xocalı soyqırımını törədənlərdən başqa heç nə gözləmək olmazdı. Bütün bunlar cəbhədə uduzan, işğal etdiyi torpaqlardan qovulub çıxarılan düşmənin hərbi siyasi rəhbərliyinin faşizm xislətinin göstəricisidir.

### Düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edildi

Prezident İlham Əliyev "İnterfaks" agentliyinə müsahibəsində Bərdənin bombardman edilməsinə görə erməni silahlılarının döyüş meydanında cavab verəcəklərini bildirmişdi: *"Bərdə şəhərinin vəhşicəsinə bombardman edilməsinə, orada 7 yaşlı qızın həlak olmasına və bir neçə uşağın zərər çəkməsinə baxmayaraq, biz onların tayı deyilik. Biz onlara döyüş meydanında cavab verəcəyik. Biz yeni torpaqların azad edilməsi ilə, bayrağımızı yeni şəhərlərə sancmaqla cavab verəcəyik. Biz şəhərləri, mülki şəxsləri bombalamayacağıq".*

Ermənistanın Bərdədə törətdiyi növbəti terrordan sonra özünün rəsmi "Twitter" səhifəsində paylaşım edən Prezident İlham Əliyev Bərdə sakinlərinin qisasının yerdə qalmayacağını və döyüş meydanında işğalçılara layiqli cavab veriləcəyini bəyan etdi.

Rəşadətli Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin Bərdə rayonunun Qarayusifli kəndində törətdiyi qanlı terror cinayəti nəticəsində həlak olan şəhidlərimizin qisasını alıb. Ermənistanın oktyabrın 27-də qətlə yetirdiyi Bərdənin Qarayusifli kəndinin sakinlərinin qisası elə həmin gün alındı. Həmin gün və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edildi. Ermənistan nə qədər gizlətməyə çalışsa da, həmin günkü itkiləri sonda etiraf etməyə məcbur oldu.

Bərdəyə edilmiş ikinci hücumun da qisası döyüş meydanında alındı. Son iki gündə Ermənistan canlı itkilərinin sayının 100 nəfərdən çox olduğunu bildirsə də, reallıqda bu, dəfələrlə çoxdur. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı kadrlarda düşmənin canlı itkisinin olduqca çox olduğu aydın görünür.

Müzəffər Azərbaycan Ordusunun Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etməsi bir daha göstərdi ki, düşmən torpaqlarımızdan qovulur və qətlə yetirilən vətəndaşlarımızın qisası alınır.

Azərbaycan Ordusu mülki insanları heç vaxt hədəfə almır. Bu günlərdə düşmənin bununla bağlı yaydığı dezinformasiyalar da ekspertlər tərəfindən ifşa olundu. Ermənistan doğum evinin atəşə tutulduğunu iddia etsə də, yaydıqları şəkillərlə öz yalanlarını ifşa etdilər. İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər ordumuzun hədəfi işğal edilmiş torpaqlarımızın azad edilməsidir. Ona görə Azərbaycan terrorçu Ermənistanı məhz döyüş meydanında cəzalandırır və bu, torpaqlarımızın işğaldan tam azad edilməsinə qədər davam edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Erməni işğalının sonu yaxınlaşsa da, yalanlarının sonu görünmür

Cəbhədə müharibə gedir, əsgərlərimiz zəfər dalınca zəfər qazanır. Bununla yanaşı, informasiya sahəsində də mübarizə səngimir. Savaş meydanında olduğu kimi, informasiya sahəsində də erməni tərəfi nə əxlaq normalarını, nə də beynəlxalq hüququ tanıyır. Ermənistanın baş naziri N.Paşinyanın "Rossiya 1" telekanalına verdiyi müsahibəsində bunun bir daha şahidi olduq.

Şahidi olduq ki, yaşadığı acı hərbi və siyasi məğlubiyyətdən isterikaya düşən bu zavallı nə danışdığını bilmir. Türk qardaşlarımız demişkən, "bu adam əməlli-başlı çıldırmış". Yəni dəli olub. Müsahibədə guya Türkiyənin və Azərbaycanın Yaxın Şərqdən gətirilən terrorçulardan istifadə etdiyini bildirir. Üstəlik də bəyan edir ki, bu, beynəlxalq qaydalara ziddir.

Guya bunu heç kim bilmirmiş. Amma ağ yalandır axı... Paşinyan, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təbirincə desək, "yalan makinası kimi yalan üyüdür". Sonra da etiraf edir ki, onlar tərəfdə də xarici ölkə vətəndaşları vuruşur. Ancaq bu əcnəbilər ermənidir, belə çətin anda soydaşlarının köməyinə gəliblər.

Amma bu zaman unudur ki, mövcud beynəlxalq qanunlarda və bir çox dövlətlərin milli qanunvericiliyində bir ölkənin vətəndaşının digər ölkə ərazisində döyüşməsi cinayət sayılır. Üstəlik, bundan istifadə edən ölkələr də məsuliyyət daşıyır. Amma nə olsun?! Ermənilər daim beynəlxalq güclər tərəfindən himayə olunduğu üçün bu gün heç bir beynəlxalq qanun tanımır. Hətta o dərəcədə ki, onlarda belə bir rəy formalaşıb: ermənisənsə, nə istəsən edə bilərsən.

Bu arada Rusiya xüsusi xidmət orqanlarının ölkə ərazisində terror aktı törətmək istəyən bir qrupu zərərsizləşdirməsi barədə məlumat yayıldı. O dəqiqə də Nikol Paşinyan bu işdə Azərbaycanı və Türkiyəni günahlandırdı. Təbii ki, yenə də dəlil-sübutsuz. Guya həmin terrorçular Türkiyə tərəfindən Azərbaycan vasitəsilə Rusiya Federasiyasının ərazisinə göndərilib.

Vallah, adam yazmağa söz, ifadə tapmır. Gərək nə qədər həyasız olasan ki, günün günorta çağı bu dərəcədə yalan danışasan. Xüsusən də həqiqəti Rusiya hüquq-mühafizə orqanlarının yaxşı bildiyi halda. N.Paşinyanın sözügedən müsahibəsinə baxanda faşist Almaniyasının təbliğat naziri Göbbelsin bir fikri yada düşür: "Sən düşməninə ləkə at, özü qalmasa da, izi qalacaq". Göbbelsin nəzəriyyəsindən ermənilər uzun illərdir ki, gen-bol istifadə edirlər, hətta bu vaxt şeytanın ağlına belə gəlməyən üsullara əl atırlar.

Dünyanın bəzi kütləvi informasiya vasitələri bu cür yalanlardan məharətlə bəhrələnməyə çalışırlar. İndi həmin KİV Azərbaycanda əcinə (terrorçu) ovuna çıxıblar. Lakin tapa bilmirlər, çünki yoxdur, çinlilər demiş, "Qara pişiyi qaranlıq otaqda tapmaq çətindir, xüsusən də o, orada yoxdursa".

Ermənistan isə utanıb qızarmadan terrorçulardan istifadəni "qanuniləşdirib", yəni Dağlıq Qarabağdakı "ordu"nun təkmilləşdirilməsi haqqında qəbul etdiyi "qanun"da muzdlulardan, yəni terrorçulardan istifadəni rəsmiləşdirib. Bu, adamda ikrah dolu gülüş yaradır. Atalar sözümüzdə deyildiyi kimi: "Özünə umac ova bilmir, başqasına əriştə kəsir". Onlara deyən lazımdır ki, əvvəlcə Ermənistanda bir əməlli-başlı ordu yaradın, sonra Dağlıq Qarabağdakı ermənilərin qeydinə qalın.

İndi ermənilərin bu ədalətsizliyinin, azğınlığının sonu gəlib. Azərbaycan əsgərinin qürur mənbəyimiz olan üçrəngli bayrağımızı Qarabağın bütün yaşayış məntəqələrinə, yüksəkliklərinə sancmasına çox qalmayıb. Ancaq bundan sonra da Paşinyanın həqiqəti dərk edəcəyinə inam yoxdur. Çünki yaxın zamanda onun siyasət meydanında olacağının özü şübhə doğurur. Belə halda isə onun nəyi dərk edib-etməməsinin heç bir əhəmiyyəti qalmır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İki canda bir ürək

# "Paşinyan qətliamı"

## Bərdə şəhərində Ermənistanın mülki əhalini hədəfə alması Türkiyə mediasının gündəm mövzusudur




Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları ilə yanaşı, terrorçu Ermənistanın Bərdə şəhərini raketlə vurması Türkiyə KİV-in xüsusi diqqət mərkəzində yer almaqdadır. Qardaş ölkə mediasında döyüş meydanında aldığı məğlubiyyətlə barışmayan işğalçının azğınlaşaraq günahsız insanları hədəfə aldığı diqqətə çatdırılır. Qəzetlər Ermənistanın Azərbaycana qarşı törətdiyi davamlı təxribatlarla bağlı xüsusi reportajlar təqdim edir.

"Milliyet" qəzeti "Bərdədə yenə mülki əhali qətliamı" başlıqlı xəbəri manşetdən verib. Xəbərdə qeyd olunur ki, Ermənistan atəşkəsi pozub və oktyabrın 28-i günorta saatlarında Azərbaycanın Bərdə şəhərini raketlə vurub, nəticədə 21 nəfər mülki şəxs həlak olub və aralarında azyaşlı uşaqlar da olmaqla, çoxlu sayda insan yaralanıb. Bunun Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti müharibə cinayəti olduğunu diqqətə çatdıran nəşr yazır ki, işğalçı ölkənin günahsız insanları, uşaqları, qadınları hədəfə alaraq ardıcıl olaraq bu cür çirkin hücumlara əl atması bir daha onun faşizm xislətini və cinayətkar mahiyyətini göstərir.

"Sabah" qəzeti "Ermənistan qətliamı: 21 ölü, 70 yaralı" başlıqlı xəbərində Ermənistanın atəşkəs rejimini pozması ilə bölgə və beynəlxalq aləmdə sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid etdiyi diqqətə çatdırılır. Bildirilir ki, cəbhədəki məğlubiyyəti ilə barışmayan Ermənistan azğınlıq edərək günahsız insanları hədəfə alıb. Ermənilər dinc azərbaycanlı əhaliyə qarşı vandalizm həyata keçirir. Bərdə şəhərinə atılan raket nəticəsində 21 insan həlak olub, 70-dən çox mülki əhali yaralanıb. Oktyabrın 28-də günorta saatlarında Bərdədə insanların sıx cəmləşdiyi şəhər mərkəzinin hədəf alınması Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi terror aktıdır.

"Türkiye" qəzetinin "Yenə mülki əhalini vurdular" başlıqlı məqaləsində yazılır ki, Bərdə kimi qədim tarixə malik şəhərin hədəf seçilməsi Ermənistanın insanlıq əleyhinə yönəlmiş təhlükəli siyasətindən xəbər verir: "Bu bir daha onu göstərir ki, Ermənistan terror və vandalizmi dövlət siyasəti səviyyəsinə qaldırıb və bu gün də həmin xətti israrla davam etdirir".

"Paşinyan qətliamı" başlıqlı məqalə "Akşam" qəzetində dərc olunub. Bildirilir ki, oktyabrın 28-də Ermənistan silahlı qüvvələri dinc Azərbaycan şəhəri Bərdəyə növbəti dəfə qəddarcasına zərbə endiriblər. Nəticədə 21 nəfər həlak olub, 70 nəfər ciddi xəsarət alıb. Qeyd olunur ki, bu cür vəhşicəsinə hücumlar onu göstərir ki, Ermənistan baş naziri Nikol Paşinyanın qəddarlığının həddi yoxdur.

"Yeni şafak" qəzeti "İntiqamı alınacaq" başlıqlı xəbərində 21 mülki şəxsin vəfat etdiyini, 70 nəfərin yaralandığını diqqətə çatdırır. Qeyd olunur ki, hazırkı vəziyyət bölgədəki bütün böyük dövlətlərə real və ədalətli həll üsullarını tətbiq etmək imkanı verir. "Otuz ildir bu problemin həlli üçün heç nə edilməyib, ona görə Azərbaycan problemini özü həll etmək məcburiyyətində qalıb və bunun üçün hərəkətə keçib, istədiyi nəticələrə də nail olmaqdadır", - deyə qəzet yazır.

"Yeni akit" qəzeti "Şərəfsiz Ermənistan yenə raketlə vurdu" başlıqlı xəbərini oxuculara manşetdən təqdim edib. Bildirilir ki, Ermənistan tərəfindən həyata keçirilən növbəti vandallıq aktı nəticəsində Azərbaycanın mülki vətəndaşları həlak olub, onlarca insan yaralanıb. Qeyd olunub ki, oktyabrın 28-də Bərdə şəhərinin raket hücumuna məruz qalması Paşinyan hakimiyyətinin növbəti hərbi cinayətidir. Beynəlxalq təsisatlar, dünya ölkələri bu cinayətə açıq şəkildə münasibət bildirməlidirlər.

"Cumhuriyet" qəzetinin "Ermənistan mülki əhalini vurdu" başlıqlı xəbərində deyilir ki, Ermənistanın Bərdədə mülki insanların yaşadığı əraziyə raket hücumu nəticəsində 21 nəfər mülki şəxs həlak olub. Müəllif yazır ki, Yerevan açıq-aydın terror fəaliyyəti ilə məşğul olur, dinc əhaliyə zərbə vurur: "1990-cı illərdə Dağlıq Qarabağda ilk hərbi əməliyyatlar zamanı ermənilər tərəfindən insanların başları kəsilir, onları diri-diri yandırırdılar. Təkcə Xocalı soyqırımını xatırlamaq kifayətdir. İndiyə qədər bu soyqırımına lazımınca qiymət verilməyib".

Qəzetlərdən "Posta"nın "Ermənistan yenə mülki əhalini vurdu", "Karar"ın "Bu vəhşiliyə dayan deyən yoxdurmu?", "Milat"ın "Ermənistan Bərdəni vurdu", "Diriliş postası"nın "Bərdədə mülki əhali qətliamı", "Türkgün"ün "İntiqamını alacağıq", "Yeni Asya"nın "Atəşkəsi pozan Ermənistan yenə mülki əhalini vurdu", "Yeniçağ"ın "Erməni vəhşiliyi", "Yeni mesaj"ın "Ermənistan qətliam törədir" və "Yeni birlik"in "Ermənistan Bərdədə qətliam törətdi" başlıqlı xəbərlərində Ermənistanın işğalçı siyasəti, terror əməlləri pislənilir. Qeyd olunur ki, Bərdənin mülki əhalisini hədəf alan Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyil.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Oktyabrın 28-də düşmənin Bərdəyə raket zərbəsi endirməsindən dərhal sonra Ermənistanın Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Şuşan Stepanyan "Twitter" hesabında bunu danaraq "cəfəngiyyat və yalan" olduğunu yazmışdı. Almaniyanın nüfuzlu "Sueddeutsche Zeitung" nəşri isə əsl yalançının Ermənistan tərəfi olduğunu ifşa edib.

Qəzetin yazdığına görə, zərbə anında alman müxbirlər hadisə yerində olub və baş verənləri öz gözləri ilə görüblər: "Ermənistan Müdafiə Nazirliyi hücumu qəti şəkildə təkzib etdi. Nazirliyin sözçüsü bu haqda deyilənlərin cəfəng olduğunu yazdı. Lakin müxbirlərimiz Bərdənin mərkəzində qurbanların cəsədlərini və çoxsaylı raket qalıqlarını gözləri ilə görüblər. Həmin vaxt Bərdəətrafı ərazilər, o cümlədən qonşu Tərtər şəhəri də artilleriya atəşinə tutulurdu".

"Sueddeutsche Zeitung" həmçinin Bərdədə mülki əhalinin, qadın və uşaqların qətlə yetirilməsini qınayıb. Qeyd edilib ki, Ermənistan işğal etdiyi Dağlıq Qarabağda yaradılan qondarma qurumu heç özü də tanımır. Dağlıq Qarabağ və ətrafındakı 7 rayon beynəlxalq səviyyədə Azərbaycan ərazisi kimi tanınır.

Xatırladaq ki, oktyabrın 28-də Ermənistanın Bərdəyə raket hücumu nəticəsində 21 mülki şəxs həlak olub, 70-dan çox dinc sakin yaralanıb.

❖ ❖ ❖



Misirin "Aldiplomasy" portalında tədqiqatçı jurnalist Əşrəf Əbu Urafənin "Azərbaycan Ordusu Xocalı soyqırımını törədən Ermənistana ağır zərbələr endirib" sərlövhəli məqaləsi yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, müəllif 28 il əvvəl Ermənistanın Azərbaycanın Xocalı şəhərində törətdiyi soyqırımının, habelə mülki insanlara qarşı digər cinayətlərin cavabının bu gün döyüş meydanında verildiyini qeyd edib.

Məqalədə diqqətə çatdırılıb ki, Azərbaycan hakimiyyəti Ermənistan silahlı qüvvələrinin çoxlu sayda hərbi texnikası və canlı qüvvəsinin məhv edildiyini, işğal altında olan ərazilərin azad olunduğunu bildirib. Müəllif yazıb: "Artıq oktyabrın sonuna yaxın Azərbaycan Ordusu 4 şəhəri, bir sıra qəsəbə və kəndi işğaldan azad edib. Uğurlu hərbi əməliyyat nəticəsində İranla sərhəddə təhlükəsizlik təmin olunub. Yoxsul Ermənistanın zərəri isə 2 milyard dollardan çoxdur".

Misirin "Akhbarelyom", "Nile1" və "Qalyubiyenews" informasiya portallarında isə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın Bərdə şəhərinə raket hücumu ilə bağlı bəyanatı yayılıb. Qeyd olunub ki, 4 mülki insanın, o cümlədən bir uşağın həlak olması, 13 nəfərin yaralanması daha bir ağır müharibə cinayətidir. Bu vəhşiliyə görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Eyni zamanda ermənilərin dinc əhaliyə qarşı bu raket hücumunun ATƏT-in Minsk qrupu həmsədrlərinin görüşü ərəfəsində edilməsi göstərir ki, artıq üçüncü dəfədir humanitar atəşkəs razılaşmasını pozan işğalçı ölkə münaqişənin sülh yolu ilə həllində maraqlı deyil.

❖ ❖ ❖




Yalnız Malayziyada deyil, həmçinin Cənub-Şərqi Asiya regionunda ən tanınmış nəşrlərdən olan "New Straits Times" qəzeti Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə rayonuna raket hücumu barədə xəbər yayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin oktyabrın 27-də yayılmış bəyanatına əsasən qeyd edilib ki, bu, son günlər ərzində beynəlxalq vasitəçilərin davamlı səyləri ilə üçüncü dəfə əldə edilən humanitar atəşkəs razılaşdırılmasını kobud şəkildə pozan Ermənistanın beynəlxalq humanitar hüquq öhdəliklərini heçə sayaraq törətdiyi növbəti müharibə cinayətidir.

Həmçinin bildirilib ki, iki ölkənin Xarici İşlər nazirlərinin Cenevrədə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçirəcəyi görüşü ərəfəsində Ermənistan silahlı qüvvələri tərəfindən növbəti qanlı cinayətin törədilməsi, təcavüzkar Ermənistanın münaqişənin siyasi həllində maraqlı olmadığının və hər vəchlə danışıqları pozmaq məqsədi güddüyünün bariz göstəricisidir.

Vurğulanıb ki, Azərbaycanın dinc əhalisinə qarşı insanlıq əleyhinə cinayətin törədilməsinə görə Ermənistanın siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır.

Məlumatın sonunda cinayətkarların ədalət məhkəməsi qarşısında cavab verməsini təmin etmək üçün beynəlxalq ictimaiyyət qəti mövqe nümayiş etdirməyə çağırılıb.

❖ ❖ ❖



Xorvatiyanın "Zagorje" xəbər portalında Ermənistan tərəfinin ağır artilleriyadan istifadə etməklə Azərbaycanın yaşayış məntəqələrini intensiv atəşə tutması barədə məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, "Tərtərin qəhrəmanlığı" sərlövhəli məqalədə atəş nəticəsində mülki əhali arasında, ölən və yaralananlar barədə statistika əksini tapıb. Bildirilib ki, hücumlar nəticəsində məktəblər və mülki xəstəxanalar da daxil olmaqla, ümumilikdə 2000-dən çox yaşayış evi və inzibati bina dağıdılıb. Xüsusilə Tərtər şəhərində böyük dağıntılar törədilib.

Müəllif eyni zamanda vurğulayıb ki, Ermənistan dinc insanlara qarşı güc tətbiq etməklə müharibə dövründə mülki şəxslərin qorunması ilə bağlı 1949-cu il Cenevrə Konvensiyasını və onun Əlavə protokollarını açıq şəkildə pozub. Ermənistanın bu cinayətləri dünya ictimaiyyəti tərəfindən qınanmalıdır.

❖ ❖ ❖




Malayziyanın BERNAMA Dövlət İnformasiya Agentliyi AZƏRTAC-a istinadla Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə rayonuna raket hücumu nəticəsində biri uşaq olmaqla, dörd nəfərin həlak olması və daha 13 nəfərin yaralanması barədə məlumat yayıb.

Məlumatda həmçinin Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatına da xüsusi yer verilib. Qeyd edilib ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə iki ölkənin Xarici İşlər nazirlərinin İsveçrənin Cenevrə şəhərində gözlənilən görüşü ərəfəsində baş verən terror aktı Ermənistanın münaqişənin siyasi həllində maraqlı olmadığının əyani sübutudur və danışıqların bütün vasitələrlə pozulmasına xidmət edir.

Azərbaycan XİN-in bəyanatından gətirilmiş sitatda deyilir: "Biz beynəlxalq ictimaiyyəti günahkarların məsuliyyətə cəlb olunması üçün qətiyyətli mövqe nümayiş etdirməyə çağırırıq".

Məlumatda qeyd edilir ki, ABŞ-ın vasitəçiliyi ilə bazar günü elan edilən son humanitar atəşkəs oktyabrın 26-da səhər saat 8-də qüvvəyə minməli olduğu halda, rəsmi Bakı Ermənistan ordusunun Azərbaycanın yaşayış məntəqələrini və hərbi hissələrini atəşə tutduğunu bildirib.

Bununla yanaşı, buna qədər elan edilən daha iki humanitar atəşkəsin də məhz Ermənistan tərəfindən pozulduğu məlumatda əksini tapıb.

❖ ❖ ❖




İspaniyanın qocaman qəzetlərindən biri olan La Vanguardia nəşrində "Bərdə şəhərinin atəşə tutulması nəticəsində ən azı 20 mülki şəxs həlak olub" adlı məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, ispan nəşri Azərbaycan Respublikasının Baş Prokurorluğunun bəyanatına istinadla diqqətə çatdırır ki, bu gün erməni qüvvələrinin kaset bombalarını tətbiq etməklə Azərbaycanın Bərdə şəhərinə hücumu nəticəsində ən azı 20 nəfər həlak olub, 40-dan çox insan isə yaralanıb.

Qeyd edilir ki, erməni qüvvələri o cümlədən çoxsaylı ticarət obyektləri də yerləşən sıx məskunlaşmış Azərbaycan rayonunu "Smerç" raketləri ilə atəşə tutub. Bir gün əvvəl, Ermənistan silahlı qüvvələrinin Bərdəyə atəş açması nəticəsində 4 nəfər həlak olub, daha 13 nəfər yaralanıb.

İspan nəşri Azərbaycan Respublikasının Baş Prokurorluğunun açıqlamasına istinadla qeyd edir ki, düşmən yaydığı dezinformasiyaların köməyi ilə çox sayda insanın həyatına son qoyduğu Bərdə cinayətlərindən diqqəti yayındırmağa çalışır.

❖ ❖ ❖




Türkiyənin kütləvi informasiya vasitələri Ermənistanın işğalçılıq siyasəti və ölkəmizə qarşı həyata keçirdiyi davamlı hücumlar səbəbindən bölgədə yaranmış gərginliyi gündəmdə saxlamaqda davam edir. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin oktyabrın 26-da Azərbaycan xalqına müraciəti Türkiyə KİV-i tərəfindən sürətlə yayılıb. Dövlət başçısının müraciətində səsləndirdiyi fikirlər, vəziyyətə dair mühüm məlumatlar, dünya ictimaiyyətinə ünvanlanan əhəmiyyətli mesajlar ayrı-ayrı media orqanları tərəfindən sərlövhəyə çıxarılıb, telekanallar tərəfindən subtitr vasitəsilə təqdim olunub. Azərbaycan torpaqlarının işğalçılardan azad edilməsi barədə məlumatlar Türkiyə ictimaiyyətinin gündəlik həsrətlə gözlədiyi xəbərlərdir.

Türkiyə KİV-i yazır ki, Azərbaycan torpaqlarını işğaldan azad etməkdə israrlıdır. Rəşadətli Azərbaycan Ordusu tarixi missiyasını əzmlə həyata keçirir.

Yazılarda təcavüzkar tərəfin üçüncü dəfə atəşkəs qərarına xəyanət etməsinin, dinc Azərbaycan əhalisinin davamlı atəşə tutulmasının, şəhər, qəsəbə və kəndlərimizin raket və artilleriya zərbələrinə məruz qalmasının müasir dövrün ən ağır hərbi vəhşiliyi olması barədə faktlar da təqdim edilir. O cümlədən erməni qadın və uşaqların savaşa cəlb olunması, PKK terrorçularına Azərbaycan hərbi formasının geyindirilməsi kimi halların dəyişməz erməni xisləti olduğu diqqətə çatdırılır.

❖ ❖ ❖




Fransanın "AgoraVox" portalında "Ermənistan-Azərbaycan münaqişəsi: anlamaq üçün bütün fikirlər təhlil edilməlidir" sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı 7 rayonun işğalından, Ermənistanın Gəncə şəhərində yaşayış massivini, eləcə də Mingəçevirin raket atəşinə tutulmasından bəhs olunub. Bildirilib ki, Ermənistan Azərbaycanın döyüş zonasından uzaqda yerləşən şəhərlərini atəşə tutmaqla üçüncü ölkələri münaqişəyə cəlb etməyə çalışır.

Məqalədə Qarabağın qədim və müasir tarixi haqqında məlumat verilib. XIX əsrdə Qarabağın Rusiya imperiyası tərəfindən zəbt edilməsi, İran və Türkiyədən ermənilərin bu bölgədə yerləşdirilməsi diqqətə çatdırılıb.

Qeyd edilib ki, SSRİ dağıldıqdan sonra ermənilərin Azərbaycana qarşı ərazi iddiaları başlayıb.

Müəllif Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyətinə toxunub, Azərbaycanın münaqişəni daim sülh yolu ilə həll etməkdə maraqlı olduğunu bildirib.

Eyni zamanda ölkəmizin Fransa və Türkiyə ilə münasibətlərinə toxunulub.

Müəllif tarixçiləri və jurnalistləri peşə deontologiyasına riayət edərək, reallığa yaxın olmaq üçün hər iki tərəfə dair oxşar tədqiqatlar aparmağı, tarixi həqiqətləri olduğu kimi əks etdirməyi məsləhət görüb.

❖ ❖ ❖




"The Jerusalem Post" qəzetində Azərbaycanda və Ermənistanda yəhudilərin yaşayışından bəhs edən məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, müəllif Roman Qurieviç oktyabrın 8-də Azərbaycanda yaşayan Aşkenazi yəhudilərinin Azərbaycan Ordusunun Dağlıq Qarabağ uğrundakı müharibədə qalib gəlməsi üçün bir yerə toplaşaraq dua etdiklərini bildirir.

Yazıda qeyd olunur ki, Bakının bir çox yerlərində yəhudi alimlərinin şərəfinə abidələr ucaldılıb. Bilinən bir faktdır ki, Azərbaycanda antisemitizm yoxdur.

Məqalədə ermənilərin tarixən Azərbaycanda sülh şəraitində yaşadıqları diqqətə çatdırılır. Minlərlə azərbaycanlının isə Ermənistandakı yaşayış yerlərindən qovulduğu qeyd edilir.

Müəllif "Pew" Araşdırma Mərkəzinə istinadla Ermənistanın yəhudilərə qarşı ən az tolerant olan ölkə olduğunu vurğulayır. Hətta ermənilərin 32 faizinin yəhudiləri həmvətənləri kimi görmədiklərini bildirir. Həmçinin antisemitizm indeksinə görə Ermənistanın keçmiş sovet ölkələri arasında ən yüksək pillədə olduğu vurğulanır. Yerevandakı Holokost abidəsinin dəfələrlə vandalizm aktlarına məruz qaldığı diqqətə çatdırılır. Vurğulanır ki, Ermənistan nasizmin tərəfdarlarına milli qəhrəman kimi baxır.

Müəllif fikirlərini yekunlaşdıraraq Azərbaycan və Ermənistan haqqında bunları deyir: Müharibənin iki tərəfində biz nə görürük? Bir tərəfdə heç vaxt antisemitizmin olmadığı, İsraili enerji resursları ilə təmin edən və öz ərazi bütövlüyü uğrunda mübarizə aparan Azərbaycan, digər tərəfdə isə antisemitizmin mövcud olduğu, qapalı və monoetnik, qonşusunun torpaqlarını işğal etmiş və mülki əhalini atəşə tutan Ermənistan.

❖ ❖ ❖




Fransanın "Le Figaro" qəzetinin Bakıya ezam olunmuş xüsusi müxbiri Emmanuel Qrınzpanın "Bakı Dağlıq Qarabağa necə daxil oldu" sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Dağlıq Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin üstünlüyündən bəhs edilir.

Məqalənin müəllifi qeyd edib ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi dövlət büdcəsindən 2 dəfə çoxdur. Bu gün Azərbaycan 1994-cü ildə itirdiyi 20 faiz torpağının intiqamını alır.

Bildirilib ki, Azərbaycanın Ermənistan ərazilərinə müdaxilə etmək niyyəti yoxdur. Ancaq Ermənistan Gorus və Qapandan Azərbaycan ərazilərini atəşə tutur. Onların məqsədi Rusiyanı müharibəyə cəlb etməkdir. Ermənistan qonşu İranla bağlı da eyni taktikaya əl atsa da, istəyinə nail ola bilməyib.

Diqqətə çatdırılıb ki, döyüşlər yalnız Azərbaycan torpaqlarında gedir. Azərbaycan yalnız hərbi obyektləri hədəfə alır.

Müəllif qeyd edir ki, Azərbaycan Ordusuna məxsus PUA-lar bu münaqişədə əsas söz sahibidir və bu ölkənin üstünlüyünü təmin edir. Döyüşlər başlayandan dərhal sonra Ermənistanın rabitə və hava hücumundan müdafiə sistemləri, o cümlədən radarları məhv edilib. Bununla da rəsmi Bakı müharibədə əhəmiyyətli üstünlük qazanıb.

❖ ❖ ❖




Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində Qarabağ münaqişəsinə dair növbəti material yerləşdirilib. AZƏRTAC xəbər verir ki, bütün dünyada geniş oxucu kütləsinə malik CGTN kanalının saytındakı məqalədə Vaşinqtonun vasitəçiliyi ilə əldə edilən humanitar atəşkəsin pozulmasından bəhs olunub. Azərbaycanın Müdafiə Nazirliyinə istinadla qeyd edilib ki, atəşkəsin qüvvəyə minməsindən bir neçə dəqiqə sonra Ermənistan silahlı qüvvələri Tərtər və Laçın rayonlarını atəşə tutub.

CGTN Prezident İlham Əliyevin oktyabrın 26-da televiziya ilə xalqa müraciətində səsləndirdiyi fikirlərə toxunaraq yazır ki, Azərbaycan hansı yolla olur-olsun münaqişənin həllini istəyir. Onlayn nəşr Azərbaycan Prezidentinin "Mən təklif etmişəm ki, əgər istəyirsinizsə, sülh yolu ilə həll olunsun, yaxşı, biz dayandıraq. Ancaq dərhal bizə deyilməlidir ki, Ermənistan bizim torpaqlarımızdan çıxır" fikrini də öz oxucularının diqqətinə çatdırır.

Məqalədə eyni zamanda sentyabrın 27-dən başlayan toqquşmalar nəticəsində Azərbaycan tərəfdən 65 mülki sakinin öldüyü və 297 nəfərin yaralandığı qeyd olunub.

❖ ❖ ❖




Perunun aparıcı KİV-indən olan "La Razon" və "La Republica" qəzetlərində Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın son hərbi təxribatları və Silahlı Qüvvələrimizin apardığı əks-hücum əməliyyatları ilə bağlı səfir M.Talıbovun müsahibələri dərc olunub. AZƏRTAC xəbər verir ki, müsahibələrdə münaqişənin tarixi barədə məlumat verən səfir Dağlıq Qarabağ və yeddi ətraf rayonla birlikdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini və bu ərazilərdə yaşayan 1 milyona yaxın azərbaycanlıya qarşı etnik təmizləmə aparıldığını bildirib. Səfir münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd qətnamənin Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını, azərbaycanlı məcburi köçkünlərin geri qaytarılmasını tələb etdiyini, ancaq Ermənistan tərəfinin 27 il ərzində həmin sənədlərin tələblərinə məhəl qoymadığını bildirib.

Sentyabrın 27-dən başlayan hərbi əməliyyatlara toxunan diplomat son təxribatların Ermənistanın növbəti təcavüz aktı olduğunu, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərində qalmasının münaqişənin alovlanmasının başlıca səbəbi kimi qaldığını, əks-hücum əməliyyatlarının da Azərbaycanın beynəlxalq ictimaiyyətin bütün üzvləri, o cümlədən Peru tərəfindən tanınmış sərhədləri çərçivəsində aparıldığını vurğulayıb.

Ermənistanın mülki şəxsləri hədəfə aldığını qeyd edən səfir düşmənin əməliyyatların aparıldığı bölgədən uzaqda yerləşən Azərbaycan şəhərlərinə, o cümlədən Gəncə şəhərinə dəfələrlə ballistik raket zərbələri endirdiyini söyləyib. Qeyd edib ki, sentyabrın 27-dən indiyədək Ermənistan silahlı qüvvələrinin şəhərləri və mülki azərbaycanlı əhalini atəşə tutması nəticəsində aralarında qadınlar və uşaqlar da olmaqla 60-dan çox dinc sakin həlak olub, bəzi uşaqlar hər iki valideynini itirib, 300-dək insanın yaralandığını, 2000-dən çox mülki infrastruktur obyekti, yaşayış binası və fərdi ev dağılaraq yararsız hala düşüb. M.Talıbov diqqətə çatdırıb ki, Ermənistanın hərbi təcavüzünün qarşısını almaq, mülki vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün Azərbaycan Silahlı Qüvvələri özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq adekvat əks-hücum tədbirləri görüb.

Eyni zamanda səfir Ermənistanın Qarabağdakı döyüşlərə Suriya, Livan, İraq kimi ölkələrdən radikal terrorçu qruplaşmaları cəlb etdiyinə dair həm erməni mətbuatında, həm də beynəlxalq qaynaqlarda xeyli sayda məlumatın yer aldığını bildirib. Diqqətə çatdırıb ki, Ermənistan rəhbərliyi dünyanın müxtəlif ölkələrinin vətəndaşları olan ermənilərin hərbi əməliyyatlarda iştirakını artıq açıq şəkildə etiraf edib.

Dağlıq Qarabağda ermənilərlə azərbaycanlıların birgə yaşayışının mümkünlüyünə toxunan səfir Azərbaycan Prezidentinin dəfələrlə burada yaşayan ermənilərlə heç bir problemimiz olmadığını və onları öz vətəndaşlarımız hesab etdiyimizi bildirdiyini, ümumiyyətlə, Azərbaycanın bütün dünyada müxtəlif millətlərdən və inanclardan olan insanların sülh şəraitində birgə yaşadığı yer olduğunu, bu səbəbdən də Roma Papası Fransisk tərəfindən bütün dünya üçün tolerantlıq modeli adlandırıldığını vurğulayıb.

Regionda sülhün formulunun Azərbaycan ərazilərinin azad edilməsi olduğunu deyən səfir Prezident İlham Əliyev hərbi əməliyyatlar başlayan gündən dəfələrlə dediyi kimi, Azərbaycanın dialoq tərəfdarı olduğunu, Ermənistanın qoşunlarını ərazilərimizdən bəlli vaxt çərçivəsində mərhələli şəkildə çıxaracağını elan edəcəyi halda döyüşləri dayandırmağa və danışıqlara başlamağa hazır olduğunu, ancaq Ermənistan baş naziri Nikol Paşinyanın "münaqişənin diplomatik həlli yoxdur" kimi bəyanatlar verməsi və dünya ermənilərini döyüşə səsləməsinin vəziyyəti daha da gərginləşdirməkdən başqa bir işə yaramadığını qeyd edib.

❖ ❖ ❖




Yaponiyanın NHK telekanalı Dağlıq Qarabağda davam edən müharibə barədə xüsusi süjet yayımlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycanla Ermənistan arasında davam edən müharibənin başlamasından artıq bir ay ötdüyü qeyd edilən süjetdə bildirilir ki, ötən dövrdə üç dəfə humanitar atəşkəs elan olunsa da, bunun bir nəticəsi olmayıb.

Xatırladılır ki, Azərbaycanın tərkib hissəsi olan, lakin Ermənistan tərəfindən uzun müddətdir ki, işğal altında saxlanılan Dağlıq Qarabağda döyüşlər sentyabrın 27-də başlanıb.

Qeyd edilir ki, Rusiya iki dəfə, ABŞ isə bir dəfə tərəflər arasında humanitar atəşkəs barədə razılığın əldə olunmasına vasitəçilik etsə də, bu razılaşmalar qısa zamanda aradan qalxıb. ABŞ son olaraq oktyabrın 26-da əldə edilən razılaşmaya vasitəçilik edib.

Süjetdə Azərbaycanın ikinci böyük şəhəri olan və döyüş bölgəsindən təqribən 100 kilometr məsafədə yerləşən Gəncəyə raket zərbələri endirilməsinə xüsusi yer ayrılıb. Azərbaycanlı həkimin bu kanala müsahibəsi geniş işıqlandırılıb. Həkimin sözlərini sitat gətirən telekanal bildirib: "Yatmış uşaqlara hücum Ermənistan silahlı qüvvələrinin nə qədər barbar, vəhşi olduğunu təsdiq edir. Ermənistan ordusu cəbhədə əsgərlərlə döyüşmək əvəzinə mülki insanlara hücum edir".

Süjetdə Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərinə raket hücumundan sonra aparılan axtarış-xilasetmə əməliyyatları barədə kadrlara da yer verilib.

❖ ❖ ❖




Lüksemburqun "Delano" portalında bu ölkədə yaşayan azərbaycanlıların əsgərlərimizə dəstək aksiyasına dair məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Lüksemburqda keçirilən aksiyanın soydaşlarımızın ölkəmizə dəstək aksiyalarından biri olduğu və onun Lüksemburq-Azərbaycan Dostluq Assosiasiyası tərəfindən təşkil edildiyi diqqətə çatdırılıb.

Qeyd edilir ki, azərbaycanlılar Lüksemburqun mərkəzi meydanına toplaşaraq Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə yaşayış massivinin Ermənistan tərəfindən raket atəşinə tutulmasına etirazlarını bildiriblər. Qeyd ediblər ki, Ermənistanın mülki əhalini hədəfə alması nəticəsində uşaqlar da daxil olmaqla, 26 dinc sakin həlak olub.

Diqqətə çatdırılıb ki, nümayişçilər əllərində "Gəncə üçün dua edək!", "Azərbaycana ədalət!", "Mülki əhalini bombalamağı dayandır!" və "Uşaqlar müharibə etmir!" kimi plakatlar tutublar.

Bildirilib ki, etiraz nümayişi zamanı meydana uşaq oyuncaqları və ayaqqabıları qoyulub, həlak olan azyaşlıların xatirəsinə şamlar yandırılıb.

❖ ❖ ❖



Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsində Gürcüstan ilə bağlı fikirləri bu ölkənin mətbuatının əsas xəbər başlıqlarına çevrilib. AZƏRTAC xəbər verir ki, report.ge, interpressnews.ge, sputnik-georgia.ru, 24news.ge, apsny.ge, newsday.ge, palitranews.ge informasiya agentlikləri Prezident İlham Əliyevin təkcə "Fox News" kanalına deyil, dünyanın bir sıra aparıcı KİV-inə müsahibələrindən də fikirlər dərc ediblər.

Materiallardan Azərbaycan Prezidentinin bu fikirlərinə xüsusilə önəm verilir: "Mən Cənubi Qafqaz regionunun dərindən inteqrasiya olunmasını, digər Cənubi Qafqaz ölkəsi olan Gürcüstanla strateji münasibətlərimizin gələcəkdə müəyyən vaxtda Azərbaycan və Ermənistan arasında münasibətlər üçün müəyyən mənada örnək ola bildiyini görmək istəyirəm. Çünki bütün müharibələr dayanır və sülh gəlir".

Biz birlikdə güclüyük!

# Vətəndaş məsuliyyətsizliyi karantin rejiminin uzadılmasını zəruri etdi

Əvvəli 1-ci səh.



İranda ötən sutka ərzində 6824 nəfər koronavirusa yoluxub, 415 nəfər həyatını itirib. Rusiyada koronavirusa yoluxanların sayı 1,56 milyon nəfəri keçib. Ölkədə son sutka ərzində 16202 nəfər virusa yoluxub, 346 nəfər vəfat edib. Ölüm halları ölkədə bugünədək qeydə alınan ən yüksək göstərici olub.

İşğalçı Ermənistanda ötən gün 2383 nəfərdə infeksiyaya yoluxma faktı aşkarlanıb, 29 nəfərin ölümü qeydə alınıb.

Dünyanın bir çox ölkəsində virusun yayılmasının qarşısını almaq üçün ciddi tədbirlər həyata keçirilir, tətbiq olunmuş karantin rejimi sərtləşdirilir. Son bir həftədə İsveçrədə koronavirusa yoluxma və ölüm halları ikiqat artıb. Ekspertlər infeksiyaya yoluxmanın bu sürətlə davam edəcəyi təqdirdə 10-14 gün sonra ölkədəki xəstəxanaların reanimasiya şöbələrində boş çarpayı qalmayacağı barədə xəbərdarlıq ediblər. Gündəlik yoluxma sayının 8600 nəfərə çatması isə İsveçrə hökumətini yeni məhdudiyyətlərin tətbiqinə vadar edib.

Fransada koronavirusa yoluxma hallarının artması ilə əlaqədar 30 oktyabrdan etibarən özünütəcrid rejimi yenidən tətbiq olunur.

Son zamanlar Azərbaycanda da koronavirusa yoluxanların sayında kəskin artım müşahidə edilir, yoluxma və sağalma halları arasında fərq yüksəlir, sanitar-epidemioloji durum pisləşir. Etiraf etmək lazımdır ki, bir müddət yoluxma səviyyəsinin aşağı enməsi əhalidə müəyyən qədər arxayınçılıq və rahatlıq yaratmışdı. Vətəndaşlar tərəfindən qoruyucu vasitələrdən istifadə səviyyəsi aşağı düşmüşdü, əksər hallarda sosial məsafə saxlanılmamışdı. Ticarət, məişət-iaşə obyektlərində, ictimai nəqliyyatda təhlükəsizlik qaydalarına riayət olunması səviyyəsi qənaətbəxş olmamışdı. Digər bir səbəb isə son bir ayda baş verən hadisələr nəticəsində kütləvi toplaşma və təmasların artması, bəzi mərasimlər zamanı sosial məsafənin gözlənilməsinin və maska taxılmasının tamamilə unudulması oldu. Nəticədə ölkədə çətinliklə əldə olunmuş müsbət tendensiya mənfi istiqamət aldı, infeksiyaya yoluxma sayı 900 civarına yüksəldi. Bu səbəbdən yeni növ koronavirus infeksiyasının yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədi ilə Nazirlər Kabinetinin qərarına əsasən ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 1 dekabradək uzadıldı.

Eyni zamanda ölkə ərazisində mövcud sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, son günlər Lənkəran şəhərində, Cəlilabad və Masallı rayonlarında yüksək yoluxma faktları aşkar olunub. Buna ğörə Sabirabad şəhəri, Sabirabad rayonunun Cavad, Türkədi, Qalağayın və Kürkəndi kəndləri, Şəki şəhəri və Kiş kəndi, Lənkəran rayonunun Şağlaküçə və Şıxəkəran kəndləri, Quba şəhəri, Quba rayonunun Rustov və Zərdabi kəndləri, Mingəçevir şəhəri, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala rayonları ilə yanaşı, 29 oktyabr saat 00:00-dan etibarən Lənkəran şəhərinə, Cəlilabad və Masallı rayonlarına operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, eləcə də yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla, giriş-çıxış 1 dekabr saat 06.00-dək dayandırılıb.

Həmçinin Bakı, Sumqayıt, Gəncə, Yevlax, Mingəçevir, Şəki, Şirvan, Lənkəran şəhərlərində və Abşeron, Göygöl, Samux, Sabirabad, Quba, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala, Cəlilabad, Masallı rayonlarında həftəsonları 31 oktyabr saat 00:00-dan 2 noyabr saat 06.00-dək; 7 noyabr saat 00:00-dan 9 noyabr saat 06:00-dək; 14 noyabr saat 00:00-dan 16 noyabr saat 06:00-dək; 21 noyabr saat 00:00-dan 23 noyabr saat 06:00-dək; 28 noyabr saat 00:00-dan 30 noyabr saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti dayandırılacaq.

Nazirlər Kabineti yanında Operativ Qərargah bir daha vətəndaşlarımızı COVID-19 virusu ilə mübarizədə mövcud karantin tələblərinə ciddi riayət etməyə, tibbi maskalardan və digər zəruri tibbi-profilaktik vasitələrdən istifadə etməyə, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa çağırır.

## Sərt karantinin tətbiq edilib-edilməməsi bizdən asılıdır

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva son günlər ölkəmizdə COVID-19-a yoluxma sayının kəskin artımının çox böyük narahatlıq doğurduğunu söyləyib. Onun sözlərinə görə, koronavirus infeksiyası ölkəmizin bütün bölgələrində aşkarlanıb, lakin bəzi bölgələrdə vəziyyət daha ciddidir. Elə regionlar var ki, orada xəstəlik ciddi şəkildə yüksələn xətlə gedir. Bəzi bölgələrdə yoluxma daha yüksək rəqəmlərlə ifadə olunduğuna görə lokal olaraq həmin ərazilərdə karantin rejimi daha sərtləşdirilib: "Uzun aylardan bəri pandemiya ilə aparılan mübarizədə hamı yorulub. Lakin bəlkə də ən çox yorulan həkim və tibb işçiləridir, çünki onlar artıq doqquz aya yaxındır sərt rejimdə fəaliyyət göstərirlər. Qısa bir müddətdə onlar rahat nəfəs almağa imkan tapdılar və bundan az sonra xəstəliyin ikinci dalğası baş qaldırdı. Gözəgörünməz düşmənlə mübarizə aparıldığı bir vaxtda sağlamlıq keşikçiləri düşmən üzərində ümumi qələbəyə öz töhfələrini vermək, bu sahədə zabit və əsgərlərə dəstək göstərmək istəyirlər. Lakin koronavirusa yoluxanların sayı artdıqca hansısa tibb müəssisələrindən yenidən pandemiya xəstəxanası kimi istifadə etməyə məcbur olacağıq. Xəstəxanalar bir gün, bəzən bir neçə saat ərzində dolur. Bir xəstəxananın ortalama çarpayı fondu 200-300 arası olur. İndiki yüksək yoluxma şəraitində tibb müəssisəsi bir günün içində xəstələrlə yüklənmiş olur. Hər şey çarpayı ilə həll olunmur, xəstələrə qulluq edən tibb personalına böyük ehtiyac yaranır. Ona görə də bunu dərk edən hər kəs özünü koronavirus infeksiyasına yoluxmaqdan qorumalı və bu yolla bugünkü şəraitdə həkimlərə dəstək göstərməlidirlər".

Hazırkı epidemioloji durum onu deməyə əsas verir ki, qarşıdan gələn dövrdə xüsusi karantin rejimi daha da sərtləşdirilə, yoluxma hallarının geniş yayıldığı şəhər və rayonlarla bağlı yeni məhdudiyyətlər tətbiq oluna bilər. Ölkədə infeksiyaya gündəlik yoluxma sayı kəskin artarsa, o zaman karantin rejiminin daha da sərtləşdirilməsi istisna edilmir. Sərt karantinin tətbiq edilib-edilməməsi isə hər birimizdən asılıdır.

Yoluxma sayının minimumlaşdırılması üçün pandemiya qaydalarına əməl etməyimiz indiki durumda daha çox vacibdir. Məlum məsələdir ki, yaralı əsgərlərimizin müalicəsi üçün boş çarpayılara və həkimlərə ehtiyac var. Yoluxma sayı artdıqca yaralılarımıza baxan həkim və çarpayı yeri azalır. Ona görə də koronavirusla mübarizədə fəal olmaq, xüsusi karantin rejiminin qaydalarına riayət etmək həm də cəbhədə döyüşən əsgərlərimizin sağlamlığı üçün önəmlidir. Bu gün orduya dəstək vermək istəyən hər bir vətəndaş ilk növbədə əsgər və zabitlərimizin sağlamlığı haqqında düşünməli, özünü və yaxınlarını xəstəlikdən qorumaqla haqq işimizə layiqli töhfəsini verməlidir. Deməli, qaydalara əməl etməyimiz yalnız sərt karantin rejimin qayıtmaması üçün deyil, həm də haqq işimizə dəstək olmağımız baxımından vacibdir. Bütün bunları nəzərə alaraq hamı xüsusi karantin rejiminin qaydalarına riayət etməli, maska taxmalı, şəxsi gigiyenasını gözləməlidir. Hər bir vətəndaş olduğu yerdən asılı olmayaraq, həm özünə, həm də ətrafına qarşı diqqətli olmalı, nümunə göstərməli, qaydaların pozulmasına dözümsüzlük nümayiş etdirməlidir. Yalnız bu halda biz arxa cəbhədə gözəgörünməz düşmənə qalib gələrək cəmiyyətimizin sağlamlığını qoruya bilərik. Sağlam olaq, güclü olaq, qalib olaq!

*Xəyalə MURADLI, "Azərbaycan"*

# "Azərenerji" ASC-nin rəhbəri ilə Yaponiyanın Azərbaycandakı səfirinin görüşü olub

Yaponiyanın Azərbaycandakı səfirliyi respublikamızın Xarici İşlər Nazirliyinə müraciət edərək ölkəmizə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfirinin "Azərenerji" ASC-nin rəhbəri ilə görüşmək istədiyini bildirib. Bununla da səfir Cuniçi Vada ilə Baba Rzayevin görüşü olub.



"Azərenerji" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, görüşdə Yaponiya ilə Azərbaycan enerji sistemləri arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri, həmçinin Yaponiya Dövlət Agentliyi JİCA-nın dəstəyi ilə həyata keçirilən layihələr geniş müzakirə edilib. O cümlədən Yaşmada özəl investisiya hesabına yeni elektrik stansiyasının tikilməsi layihəsi ətrafında müzakirələr aparılıb və səfir bildirib ki, bərpa olunan enerji mənbələri, kiçik su elektrik stansiyalarının tikintisi də yapon şirkətlərinin maraq dairəsindədir.

Baba Rzayev isə qeyd edib ki, Azərbaycan ilə Yaponiyanın elektroenergetika sahəsindəki əməkdaşlığı 20 ildən artıqdır uğurla davam edir və Yaponiya bu sahədə etibarlı tərəfdaşdır.

Bundan başqa, Qarabağ cəbhəsində baş verənlər, mülki əhalinin atəşə tutulması ilə bağlı fikir mübadiləsi aparılıb. Səfir bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Yaponiyanın nüfuzlu mətbuat orqanlarından olan "Nikkei" qəzetinə müsahibəsi nəşrin birinci səhifəsində dərc edilib və bütün yapon xalqı Azərbaycanın mövqeyindən xəbərdardır. Bununla yanaşı, səfir hazırda regionda baş verənlərlə bağlı ətraflı məlumatları hökumətlərinə çatdırdıqlarını da qeyd edib.

# Haqq dünyasına köçən arzu

## Erməni terrorunun qurbanı olan 15 yaşlı Nigar həkim olmaq istəyirdi

Əvvəli 1-ci səh.



Hadisədən bir qədər sonra məlum oldu ki, bu qətliamda ailə üzvlərini itirənlərdən biri də Rövşən Əsgərovdur. Dağıntı zamanı Rövşənin atası Suliddin kişi, qardaşı Bəxtiyar, bacısı Sevil və onun 10 aylıq körpəsi Narin, eləcə də böyük bacısının qızı - 15 yaşlı Nigar faciənin qurbanı oldular. Rövşən özü dağıntılar altından yüngül xəsarətlə çıxarılsa da, ağır yaralanan anası ilə 15 yaşlı oğlunu xəstəxanaya yerləşdirdilər.

Biz Nigarın təhsil aldığı 29 nömrəli tam orta məktəbdə olduq. Partlayışın dalğası o qədər güclü olmuşdur ki, məktəbə də xeyli ziyan dəymişdir. Bunu elə məktəbin giriş qapısında hiss etdik. Qapı-pəncərələr tökülmüş, içəridəki əşyalar tamamilə yararsız vəziyyətə düşmüşdü.

Bizi məktəbin direktoru Valeh Hüseynov qarşıladı. Ermənilərin raket hücumu nəticəsində dünyasını dəyişən 10-cu sinif şagirdi Nigar Əsgərova haqqında ətraflı məlumat almaq istədiyimizi bildirdik. Direktor masanın üstünə bir neçə sənəd qoydu və ilk sözü bu oldu ki, Nigar bizim əlaçı şagirdlərimizdən idi: "O, əlaçı olmaqla yanaşı, həm də bacarıqlı təşkilatçı idi. Məktəbdə keçirilən bütün tədbirlərdə iştirak edirdi. Bir sözlə, Nigar bizim fəxrimiz idi".

Nigarın 9-cu sinfi bitirməsi barədə ümumi orta təhsil haqqında attestatının surətini nəzərdən keçirdik. Bütün fənlər üzrə qiymətlər 4 və 5 idi. Sinif rəhbəri Bəsti Cəfərova dedi ki, belə işgüzar və bacarıqlı şagirdlər az-az olur: "Siniflə bağlı nə olurdusa Nigara tapşırırdım. Tapşırığı yüksək səviyyədə yerinə yetirirdi. Onun ölümü məni çox sarsıdıb".

Sonra Nigarın tarix müəllimi Aybəniz Süleymanova, riyaziyyat müəllimi Zümrüd Süleymanova və coğrafiya müəllimi Elgiz Hüseynovla söhbət etdik. Bildirdilər ki, bütün müəllimlər mehriban və işgüzarlığına görə onunla həmişə fəxr ediblər.

Onu da qeyd edək ki, terror zamanı 29 nömrəli tam orta məktəbin Nigardan savayı bir neçə şagirdi də yaralanıb. Onlardan biri Nigarın əmisi oğlu Amindir. O da partlayış zamanı dağılan evlərin altında qalıb. Xilasedicilərin köməyi ilə dağıntılar altından çıxarılan 6-cı sinif şagirdi hazırda xəstəxanada müalicə olunur. Məktəbin kollektivi, eləcə də sinif yoldaşlarının valideynləri bir neçə dəfə onu ziyarət ediblər.

Məktəbin birinci sinif şagirdi Məryəm Xəlilli və qardaşı - 6-cı sinif şagirdi Orxan Xəlilli isə Nigarın taleyini yaşayıblar. Onlar da erməni vəhşiliyinin qurbanı olublar, dağıntılar altında qalaraq həyatlarını itiriblər. Onlardan başqa, erməni terroru bu il məktəbi bitirən Ləman Qəhrəmanovanın da həyatına son qoyub.

Biz məktəbə yaxın ərazidə yaşayan və 10 il Nigarla bir sinifdə təhsil alan bir neçə şagirdlə də görüşdük. Onunla rəfiqə olmuş Nəzrin Nigar haqqında, onun necə qayğıkeş olması barədə danışdı. Sonra da əllərini üzünə qapayıb ağladı. Nigarla eyni sinifdə təhsil alan Firəngiz Cəfərli, İnci Mustafayeva da rəfiqələri haqqında ağızdolusu danışdılar və onu itirməklə həyatlarında bir boşluq yarandığını söylədilər.

Gəncəyə atılmış raket zərbəsi beləcə onlarca körpənin, yeniyetmənin həyatını yarımçıq qoydu. Kim bilir, bu uşaqlar hansı arzularla, amallarla yaşayırmışlar. Lakin məkrli düşmən bu arzuları onlara çox gördü.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

# Ermənistan ölkəmizə qarşı növbəti ekoloji terror aktı törədib

Ermənistan silahlı qüvvələri humanitar atəşkəs rejimini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutmaqla yanaşı, ekoloji terror əməllərini də davam etdirir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, döyüş zonasından kənarda yerləşən Göygöl rayonunun ərazisinin Ermənistan silahlı qüvvələrinin ağır artilleriya qurğularından atəşlərə məruz qalması nəticəsində meşəlik ərazidə yanğın baş verib. Yanğının söndürülməsi məqsədilə cəlb olunmuş FHN Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələrinin səyi nəticəsində ərazinin mürəkkəb dağlıq relyefə malik olmasına baxmayaraq, yanğın qısa müddətdə söndürülərək alovun geniş əraziyə yayılmasına və sıx meşəyə keçməsinə imkan verilməyib.

# Mingəçevirdə COVID-19-a qarşı mübarizə tədbirləri gücləndirilir







Mingəçevir şəhəri ərazisində Nazirlər Kabineti yanında Operativ Qərargahın tələbləri əsasında müəyyənləşdirilmiş tədbirlər planına uyğun olaraq həftədə 2 dəfə təmizlik və dezinfeksiya işləri aparılır.



Bundan əlavə, şəhərdəki binaların girişlərində, idarə və müəssisələrdə, ticarət və xidmət obyektlərində əhalinin nəzərinə çarpan yerlərdə təlimat posterləri yerləşdirilir. Həmçinin monitorinq qrupları tərəfindən ictimai iaşə obyektlərində və nəqliyyatda mütəmadi reydlər təşkil edilir və inzibati tədbirlər həyata keçirilir. Şəhər ərazisində "COVID-19"-a yoluxan şəxslər aşkar olunan kimi həmin ərazi nəzarətə götürülür, dezinfeksiya işləri aparılır, xəstənin karantin xəstəxanalardan birinə yerləşdirilməsi təmin edilir. Yeri gəlmişkən, qeyd edək ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə icra hakimiyyəti, bələdiyyə və polis şöbəsinin nümayəndələrindən ibarət 35 təbliğat və 3 monitorinq qrupları yaradılmışdır.

Son günlər yoluxma sayının artması ilə əlaqədar şəhərdə profilaktika işləri gücləndirilmiş, yas mərasimlərinin məhdudlaşdırılmasına nəzarət artırılmışdır. Bundan savayı, Nazirlər Kabineti tərəfindən şəhər icra hakimiyyətinə göndərilmiş 20300 ədəd tibbi maska mobil qruplar vasitəsilə əhaliyə paylanmışdır. Habelə Operativ Qərargahın müvafiq qərarına əsasən, şəhər ərazisində fəaliyyət göstərən dövlət orqanlarında və müəssisələrdə müvəkkillər təyin edilmişdir. Müvəkkillər vasitəsilə müəssisələrdə sanitar epidemioloji qaydalara nəzarət təşkil olunur, hər gün işçilərin temperaturu yoxlanılır. Həmin müvəkkillərin işlərinə nəzarət isə şəhər icra hakimiyyətində fəaliyyət göstərən operativ qərargahın üzvləri tərəfindən həyata keçirilir. Sonda onu da qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən Mingəçevir şəhərinə giriş-çıxışın məhdudlaşdırılması ilə əlaqədar polis şöbəsi tərəfindən müvafiq yerlərdə postlar qurulmuşdur.

*Lazım QULİYEV, "Azərbaycan"*

## Azərbaycanda koronavirus infeksiyasına 1015 yoluxma faktı qeydə alınıb, daha 483 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 1015 yeni yoluxma faktı qeydə alınıb, daha 483 nəfər sağalıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 53 min 152 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 42 min 516 nəfər müalicə olunaraq sağalıb, 708 nəfər vəfat edib. Aktiv xəstə sayı 9928 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 331 min 287 test aparılıb. Dünənki test sayı isə 11813-dür.


Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 2 nömrəli Bakı Baza Tibb Kolleci
2020-ci ildə Sair torpaq, tikili və avadanlıqlar üzrə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştrak etmək üçün sənədlər 31.10.2020-ci il saat 10:00-a qədər qəbul olunur.
Əlaqə nömrəsi: 012 431-16-59.

Tender komissiyası

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 2 nömrəli Bakı Baza Tibb Kolleci
2020-ci ildə qeyri-yaşayış binalarının əsaslı təmiri işləri üzrə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 31.10.2020-ci il saat 10:00-a kimi qəbul olunur.
Əlaqə nömrəsi: 012 431 16 59

Tender komissiyası

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 2 nömrəli Bakı Baza Tibb Kolleci
2020-ci ildə abadlaşdırılma xidmətləri işləri üzrə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 31.10.2020-ci il saat 10.00-a kimi qəbul olunur.
Əlaqə nömrəsi: 012 431 16 59

Tender komissiyası

# Vətən mənim üçün Böyük Mərcanlıdan başlayır



## Əli Həsənovun indi yeganə arzusu azad edilmiş kəndində ata ocağının işığını yandırmaq, yurdunu abad etmək, valideynlərinin narahat ruhlarını qovuşdurmaqdır

◆ Qarabağ söhbətləri

**Həyatının ən ağır, ən çətin günlərini yaşayırdı... Dünyaya göz açdığı, böyüdüyü doğma kəndi, rayonu əsl sahibinin qoynundakı, azadlıqdakı son günlərinin dadını çıxarırmış kimi o qədər "bəzənib" gözəlləşmişdi ki, tamaşa etməyə iki göz yetmirdi. Necə deyərlər, gül-gülü çağırırdı, bülbül-bülbülü... O da bir tərəfdən yurdunun bu gözəlliklərinə valeh ola-ola, gördüyü əsrarəngiz mənzərələri yaddaşına köçürür, digər tərəfdən də ürəyinə qara qanlar axıdır, qəm-qüssədən boğulurdu. Belə bir cənnət məkanın düşmən caynağına keçmə təhlükəsi içini yandırıb qovururdu. Bəlkə də bu, doğma yurdla son görüş, son vida idi...**



*Bu torpağı, doğulduğu kəndi, el-obanı bir də görə biləcəkdimi? Bu füsunkar təbiətdən bir də zövq ala biləcəkdimi? Bu ayrılığa, hicrana dözmək mümkün olacaqdımı? Kənd əhlinin, öz ailəsinin taleyi necə olacaqdı? Qarmaqarışıq hisslər, içini didib-dağıdan duyğular, ağlına gələn müxtəlif cür fikirlər orda Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə olduğu bir ay ərzində ürəyindən, beynindən çıxmırdı.*

*Ana baladan, ət dırnaqdan ayrılmadığı kimi, onlar da bu torpaqlardan qopa bilməzdilər. Elə ona görə də hər təhlükəni gözə alıb kənddən çıxmamağa qərar vermişdilər. Lakin avqustun 16-da hökumət rəhbərinin göstərişi ilə Bakıya qayıtmalı olur. Anasına qadın və uşaqlarla birlikdə onunla Sumqayıta getməyi təklif etsə də, qəti rədd cavabı alır. Beləcə, anasını, 9 bacı-qardaşının ailəsini... və ruhunu kəndə əmanət edib Bakıya qayıdır...*

*Bir həftə sonra Cəbrayılın işğal olunduğunu eşidən kimi Biləsuvar keçid məntəqəsinə gəlib gözünü yollara dikir, içində qorxu, təlaş və həyəcanla ailə üzvlərinin yolunu gözləyir. 3 gün sonra min bir çətinliklə Araz çayını keçərək, canlarını qurtaran anasını, doğmalarını görəndə sevinir, ürəyi toxtaqlıq tapır...*

*Amma içində böyük bir boşluq yaranır. Düşmən tapdağı altında inləyən ata yurdunun xiffətindən yaranan boşluq...*

*27 il o boşluğu heç nəylə qapada bilmir. Vətən həsrətilə qanayan yarasını sağaltmağa heç bir məlhəm yetmir. İşğalda qalan elinin, ocağının, ruhunun, uşaqlıq illərinin, atasının məzarının azadlığa qovuşacağı günün nisgili, ümidilə yaşayır, anasının son arzusunu gerçəkləşdirmək üçün Allahdan möhlət diləyir...*

*Və düz 27 ildən sonra həsrətlə, səbirsizliklə gözlədiyi o böyük günü görmək ona qismət olur...*

### Yük vaqonunda başlayan həyat

*Yeni Azərbaycan Partiyası sədrinin müavini, "Şöhrət" və İİ dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif edilmiş dövlət xadimi Əli Həsənov "Qarabağ söhbətləri"ndə doğulub boya-başa çatdığı Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndindən söhbət açır, doğma yurdu ilə bağlı xatirələrə işıq saçır, işğal zamanı keçirdikləri ağrı-acıları yada salır, qələbə sevincini bölüşür.*

- Atam Şamil Cəbrayılın Daşkəsən kəndindən idi. Bakı-Yerevan dəmir yolu xətti 1938-ci ildə Böyük Mərcanlı kəndinə çatanda atamı oradakı dəmiryol stansiyasiyanın rəisi qoyurlar. O vaxtdan Böyük Mərcanlı kəndində yurd salır. Atam yetim olsa da, Dəmiryol Texnikumunda oxumuşdu. Sonra işləyə-işləyə Rostov Dəmiryol İnstitutunu da bitirdi. 45 il, təqaüdə çıxana qədər o vəzifədə nümunəvi şəkildə işlədi. Olduqca humanist, ədalətli insan idi.



Anam Gülxanım Zəngilanın Böyük Ağalı kəndində dünyaya gəlib. O kəndin torpağının 60 faizi onun atası Hüseynalı kişiyə məxsus olub. Anamın anası Qubadlının Alaqurşaq kəndində doğulub. Onlar böyük şəcərədi, əsilləri-kökləri Qərbi Azərbaycana gedib çatır. Anamın ulu nənəsi Dərələyəzdən Sisyanın Dəstəəyri kəndinə gəlin köçür. Nənəsi Sisyandan Alaqurşaq kəndinə, anası isə ordan Zəngilana, Böyük Ağalı kəndinə ərə gəlir. Anamın ata, anası öləndən sonra bütün qohum-əqrəbalarını kulak adı ilə Qazaxıstana sürgün edirlər. Anam iki qardaşı ilə Zəngilanda qalır. Qardaşı Əlini kolxoz sədri öz oğlunun əvəzinə İkinci Dünya müharibəsinə göndərir, orda itkin düşür. Mənə həmin dayımın adını qoyublar. Qumlaqda dəmiryol stansiyasının rəisi işləyən qardaşı İslam isə İrana gedəndə həlak olur. Beləcə, anam tək, kimsəsiz qalır. O vaxtlar cəbrayıllılar o torpaqlarda işləyir, çəltik əkirdilər. Atamın böyük bacısı da orda işləyirdi. O, 1943-cü ildə 18 yaşı olan anamı götürüb Cəbrayılın Daşkəsən kəndinə gətirir. Atamla anam ailə qurub Böyük Mərcanlıda yaşayırlar.

O vaxtlar kəndin camaatı tərəkəmə idi, daha çox qoyunçuluqla məşğul olurdular. Yaylağa Sisyana, Gorusa gedirdilər, qışlaqları da İmişli, Beyləqanda idi. Kənd əhli köçəri həyat tərzi sürdüyü üçün kənddə ev yox idi. Atam danışırdı ki, 1938-ci ildə kəndə dəmir yolu xətti çəkiləndə hər yan qara kolluq, tikanlıq imiş. Ona görə də bir yük vaqonu açıb qoyublar qırağa, olub stansiya. Onun da yanında zastava əvəzinə 50 metr diametrində çadırlar qurulub. Sərhəd xidmətinin əsgərləri orda qalıblar. Həmin yük vaqonun yarısı stansiya olub, yarısı da bizim evimiz. Anam o evə - o vaqona gəlin köçüb. Mən bax, o vaqonda dünyaya göz açmışam. Böyük bacım, məndən kiçik qardaşım da o vaqonda doğulub. Kim bilərdi ki, 50 il sonra yük vaqonlarında məskunlaşan məcburi köçkünlərin mənzillərə köçürülməsilə Prezidentin tapşırığı ilə məhz mən məşğul olacam. Görünür bu, Allahın yazdığı qismətmiş. Axı mən o insanların yaşantılarını, ağrılarını bilirdim, uşaqlıqdan görmüşdüm, tanış idim...



### Evimizin viran qalmış halına baxıb ağlayırdıq

- Anam tək olduğu üçün çox əziyyət çəkirdi. Ağdamda Tibb Texnikumunu bitirmişdi, 4 kəndə həkimlik edirdi. Bir at vermişdilər ona. Rayona dərman dalınca, kəndlərə xəstə müayinəsinə də onunla gedirdi. Kəndin uşaqlarının 80 faizinin "göbək nənəsi" anam olub. Çox zəhmli, sərt qadın idi. Kənddə ona "Ərəbzəngi" deyirdilər.

Ev, məişət, uşaqların qayğılarını da anam təkbaşına çəkib. Biz nə əmi, dayı, nə xala, bibi görmüşük. Anamın o cür imkanlı ailəsindən heç kim salamat qalmamışdı. Atamın da bütün qohum-əqrəbaları müharibədə həlak olmuşdular. Hər ikisi yetim idi. Ona görə bizim də böyüməyimiz nisgilli olub. Anam ömrünün axırına kimi ailəsi üçün göz yaşı axıdıb. Uşaq vaxtı biz də ona qoşulub ağlayırdıq. 6 bacı, 5 qardaş idik. Bacılarımın dördünə anam öz bacılarının adlarını qoymuşdu. Taleyə bax ki, işğaldan bir il qabaq anam qardaşımla Zəngilana getdi, ailə üzvlərinin qəbirlərinin üstünü, başdaşlarını təzədən götürüb, hasara aldı... Ancaq o məzarları bir də ziyarət etmək ona qismət olmadı. Ömrünün sonuna qədər onların nisgilini ürəyində gəzdirdi.

8 yaşım olanda, 1956-cı ildə atam ilk evimizi tikdi. Vaqondan ora köçdük. Dördotaqlı daş evimizi isə Dəmiryol İdarəsinin rəisi Abbas Bağırov bizim üçün tikdirdi. Zəngilanda dəmiryol stansiyası tikiləndə atam ordakı işçilərə təcrübə mübadiləsi keçirdi. Abbas Bağırov da o vaxt atamın işçisi olub. Hər dəfə Naxçıvana gedəndə gəlib bizimlə görüşürdü. İdarə rəis olanda daş evi tikdirdi ki, ayıbdı, stansiya rəisi belə evdə yaşamaz. Amma kənddə ilk elektrik işığı, radio, televizor bizim evimizdə olub. Kənd işğal olunana qədər anamgil o evdə yaşayıb, ata ocağı idi. Evi dolu şəkildə tərk edib, bir çöp də götürmədən 9 bacı-qardaş 9 evin qapısını bağlayıb çıxıblar...

Hərdən peykdən çəkilmiş görüntülərdə kənddəki evimizə baxırdıq. Eləcə quru divarları qalıb, damına kimi söküb aparıblar. O mənzərəni görmək içimizi yandırırdı. Evimizin viran qalmış halına baxıb ağlayırdıq. Deyirdik, görəsən oralara getmək nə vaxt bizə qismət olacaq?

### Böyük Mərcanlıdan Sumqayıta qədər uzanan ömür yolu

- Məktəbə də elə kəndimizdə getmişəm. Özü də 5 yaşımın tamamına 2 ay qalmış, sinif jurnalına isə adım 3-cü sinifdə yazıldı. 4 yaşımda əlifbanı, hesabı, vurma cədvəlini tam bilirdim, yazıb, oxuyurdum. Kənddə 3 məktəb vardı, amma öz müəllimlərimiz yox idi. Müəllimlər qonşu kəndlərdən gəlirdi. Çaxırlı kəndindən olan Mələk adlı ibtidai sinif müəlliməsi günorta bizdə nahar edirdi. Bir



gün gördü ki, qəzetlərdən şəkilləri kəsib yığıram. Yanımdakı 1-ci və 2-ci sinif dərslikləri diqqətini cəlb etdi. Məni sorğu-sual elədi, baxdı hər şeyi bilirəm. Dedi, "ay Gülxanım, bu uşaq hər şeyi bilir ki... Qoy onu aparım məktəbə". Anam dedi, yox, nə danışırsan, uşağın sümüyü hələ bərkiməyib. Müəllimə israr elədi, dedi bu uşağın gələcəyi var. Onda böyük bacım 3-cü sinifdə oxuyurdu. Müəllimə məni məktəbə aparıb, bacımla eyni partada oturtdu. Beləliklə, birbaşa 3-cü sinifdə oxumağa başladım.

Məktəb illəri ömrümün ən maraqlı, qayğısız, xoşbəxt illəri olub. O zamanlar necə saf idik. Uşaqlar arasında necə böyük səmimilik, mehribanlıq vardı. Kəndin günəşindən, tozundan, yağışından, hətta ayağımızın palçığa batmasından da ləzzət alırdıq. Bütün kənd uşaqları necə, mən də o cür olmuşam. Dərslərimi əla oxumaqla bərabər, həm də yaxşı oyunçu idim. Kəndin futbol və voleybol komandasında 3 nömrə altında oynayırdım. Dəmir yolunun altında bizim evə yaxın yerdə kəndimizin qəşəng stadionu yerləşirdi. O vaxtlar futbola dəhşət böyük maraq, həvəs vardı. Rayon komandası ilə kəndimizin komandası arasında yarışlar olurdu. Cəbrayılı da ilk dəfə elə onda görmüşəm. Rayonda bir neçə dəfə yarışa qatılmışam. Adətən bizim komanda qalib gəlirdi. Özü də yarışa 3 maşın gedirdik. Bir maşında oyunçular, birində azarkeşlər yığışırdı. Üçüncü maşında isə ağac yığıb aparırdıq. Dava düşəndə dalaşmaq üçün... Yadımdadı, bir dəfə yarışda rayon komandasına uduzduq. Dava düşdü, kəndimizin sakinləri rayon camaatını döydü. Futbolçulardan biri vurub gözümü qaraltdı. Məni maşına mindirmədilər ki, sən döyülmüsən. Maşın 200 metr aralanandan sonra geri qayıdıb məni götürdü. İçəridəkilərdən kimsə deyib ki, Gülxanım bilsə, bizi kənddən köçürər. Bir dəfə də komsomola keçəndə rayona getmişdim...

16 yaşımda 11-ci sinfi bitirib Neft və Kimya İnstitutuna daxil oldum. Elə o vaxtdan kənddən çıxdım. Əvvəl tələbəlik, sonra Sumqayıtda iş həyatı, müxtəlif vəzifələr... Artıq başqa bir həyat, başqa bir dövr başlamışdı mənim üçün...

### Elə darıxıram o ağaclar üçün...

- Lakin heç nə məni kəndimizdən uzaqlaşdıra bilməmişdi. Sumqayıtda yaşasam da, ayda bir dəfə mütləq kəndə gedirdim. Maaşımdan bütün bacı-qardaşlarıma paylayırdım. Ailədə 11 övlad olsaq da, həyətdə bütün ağaclarımızı mən əkib becərmişəm, qulluq etmişəm. Kənddə bostan tərəvəzini ilk dəfə anam əkib. Biz bazardan pomidor, xiyar, qarpız, yemiş almamışıq heç vaxt. Anama kömək edirdim: torpağı belləyirdim, çevirirdim, ağacları əhəngləyirdim, sulayırdım, ləkləri düzəldirdim... Elə darıxıram o ağaclar üçün...



İndi də bağımdakı ağaclara özüm qulluq edirəm. Bütün meyvə ağaclarını özüm əkmişəm, onları göz bəbəyim kimi qoruyuram. Torpaqda işləmək mənə xüsusi zövq verir, mənəvi qida alıram. Təbiət vurğunuyam. Bəlkə də ölkəmizin Cəbrayıl kimi füsunkar təbiətli dilbər guşəsində doğulub böyüməyim təbiəti, torpağı sevməyimin bir səbəbidi. Təəssüf edirəm ki, Cəbrayılın gözəllikləri ilə çox gec tanış oldum. İşğala bir ay qalmış... Kaş daha əvvəl rayonumuzu qarış-qarış gəzib bütün mənzərələrini yaddaşıma həkk edərdim...

1993-cü ilin yayında Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Ulu Öndər Heydər Əliyev göstəriş verdi ki, get rayonda qal, tədbir gör ki, Araz qırağı kəndlər boşalmasın. Onda qardaşım Ramizdən başqa bütün bacı-qardaşlarım kənddə yaşayırdı. Evləri də yan-yana idi. Həmin vaxt Mahmudlu stansiyasında qərargah yaratdım, bir ay orda qaldım. O bir ay ərzində Cəbrayılla yaxından tanış oldum, kəndləri gəzdim, kəhrizin suyundan içdim, məşhur çinara baxdım. Heyf ki, o çinarı erməni vəhşiləri indi məhv ediblər. Xudafərin körpüsünü də ilk dəfə onda görmüşəm. Əsrarəngiz, qədim tarixi olan möhtəşəm abidədir. O vaxtlar Cəbrayılın Arazqırağı kəndlərindən başqa bütün kəndləri boşaldılmışdı. Biz də bütün kəndləri gəzib camaatla söhbət edirdik, qoymurduq çıxmağa. Hamıya da deyirdim bacı-qardaşlarım kənddədi, istəyirsiz gedin baxın. İnanın ki, hər gün gəlib baxırdılar. O inam, güvən sayəsində camaat evini tərk etmədi. Düzdü, sonradan bəlkə də çoxu məni qınadı. Çünki mən qoymamışdım vaxtında kənddən çıxmağa. Dolu ev-eşiklərini qoyub, quruca canlarını götürüb, Araz çayını keçməklə xilas olmuşdular...

### Anamı o vəziyyətdə görəndə sarsıldım

- İşğala 1 həftə qalmış avqustun 16-sı Heydər Əliyevin köməkçisi məni Bakıya geri çağırdı. Atam artıq 13 il idi rəhmətə getmişdi. Anama dedim gəl səni, qadınları, uşaqları özümlə birlikdə Sumqayıta aparım. Razılaşmadı. Uşaqları da aparmağa qoymadı. Əli ilə qapını göstərib dedi, çıx get, bu kənddən ən axırıncı biz çıxacağıq. Dedim, yaxşı, nənə, tərslik eləyirsən, amma eşitsəniz ki, Horadiz işğal olunub dərhal özünüzü verin Araza, keçin o taya.

Elə də oldu. 9 ailə nəvəli-nəticəli hardasa 100-dən çox adam idi. Anam onların hamısının qolundan tutub bir-bir Arazdan keçirmişdi. Çox cəsur, mərd, qorxmaz, zirək qadın idi. Həkərinin qırağında böyüdüyü üçün də suyun iti axanı, lal axanı necə olur bilirdi. Nə qədər kənd camaatının kiçik yaşlı uşağı suyun lal axan yerində batmışdı. Su boğazdan yuxarı qalxanda boğulurdular, analar başlarının üstünə qaldırdıqları uşaqları əllərindən çaya buraxırdılar. İmişlidə Bəhramtəpədə dayanıb anamgili gözləyəndə çayda nə qədər uşaq meyiti görmüşdüm...



Horadizin işğal olunduğunu eşidən kimi Biləsuvara gəldim. Gecə İmişlidə çadır şəhərciyində qalırdım, səhər də durub gəlirdim Biləsuvar keçid məntəqəsinə. O qədər narahat idim ki... Bilmirdim başlarına nə iş gəlib. Kim ölüb, kim sağ qalıb. Nəhayət, 3 gün sonra hamısı sağ-salamat gəlib çıxdı. Elə əyinləri yaş hamını avtobusa doldurub keçirmişdilər bura. İmişlidə çadır şəhərciyinə gəldim, axtardım tapdım onları. Şəhərcikdəki kənd arvadları sağ olsunlar, anamın əynindəki yaş paltarları soyundurub quru paltar vermişdilər. Amma hündürboy qadın idi deyə paltarlar əyninə balaca idi. Gördüm anam torpağın üstündə oturub, qabağına da bir ləyən qoyub, əynindən çıxardığı paltarları yuyur. Onu bu vəziyyətdə görəndə sarsıldım, çox pis oldum. Birdən başını qaldırıb məni qəhərlənmiş gördü. Dedi, "özünü yığışdır, nolub ki, ağlayırsan. Şükür Allaha hamını sağ-salamat gətirmişəm, ölüm-itim yoxdu. Ev-eşik dağılıb, eybi yoxdur, yenisini tikərik, təki sağlıq olsun".

### Dolanışığın çətin olduğu zamanlarda belə, o, dəyərli əşyaları satmadı

- Getdim İmişli bazarından bir az pal-paltar alıb gətirdim. Sumqayıtdakı tanışlara, dostlara zəng elədim. 10-15 maşın xahiş elədim. Doğmalarımı yığıb gətirdim Sumqayıta. O vaxt Sumqayıtda dövlət tərəfindən verilmiş 3 otaqlı evim vardı. Amma bağım, maşınım, ikinci evim yox idi. Bir ailəni öz evimə, birini qardaşım Ramizin evinə yerləşdirdim. Bir hissəsini dənizin qırağında bağ yeri vardı və bir daxma kimi otaq - ora apardım. Qalanlarını da dost-tanışların boş evlərinə yerləşdirdim.

Bax beləcə, atamın qəbri qaldı kənddə. Anam isə oldu köçkün...

Köçkünlük ağır duyğudu, dərddi, yükdü. Baxmayaraq ki, öz vətənindəsən, insan özünə yer tapa, kök sala bilmir. Özünü doğma eldə yad, qərib kimi hiss edirsən...

Üstəlik o illər çox çətin dövr idi. 1992-ci ildə Xalq Cəbhəsi hakimiyyətə gələndə məni işdən çıxarmışdılar. İşsiz idim, aylıq maaşım yox idi. Sağ olsun Sumqayıt çörək zavodunun direktoru Tofiq Hüseynov gündə 35 çörəyi pulsuz verirdi. Bir-iki qır-qızılları vardı, onları satıb yeməyə verirdilər. Çox böyük çətinliklə dolanırdıq. Anam kənddən cəmi üç əşya çıxara bilmişdi. Biri Sisyandan Qubadlının Alaqurşaq kəndinə gələn ulu nənəsinin qədimi xalçası idi. Digəri 1890-cı ildə Almaniyada istehsal olunan tikiş maşınıydı. O maşınla anam bütün kəndin qızlarının gəlinliyini, eləcə də özünün paltarlarını tikib. Bu iki əşyanı kənd adamlarından birinin maşınına qoyub gətirmişdi. Anasının cehizi olan, Dərələyəzdən Böyük Mərcanlıya qədər gəlib çıxan gümüş, qızıl və mis qatlı çaydanı isə özü əlində tutub gətirmişdi. Dolanışığın çətin olduğu zamanlarda belə, o dəyərli əşyaları satmadı, göz nuru kimi qoruyub saxladı. İndi onların hərəsini bir bacım anamdan yadigar saxlayır.

Sonradan işə bərpa olundum. Qardaşlarım, onların ailə üzvləri də özlərinə iş tapdılar, dolanışığımız düzəldi. Bacardığım qədər kömək etdim, bununla təskinlik tapmağa çalışdım. Çünki özümü borclu bilirdim. Onları kənddə mən saxlamışdım, qoymamışdım tez çıxsınlar. Sonradan anama balaca bir bağ sahəsi aldım, ev tikdirdim, orda ayrıca qalırdı. Bacardığım qədər ona xidmət edib, qulluğunda durmağa çalışdım, ovcumun içində saxladım. Məni bu günə qədər yandıran odur ki, atama xidmət edə bilmədim. Bir kostyum belə alıb hədiyyə eləmədim. Amma anama ürəyi istəyəni, xoşladığını aldım. Hər axşam gedirdim yanına.

Hər bazar isə qardaşlarımla anamın başına yığışırdıq. Bizə çolpa şorbası bişirirdi. Necə dadlı idi... Anam gözəl yeməklər bişirirdi. Zəngilan aşı - döşəmə plovunun dadı hələ də damağımdadı. Bu gün bacılarım da bişirir, amma dadı o cür olmur. Rahatçılığım, təsəllim odur ki, qoymadım anam korluq çəksin. Çox qohumcanlı qadın idi. Pul kisəsi vardı. Daim cibində gəzdirirdi. Bir zəngilanlı, yaxud qubadlılı görən kimi ürəyi atlanırdı, çıxardıb pul verirdi.

### Allahdan möhlət diləyirəm ki, anamın son arzusunu gerçəkləşdirim

- Bircə onunla təskinlik tapıram ki, anamı xəstə yatağında, əldən-ayaqdan düşmüş görmədim. Bir gün belə xəstə yatmadı. Amma artıq zəif düşmüşdü. 2005-ci ildə dünyasını dəyişməyinə 3 gün qalmış məni yanına çağırdı. Dedi, səndən üç xahişim var. Birincisi, mən rəhmətə gedəndə ağlamayın. Hamınız böyümüsüz, salamatsız, ev-eşik qurmusuz, nəvə-nəticə sahibisiz. Ağlamalı heç nə yoxdu. Sinə daşıma da "Zəngilan, Cəbrayıl, Qubadlı həsrəti ilə" yazarsız. İkincisi, atanla 50 il ömür sürmüşəm. Bizi o biri dünyada ayırmayın. Məni aparıb onun yanında dəfn edin. Dedim, ay nənə, vəziyyəti bilirsən axı, bu istədiyin indi mümkün deyil, ancaq söz verirəm, torpağımız azad olunanda sizi qovuşdurucam.

Son xahişi də olduqca müşkül idi. Dedi bizim heç kimə borcumuz yoxdu, ancaq uzun illərdir mənim bir adama borcum qalıb. Başladı danışmağa ki, "1943-cü ildə bibin məni Daşkəsənə gətirəndə ağır günlər idi. Bibinin əri ölmüşdü, 2 qızı ilə tək qalmışdı. O vaxt adam başına 50 qram çörək verirdilər. Qeydiyyatım yox idi deyə mənə çörək payı düşmürdü. Üç gün ac qaldım. Qonşuda Turab adlı bir yaşlı kişi vardı. Məni çağırıb soruşdu ki, eşitmişəm 3 gündü acsan, düzdü? Dedim hə. Qayıtdı ki, mənim uşağım çoxdu deyə çörək çox alırıq. Hər gün sənə bir az çörək gətirəcəm, amma heç kimə demə. O kişi hər gün bir dilim çörək gətirib mənə verirdi, beləcə acından ölməkdən qurtuldum. Mənim o kişiyə borcum qalıb. Gör onun ailəsindən kimsə qalıbsa, o borcu qaytar".

Anamın ölümündən düz bir həftə sonra Nazirlər Kabinetində qəbul günüm idi. Otağa bir nurani ağbirçək xanım girdi. Qayıtdı ki, "iki oğlum şəhid olub, biri Milli Qəhrəmandı. Üç oğlum da var, amma işsizdilər. 1993-cü ildən bəri bir qapı döyməmişəm. İlk dəfədi qapı açıram. Dedilər sən deyəsən bizim tərəfdənsən, ona görə yanına gəldim. Heç olmasa bu uşaqlardan birinə iş düzəlt". Dedim, çalışacam, nə imkan olsa eləyəcəm. Çıxanda qayıtdı ki, sən bizi tanımarsan, amma Maya bacın tanıyar. Mən Turab kişinin qızıyam. Bunu deyəndə duruxdum. Axşam getdim bacımdan soruşdum. Məlum oldu ki, bu, anamı acından ölməkdən xilas edən həmin o Turab kişinin qızıdır. Səhər işə gəldim, o xanımı və oğlunu çağırtdırdım. Səbəbini demədən oğlunu Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsində işə götürdüm. Bir müddət sonra 7-ci mikrorayonda köçkünlər üçün tikilən binada ona Milli Qəhrəman ailəsi kimi ev verdik. Atası direkror müavini işlədiyi məktəbi təmir etdirdik. Beləcə, 62 il sonra anamın borcunu qaytardım...



O vaxtdan mənim yeganə nisgilim, arzum qalmışdı - anamın son xahişini yerinə yetirmək. Anamın qəbrini qaçqınlıqdan aparıb atamın işğal altında qalan qəbri ilə qovuşdurmaq. Ən böyük arzum bu idi. Allaha dua edirdim ki, bu günü mənə qismət etmədən canımı alma, mənə möhlət ver, anamın istəyini həyata keçirim. Amma indi bütün qəlbimlə inanıram ki, kəndimizi də görəcəm, anamın arzusunu da yerinə yetirəcəm... O gün gəlib çatdı nəhayət...

### Prezident öz adını Azərbaycan tarixinə qızıl hərflərlə həkk etdirir

- Qəribədir ki, həmin gecə yuxuda müharibə görmüşdüm, kəndimizdə, evimizdə gəzmişdim. Görünür insanın nəyisə əvvəldən hiss etməsi, əyan olması doğrudur. Sentyabrın 27-si günorta nahar vaxtı televizora baxırdım. Birdən kəndimizin işğaldan azad edildiyini eşitdim. Bu, elə bir hissdir, elə bir xoşbəxtlikdir ki, sözlə təsvir oluna bilməz. Sevincimin, həyəcanımın həddi-hüdudu yox idi. Mənim kimi sərt adam göz yaşlarımı saxlaya bilmədim... Elə bil ruhum 27 illik işğaldan qurtularaq pərvazlanıb vücuduma qovuşdu. Atamın, anamın ruhları şad oldu. Kəndimizin hər qarışı gözümün önünə gəldi, uşaqlığım, yeniyetməliyim, xatirələrim canlandı... İşğal günləri, burdakı ağır günlərimiz yadıma düşdü...

1993-cü ildə Horadiz əməliyyatında Cocuq Mərcanlı kəndi də işğalçılardan təmizlənmişdi, lakin təhlükəsizlik baxımından orda məskunlaşma qeyri-mümkün idi. 2016-cı ildə Lələtəpə yüksəkliyi azad edilən kimi Prezident İlham Əliyev kəndin bərpası üçün göstəriş verdi. Yenidənqurma işlərindən sonra dövlət başçısının kəndə səfəri zamanı söhbət əsnasında dedim, cənab Prezident, mənim doğulduğum kəndə burdan 9 km yol var. Müdafiə naziri Zakir Həsənov da qayıtdı ki, Ali Baş Komandan əmr versin, 2 saata o kəndi alarıq. Prezident də özünəməxsus, təmkinli tərzdə cavab verdi ki, tələsməyin, hər şeyin vaxtı var. Həqiqətən də nəyi nə vaxt və necə edəcəyini ölkə rəhbəri hər kəsdən yaxşı bilirmiş. 27 sentyabrdan bəri Azərbaycanın yeni, şanlı tarixi yazılır.

Möhtərəm Prezident cənab İlham Əliyev xanımı hörmətli Birinci vitse-prezident Mehriban Əliyeva ilə milləti birləşdirdilər, milli həmrəyliyi yaratdılar, millətimizin, ordumuzun, zabit və əsgərlərimizin cəsarətini, döyüşkənliyini dünyaya nümayiş etdirdilər. Dünya ordularına və hərbi ekspertlərinə nümunə göstərdilər ki, ermənilərin 30 ildə qurduqları istehkamları ildırım sürəti ilə qısa müddətdə necə darmadağın etmək olar. Dünyanın ali beynəlxalq təşkilatlarına, Minsk qrupunun həmsədr dövlətlərinə və həmsədrlərə göstərdilər ki, sizin 30 ildə həll edə bilmədiyiniz və ya həll etmək istəmədiyiniz problemi bir ay ərzində necə həll etmək olar. Prezident-xalq-ordu birliyinin ən yüksək nümunəsini dünyaya nümayiş etdirdilər. Azərbaycan Prezidenti 17 il hazırlıq görərək yüksək sərkərdəlik və Ali Baş Komandanlıq bacarığını bütün dünyaya göstərdi. Cənab İlham Əliyev 17 il prezidentlik fəaliyyəti dövründə gördüyü işlərlə, dünyagörüşü, bacarığı, yüksək idarəçilik təcrübəsi, intellekti ilə



artıq Azərbaycan çərçivəsinə sığmır, necə ki, Ulu Öndər Heydər Əliyev ötən əsrdə 14 il respublikaya rəhbərlik etdikdən sonra Azərbaycanın çərçivəsinə sığmadı.

### Kəndimə qayıdacam

- Bu gün mərd Azərbaycan əsgəri canı, qanı, hünəri ilə torpaqlarımızı erməni terrorçularından təmizləyir və sonadək təmizləyəcək. 27 il biz xalq olaraq bu günlərin həsrətilə yaşamışıq. Doğma elimizi-obamızı bir gün belə unutmamışıq. Yuxularımızda, xəyallarımızda, xatirələrimizdə o torpaqları gəzmişik. Vətən nisgili yaralarımızı qanatsa da, ora yenidən qayıtmaq ümidini heç vaxt itirməmişik. Məhz o ümid, inam bizi yaşadıb, ayaqda saxlayıb.

Mən niyə 51 il Sumqayıtda yaşadım? Çünki Bakıya, şəhər mühitinə uyğunlaşa bilmədim. 15 ildi bağda yaşayıram. Kənddəki təmiz hava, su, qida, səmimiyyət şəhərdə yoxdu. Kənd həyatında hər şey təmizdi, insan da təmizdi, içi, mənəviyyatı safdı. Mən bax o mənəviyyat, saflıq üçün darıxırdım. Kəndim, ata ocağım üçün burnumun ucu göynəyirdi. Daim yuxularımda görürdüm. 27 il idi atamın məzarını ziyarət edə bilmirdim. Ermənilər dağıdıbmı, yoxsa salamatdı bilmirəm.

Hər zaman deyirəm - vətən doğulduğun yerdən başlayır. Vətən mənim üçün dünyaya göz açdığım yerdən, Böyük Mərcanlıdan başlayır. Hər kəs doğulduğu yerin qədrini bilsə, ümumən Azərbaycanın qədrini bilər. Doğulduğun yerin qədrini bilmirsənsə, bütün Azərbaycanın qədrini bilməzsən. Özü də tək biz torpaq üçün yox, torpaq da bizim, öz sahibi üçün darıxıb, inanın ki, belədir. Çox şükür artıq bütün ayrılıqlar, nisgillər başa çatır. Artıq vüsala yetmə, qovuşma anıdır. Tezliklə, Ali Baş Komandanın göstərişi ilə müzəffər ordumuz bütün torpaqlarımızı işğaldan azad edəcək. Hər kənddə, qəsəbədə, şəhərdə müqəddəs üçrəngli bayrağımız dalğalanacaq. Qarabağa, əzəli-əbədi dədə-baba yurdumuza böyük qayıdış, böyük köç başlayacaq.

Mən də o köçün tərkibində kəndimə qayıdacam. Ata ocağımın işığını yandıracam, yurdumu abad edəcəm, valideynlərimin narahat ruhlarını qovuşduracam. İndi mənim bundan başqa arzum yoxdu...

O günə az qalıb... Çox az...

**Xəyalə MURADLI,**
***"Azərbaycan"***



# Arxa cəbhə



# Prezident İlham ƏLİYEV: "Biz Böyük Qayıdış ərəfəsindəyik"

## İşğaldan azad edilən bölgələrimizə yollar, işıq və qaz xətləri çəkilir

Erməni vandalları işğal etdikləri Azərbaycan torpaqlarındakı şəhər və kəndləri 30 ilə yaxın vaxt ərzində söküb-dağıtmış, çapıb-talamışlar. Bu bir daha göstərir ki, onlar həmin yerlərdə müvəqqəti olduqlarına əmin idilər. Odur ki, heç daş üstünə daş da qoymamış, abad yaşayış məntəqələrimizi bərbad vəziyyətə salmışlar. Bununla belə müzəffər Azərbaycan Ordusunun erməni faşistlərinin tapdağından azad etdiyi və bundan sonra da düşmənin qovulacağı torpaqlarımızda həyatı yenidən canlandırmağa gücümüz, iradəmiz və maliyyə vəsaitimiz çatacaq. Bunu Prezident İlham Əliyev dəfələrlə bəyan edib.



İşğalçılardan azad edilmiş yaşayış məntələrimizdə yeni infrastrukturun qurulmasına artıq start verilmişdir. İcrasına başlanan su layihəri illərdir yolumuzu gözləyən torpağı dirçəldəcək, qurulacaq təzə evlərə aydınlıq və saflıq gətirəcək. Belə ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC həmin ərazilərdə yerləşən subartezian quyularının bərpasına başlayıb. İlk olaraq Beyləqan Subartezian Quyularının İstismar İdarəsi Cərbayıl rayonunun Daşkəsən kəndindəki subartezian quyusunu təmir-bərpa edib. Erməni faşistlərinin yararsız hala saldığı quyu tam işlək vəziyyətə gətirilib. Onun təxminən 3-4 hektar ərazidə yerləşən binaları su ilə təmin etmək imkanı var.

Xatırladaq ki, indiyədək ümumilikdə 654 subartezian quyusu işğal altında idi. Torpaqlarımız erməni qəsbkarlarının işğalından tam azad edildikdən sonra bu quyuların hamısı bərpa olunacaq. Bu da əkinlərin davamlı aparılmasına, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə və ekoloji tarazlığın bərpa olunmasına təminat yaradacaq.

Azad edilmiş şəhər və kəndlərimizin çıraqları da gur yanacaq. Hazırda "Azərişıq" ASC həmin ərazilərdə xüsusi əhəmiyyət kəsb edən strateji obyektlərin elektrik təchizatının təcili təmin olunması üçün təxirəsalınmaz tədbirlər həyata keçirir. Layihə belə də adlanır: "Azərişıq" Qarabağda".

ASC-nin əməkdaşları cəbhəboyu bölgələrdə düşmənin mülki obyektləri hədəfə alması nəticəsində baş verən qəzaların aradan qaldırılmasını və bərpa işlərini operativ şəkildə yerinə yetirirlər. Azad olunan ərazilərdə yeni güc mərkəzlərinin yaradılması, 110, 35 və 0,4 kilovoltluq şəbəkələrin qurulması, elektrik verilişi xətlərinin çəkilməsi üzrə layihələr mərhələli şəkildə həyata keçiriləcək.

"Azərenerji" ASC isə ilkin olaraq Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının hər birində 110 kilovoltluq sistem əhəmiyyətli 4 yarımstansiyanın tikilməsini və onların arasında 110 kilovoltluq elektrik verilişi xətlərinin çəkilməsini nəzərdə tutub. Bununla yanaşı, "Azərişıq" da 35 kilovoltluq yarımstansiyaların tikilməsi ilə bağlı əlaqəli layihələndirmə işləri aparır. Tikiləcək yarımstansiya və xətlər üçün avadanlıqlarla təchizat və başqa sahələr üzrə işlər görülür.

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin təbii qaz təchizatı üçün layihələndirmə də gündəmdədir. Bu məqsədlə "Azəriqaz" İstehsalat Birliyi bölgədə reallaşdırılacaq qaz çəkilişi layihələrini yerindəcə araşdırmağa başlayıb.

Qaz təsərrüfatı işçiləri torpaqlarımızın hər bir hissəsi azadlığa qovuşduqca həmin yerlərə "Yüksələr bayrağımız, isinər ocağımız!" devizi ilə hərəkət etməyə hazırdırlar.

İşğaldan azad olunmuş ərazilərdə mobil infrastrukturun da qurulmasına başlanıb. "Bakcell" şirkəti özünün yüksək keyfiyyətli və sürətli mobil şəbəkəsini işğaldan azad olunmuş şəhər və kəndlərimizə doğru genişləndirəcək. Şirkət müvafiq dövlət qurumları ilə razılaşdırmaqla həmin ərazilərdə dayanıqlı mobil rabitə infrastrukturunun qurulmasına başlayacaq.

Bu günlərdə "Bakcell" cəbhəyanı zonalar daxil olmaqla bütün ölkə ərazisində yüksək keyfiyyətli mobil rabitəni təmin etmək üçün şəbəkənin optimallaşdırılmasını və 24 saat ərzində nəzarət işlərini həyata keçirir. Hazırda cəbhəyanı ərazilərdəki səyyar baza stansiyaları sayəsində "Bakcell" burada kəsintisiz mobil rabitə xidməti göstərir. Şirkət həmçinin ordumuza dəstək üçün Silahlı Qüvvələrə Yardım Fonduna 1 milyon 500 min manat məbləğində vəsait köçürüb.

Xatırladaq ki, 2017-ci ildə "Bakcell" Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası tədbirlərinə qoşularaq orada mobil rabitə şəbəkəsini təkmilləşdirib. Təkmilləşdirmə çərçivəsində ilkin mərhələdə yeni baza stansiyası qurulub. Daha sonra şirkət Cocuq Mərcanlı sakinləri üçün xüsusi tarif hazırlayıb.

"Azercell Telekom" MMC də sevinclə bildirir ki, işğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturun qurulmasına başlayıb və orada dördüncü nəsil LTE radio baza stansiyaları quraşdırmaqdadır. Operator ölkəmizin azad edilmiş bütün tarixi ərazilərini müasir mobil şəbəkə ilə əhatə etməyə, eləcə də tezliklə öz evlərinə qayıdacaq sakinləri fasiləsiz rabitə və innovativ xidmətlərlə təmin etməyə hazırdır. Beləliklə, Azərbaycanda bağlantısız heç bir nöqtə qalmayacaq!

Xatırladaq ki, Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük vergi ödəyicisi və sərmayəçisi "Azercell Telekom" MMC 1996-cı ildə təsis edilib. Hazırda 5 milyon abunəçi "Azercell"i seçir. "Azercell" nüfuzlu "STEVIE 2020" müsabiqəsində yüzlərlə təşkilat arasında "İlin telekommunikasiya şirkəti" adını qazanıb, bu nominasiya üzrə ən yüksək pillədə qərarlaşaraq qızıl mükafatı əldə edib.

Yurd həsrətli insanlarımız, eləcə də işğaldan azad edilmiş torpaqlara qurub yaratmaq missiyası ilə qədəm qoyan strukturların nümayəndələri o yerlərə yeni çəkilmiş yollarla gedəcəklər. Bu işlərə Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının bərpasından başlanıb. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, ümumi uzunluğu 29 kilometr olan avtomobil yolları IV texniki dərəcəyə uyğun bərpa edilir.

Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yolları uzun müddət düşmən tapdağı altında olduğundan tamamilə sıradan çıxmış və dağılmışdır. Hazırda yolboyu yararsız qrunt qazılaraq çıxarılır, yararlı qruntla əks-dolğu işləri aparılır, torpaq yatağı bərpa olunur və yeni yol əsası inşa edilir.

Prezident İlham Əliyev oktyabrın 17-də xalqa müraciətində erməni vandallarının Füzulidə illərlə törətdiyi talançılıqdan ətraflı bəhs etmişdir. Əslində isə bu, mənfur düşmənin digər kənd və şəhərlərdə yaratdığı vəziyyətin mənzərəsidir: "Müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir. Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir... Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq".

Həmin quruculuq artıq başlanıb!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Üç rübdə ölkədə 2679,1 kiloqram qızıl istehsal edilib

Yanvar-sentyabr aylarında mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növlərindən sayılan qiymətli metal filizlərinin 2679,1 kiloqramı qızılın payına düşüb.



Dövlət Statistika Komitəsi xəbər verir ki, bu göstərici keçən ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz azalıb.

Gümüş istehsalı isə 13,5 faiz artıb. İlin ilk 9 ayında mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növlərindən sayılan qiymətli metal filizlərinin 3259 kiloqramı gümüşün payına düşüb.

Oktyabrın 1-nə olan vəziyyətə əsasən, 357 kiloqram hazır qızıl və 167,2 kiloqram gümüş ehtiyatı var.

## Sabirabadda fermerlər 7 min hektardan çox sahədə payızlıq taxıl səpini aparıblar

### Ucarda isə ilkin səpin aparılan taxıl sahələrinin suvarılmasına başlanılıb

Sabirabadda taxılçılıq əsas təsərrüfat sahələrindən hesab olunur. Fermerlər təsərrüfatın bu sahəsinə böyük maraq göstərdiklərindən rayonda taxıl istehsalı ilbəil artır.



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, sabirabadlı taxılçılar ötən ilin payızında 25 min 148 hektar sahədə taxıl əkiblər. Əkinçilər cari ildə biçin apardıqları arpa sahələrindən 39 min 510, buğda zəmilərindən isə 64 min 378 ton məhsul götürüblər. Məhsul istehsalçıları taxıl sahələrindən ümumilikdə 103 min 888 ton məhsul əldə edərək, hər hektarın məhsuldarlığını 41,3 sentnerə çatdırıblar.

Fermer və torpaq mülkiyyətçiləri gələn il də yüksək nəticələr əldə etmək üçün səpin kampaniyasına vaxtında başlayıblar. "Aqrolizinq" ASC tərəfindən bütün lazımi səpin aqreqatları ilə təmin olunan əkinçilər qısa müddətdə 7 min 656,6 hektar sahədə səpin aparıblar ki, bunun da 1905 hektarı buğda, 5 min 749 hektarı isə arpadır. Gün ərzində 200-250 hektar sahəyə toxum səpən əkinçilər səpin kampaniyasını qısa müddətdə başa çatdırmaq üçün bütün qüvvələrini sərf edirlər.

Ucar rayonunda payızlıq taxıl əkini davam edir və artıq 3120 hektarda səpin aparılıb. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, hazırda hər gün sahələrə 20 şum traktoru, 12 səpin aqreqatı çıxarılır. Rayonun əksər ərazilərində, xüsusilə daha çox taxıl əkiləcək Müsüslü, Yuxarı Şilyan, Boyat, Qaradağlı və bir sıra digər ərazi dairələrində bu mühüm kampaniya daha mütəşəkkil davam etdirilir. Taxılçılar ilkin əkin aparılan sahələrdə suvarma işlərinə başlayıblar. Qısa vaxtda 189 hektar sahə suvarılıb.

Qeyd edək ki, Ucar rayonunda gələn ilin məhsulu üçün 11,5 min hektardan çox sahədə payızlıq taxıl səpini proqnozlaşdırılır.

## Azərbaycan İƏT ölkələrindən ən çox Türkiyəyə məhsul göndərib

Cari ilin yanvar-sentyabr aylarında Azərbaycanın ən çox məhsul ixrac etdiyi İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr sırasında ilk üçlükdə Türkiyə, Tunis və Malayziya qərarlaşıb.

Türkiyəyə ixracın dəyəri 2 milyard 108 milyon dollar, Tunisə 172,8 milyon dollar, Malayziyaya isə 60,5 milyon dollar olub.

Dövlət Gömrük Komitəsi xəbər verir ki, ötən ilin müvafiq dövrünə nisbətən Türkiyəyə ixracda azalma, Tunis və Malayziyaya isə artım müşahidə edilib.

## Keçən ay hava nəqliyyatı ilə 212 ton yük ixrac olunub



Sentyabrda hava nəqliyyatı ilə 212 min ton yük ixrac edilib.

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, ötən ay bu nəqliyyat növü ilə idxal edilən yüklərin həcmi isə 780 ton olub.

*Xəbərlər AZƏRTAC-ın informasiyaları əsasında hazırlanmışdır*

## ASCO Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsinə dair hesabatı açıqlayıb

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) 2020-ci ilin ikinci rübü üzrə Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi haqqında hesabatı açıqlanıb.

ASCO-dan bildirilib ki, hesabatda rüb ərzində QSC-də qeydə alınmış və yan keçmiş hadisələrin, daxili audit və monitorinqlərin, idarələr üzrə təkrarlanan nöqsanların sayı və statusu barədə məlumat verilib. Həmçinin burada donanmalar və idarələrdə Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi üzrə göstəricilərin statistikası da əksini tapıb.

Qeyd olunub ki, cari ilin ikinci rübündə ASCO-nun bütün idarələri üzrə əmək qabiliyyətinin itirilməsinə yol verilmədən iş saatlarının miqdarı 2 milyon 978 min 470 saat təşkil edib.

Təhlükəsizlik hesabatında koronavirusla əlaqədar tətbiq olunan karantin rejimi ilə bağlı ASCO-da həyata keçirilən tədbirlərdən də bəhs olunub.

Hesabatda rüb ərzində dünya gəmiçiliyində baş verən qəzalar və onların kökündə duran səbəbləri, həmçinin görülən işlər və qarşıdakı hədəflər barədə məlumat verilib.

## Azərbaycanla Rusiyanın iqtisadi tərəfdaşlığının inkişafı istiqamətləri müzakirə olunub

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Rusiyanın Azərbaycandakı Ticarət Nümayəndəliyi arasında videokonfrans formatında görüş keçirilib.

AZPROMO-dan AZƏRTAC-a bildirilib ki, onlayn görüşdə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev təmsil etdiyi qurumun fəaliyyəti barədə danışıb. O, ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti, "Made in Azerbaijan" brendinin təşviqi və Azərbaycan məhsullarının xarici bazarlarda tanıdılması istiqamətində görülən işlər barədə məlumat verib, iqtisadi tərəfdaşlığın genişləndirilməsində Rusiyanın Azərbaycandakı Ticarət Nümayəndəliyinin səmərəli fəaliyyətini vurğulayıb.

Rusiyanın Azərbaycandakı ticarət nümayəndəsi Ruslan Mirsayapov ölkəmizdə uğurlu iqtisadi siyasətin həyata keçirildiyini, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması sahəsində həyata keçirilən islahatların əhəmiyyətini qeyd edib, iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Görüşdə iqtisadi tərəfdaşlığın inkişafı istiqamətləri, investisiya qoyuluşu, birgə müəssisələrin yaradılması və digər məsələlər müzakirə edilib.

## Xaçmazda heyvanlar dabaq xəstəliyinə qarşı vaksinasiya edilir

Xaçmazda heyvanlar arasında xüsusi təhlükəli xəstəliklərə qarşı aparılan profilaktik tədbirlərin səmərəliliyini təmin etmək məqsədilə növbəti peyvəndləmə və müayinə işləri həyata keçirilir.

Rayon baytarlıq idarəsinin mütəxəssisləri tərəfindən 37 mindən çox iribuynuzlu heyvan dabaq xəstəliyinə qarşı vaksinasiya edilib.Vaksinasiya prosesini vaxtında başa çatdırmaq üçün idarənin bütün sahə baytarlıq məntəqələrinin baytar-həkimləri səfərbər olunub. Həm iri fermer, həm də fərdi təsərrüfatlarda vaksinasiya işləri görülür. Ümumilikdə, Xaçmazın heyvandarlıq təsərrüfatlarında 40 min başa yaxın iribuynuzlu heyvanın peyvənd olunması nəzərdə tutulub.

Xaçmaz Rayon Baytarlıq İdarəsinin rəisi Şirzad Mahmudov bildirib ki, rayonda xüsusi təhlükəli xəstəliklərə görə epizootik vəziyyət sabitdir. Bu il ərzində rayonda heç bir təhlükəli infeksion xəstəlik aşkarlanmayıb.

Noyabr ayından rayonda xırdabuynuzlu heyvanların vaksinasiya olunmasına başlanılacaq. Təsərrüfatlarda 41 baş xırdabuynuzlu heyvan qeydiyyatdadır.

Baytarlar mal-qara sahiblərinə heyvanların peyvəndləmə və müayinədən kənarda qalmaması üçün sahə baytarlıq məntəqələrinə və baytarlıq idarələrinə vaxtında müraciət etmələrini tövsiyə edirlər.

# Zəngilanlılar yenə köçə hazırlaşırlar

## Budəfəki köçün ünvanı isə doğma yurd yerləridir



27 il əvvələ dönüb baxanda yalnız ağrı dolu günləri xatırlayırsan. Öz doğma torpaqlarını erməni təcavüzü nəticəsində tərk edən insanların düşdüyü şəraiti xatırlayanda qəsbkarların vəhşiliklərini bir daha dərk edirsən. Amma bütün bunlara baxmayaraq, içimizdəki vətən, yurd sevgisi daha da güclənib və bu inam bizi günümüzədək yaşadıb.

Zəngilan 1993-cü il oktyabrın 29-da işğal edilmişdi. Çox qəribədir ki, bu günü yaddaşlarında 27 il daşıyan zəngilanlılar məhz həmin gün ərəfəsində yurdlarının azad edilməsi xəbərini aldılar. Bütün zəngilanlılar içlərindəki həsrət yükünü sevinc hissləri ilə əvəzlədilər.

2013-cü ildə dövlət başçısının birbaşa diqqət və qayğısı nəticəsində Abşeron rayonunda zəngilanlı məcburi köçkünlər üçün qəsəbə salınıb. 760 ailə həmin yaşayış massivində məskunlaşıb. Rayonun icra strukturları, dövlət təşkilatları da burada fəaliyyət göstərir.

Bu gün qəsəbədə böyük sevinc yaşanır. Binaların fasadından asılan Azərbaycan və Türkiyə bayraqları məğrurluq simvolu kimi dalğalanır. Sakinlərdən biri - Almaz Osmanova sevinc gözyaşları ilə dedi:

- Köçkün həyatı bizi çox yormuşdu. 30 il az zaman deyil. Üstəlik, obadan kənarda yaşamaq ağır dərddir. Televiziyada Ali Baş Komandandan Zəngilanın azad edilməsi xəbərini eşidəndə gözlərim yaşardı. Evimizdə böyüklü-kiçikli hamı atılıb düşür, bu sevinc anını aləmə car çəkmək istəyirdi. Ordumuzun əsgərlərinin rəşadətinə biz analar qurban. Belə möhtəşəm Komandanın müzəffər də ordusu olmalıdı. Təki qələbələrimiz davamlı olsun. Qoy bütün dünya görsün ki, biz qalib olmağa layiqik. Ali Baş Komandanımızı da, əsgərlərimizi də Allah qorusun!

Bu sevinc payını paylaşmaq üçün hansı bir zəngilanlıya yaxınlaşdıqsa, öncə göz yaşı və sevinc duyğusallığı ilə üzləşdik. Tarix yazan ordumuzun zəfərini Zəngilan rayon sakini Ayna Zeynalova belə bildirdi:

- Xəbəri alan kimi içimdə yaşamaq, çalışmaq hissi daha da artdı. Ali Baş Komandan İlham Əliyevin qələbə xəbərləri Allahdan istərdim çox olsun və Allah qoysa, çox da olacaq, buna şübhəmiz yoxdur. Çünki ölkəmiz, ordumuz güclü, Ali Baş Komandanımız qətiyyətlidir. Prezidentimiz və əsgərlərimiz sağ olsunlar ki, bizə yenidən Zəngilanda yaşamaq, işləmək bəxş etdilər. İndi bütün Qarabağın işğaldan azad edildiyi günü gözləyirik və bilirik ki, həmin gün də uzaqda deyil.

Bu arada bizə Zakir Məmmədov yaxınlaşdı. Üzündəki sevinc həyəcana qarışmışdı:

- Hər dəfə nəvələrim oktyabrın 29-da dərsdən evə gələndə Zəngilanın işğalı ilə bağlı mənə sual verirdi. Mən də başımıza gətirilən müsibətləri onlara söyləyirdim. Bir dəfə biri "bəs nə vaxt biz oralara gedəcəyik?" deyə sual verdi. O zaman susdum. Çünki cavabım yox idi. Bu gün üzümü hamıya tutub deyirəm ki, hər birinizi Zəngilana dəvət edirəm. Hər ilin oktyabrında məktəblərdə Zəngilanın işğalı ilə bağlı dərslər keçirilərdi. Şükür Allaha, bu il həmin tarix qeyd edilmədi, Qələbə tarixi ilə əvəzləndi həmin gün. Bu qələbəni bizə yaşadan Ali Baş Komandan və Ordumuzdur. İnşaallah, yaxın günlərdə böyük Qələbəmiz olar!

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Ziyalı sözü

# Azərbaycan haqq savaşında qalib gələcək

Ermənilərin başqa xalqların torpaqlarına göz dikmələri, işğalla, məkrlə, hiylə ilə öz mənfur niyyətlərini həyata keçirməyə çalışmaları hər kəsə məlumdur.

İki yüz ildir ki, tarixi saxtalaşdıran, faciələr, terrorlar, soyqırımlar törədən ermənilər əslində öz məqsədlərinə çataraq, yoxdan Ermənistan adlı bir dövlət yaratmağa nail olublar. Ancaq yenə, necə deyərlər, gözləri doymayıb, “Böyük Ermənistan” adı ilə başqa dövlətlərin daha çox ərazisini tutmaq niyyətində olublar. 1990-cı illərdə Azərbaycan xalqının başına gətirdikləri faciələri də mənfur ermənilər bu niyyətlə həyata keçiriblər. Bir həqiqət də var ki, qorxaq və ikiüzlü ermənilər təkbaşına Azərbaycan kimi böyük dövlətlə, azərbaycanlılar kimi mərd xalqla mübarizəyə girməyə heç vaxt cəsarət etməyiblər. Çünki bunun onlar üçün məğlubiyyətlə nəticələnəcəyini yaxşı biliblər. Odur ki, tarix boyu özlərinə havadarlar axtarıblar və məqam gözləyiblər. Dövrün ən mürəkkəb və ziddiyyətli vaxtlarında meydana çıxaraq öz məkrli niyyətlərini həyata keçirməyə çalışıblar. Əlbəttə, havadarlarının hərtərəfli dəstəyi ilə yenidən azərbaycanlılara qarşı hücuma keçən erməni vandalları 1988-ci ildən müxtəlif təxribat və terrorlar törədiblər. Nəticədə tarixi torpaqlarımız olan, sonradan müxtəlif yollarla Ermənistan dövlətinin ərazilərinə çevrilən tarixi yerlərindən soydaşlarımız qovuldular.

Bununla da kifayətlənməyib, Azərbaycan ərazilərinin 20 faizini işğal etdilər. 1994-cü ildə atəşkəs elan olunsa da, Ermənistan silahlı qüvvələri tərəfindən ərazilərimiz mütəmadi olaraq atəşə tutulubdur.

1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrə əsasən Ermənistan silahlı qüvvələri dərhal və qeyd-şərtsiz olaraq Azərbaycanın ərazisini tərk etməli, 1 milyon məcburi köçkün yaşayış yerlərinə qayıtmalıdır. Təəssüf ki, Ermənistan dövləti beynəlxaq tələb və qətnamələri heçə alır.



Sentyabrın 27-dən başlayan müharibənin də səbəbkarı Ermənistan dövlətidir. Azərbaycan Ordusu düşmən təxribatının qarşısını alır, 30 ildir ərazilərimizi işğala məruz qoyan təcavüzkarlara layiq olduqları cavabı verir. Bu həqiqəti bütün dünya görür, duyur.

Bir neçə gün öncə Moskvada atəşkəs barədə razılığa gəlindi. Və yenə atəşkəs rejimini pozan tərəf Ermənistan oldu. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi heç bir beynəlxalq norma və prinsiplərə əməl etmir, Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəlikləri yerinə yetirmir. Dinc əhalini, çoxsaylı evləri, mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri hədəfə almaqdan, uşaqdan tutmuş qocaya kimi mülki vətəndaşlara qarşı cinayətlər törətməkdən çəkinmir. Əhalinin kompakt yaşadığı yerlər, rayon və kənd mərkəzləri, infrastruktur obyektləri, məktəb binaları, uşaq bağçaları, xəstəxanalar, tibb məntəqələri hədəfə alınır.

Nəinki cəbhə bölgələri, hətta döyüş yerlərindən uzaq ərazilərimiz də Ermənistan hərbi qüvvələri tərəfindən raket və ağır artilleriyalardan atəşə tutulur. Oktyabrın 11-də gecə saat 2-də Azərbycanın ikinci böyük şəhəri Gəncədə törətdikləri faciələrdə Ermənistan dövləti öz təcavüzkar simasını növbəti dəfə göstərdi.

Dövlət başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti ilə Milli Ordumuzun müzəffər yürüşü göstərir ki, qələbə haqqın, ədalətin tərəfindədir. Azərbaycan öz haqq savaşında qalib gələcək.

***Zərifə SALAHOVA,***
***Miniatür Kitab Muzeyinin təsisçisi***

# Heydər Əliyev Mərkəzinin binası və Bakı Olimpiya Stadionunun üzərinə Türkiyənin bayrağı videoproyeksiya olunub





Türkiyənin Cümhuriyyət Günü münasibətilə oktyabrın 29-da Heydər Əliyev Mərkəzinin binası və Bakı Olimpiya Stadionunun üzərinə Türkiyə Respublikasının bayrağı videoproyeksiya olunub.

AZƏRTAC xəbər verir ki, bu, “bir millət, iki dövlət” olan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasındakı dostluğu, qardaşlığı, birliyi bir daha bütün dünyaya nümayiş etdirdi.

Mərasimdə iştirak edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral bildirib ki, bu gözəl günü bütün dünyada qeyd edirik. Azərbaycan da bizim bu sevincimizi bölüşür. Bu məqsədlə də Heydər Əliyev Mərkəzinin möhtəşəm binası üzərinə Türkiyə bayrağı videoproyeksiya olunur.

Səfir qeyd edib ki, bu günlərdə Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri çox önəmli, çox gözəl günlərdən keçir. Türkiyə Azərbaycanın öz torpaqlarını azad etmək üçün başlatdığı haqlı mübarizədə qardaş ölkənin yanında olduğunu bəyan edib. Bu, bizim qardaşlıq vəzifəmizdir.

Qeyd edək ki, xalqlarımızın iradəsindən və ortaq milli-mənəvi dəyərlərindən qaynaqlanan Azərbaycan-Türkiyə birliyi və strateji müttəfiqliyi bu gün ən yüksək səviyyədədir. Dünyada bənzəri olmayan bu dostluq və qardaşlıq münasibətləri regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət edən, siyasi və iqtisadi proseslərə istiqamət verən mühüm amilə çevrilib.

Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı nümayiş etdirdiyi qəti və birmənalı mövqe, haqq işimizə verdiyi tərəddüdsüz dəstək həmrəyliyimizin əyani göstəricisidir və xalqımız üçün olduqca dəyərlidir. Azərbaycan da öz növbəsində bütün məsələlərdə qardaş Türkiyənin yanındadır.


## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 29.09.2020-ci il tarixdə “Bakı Telefon Rabitəsi” MMC üzrə Sənaye tipli kondisionerlərin açıq tender üsulu ilə satın alınması ilə bağlı elan edilmiş açıq tender “Dövlət satınalmaları haqqında” qanunun 11.1-ci maddəsinə əsasən ləğv edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 05.09.2020-ci il tarixdə “Azərbaycan” qəzetində və dövlət satınalmalarının vahid internet Portalında elan edilmiş dəftərxana ləvazimatlarının satın alınması üzrə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq keçirilmiş açıq tenderdə “İNTELLEKT M.A” MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 27.10.2020-ci il tarixli satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Mingəçevir şəhər Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsi 2020-ci il üçün
## *kotirovka sorğusu elan edir*

Katriclərin dolumu və təmiri, barabanların dəyişdirilməsi

Kotirovka sorğusunun başlama tarixi 30.10.2020-ci il

Kotirovka sorğusunun müraciəti 05.11.2020-ci il saat 12:00-dək qəbul edilir.

Zərflərin açılışı 05.11.2020-ci il saat 14:00-da olacaq.

Ünvan: Mingəçevir şəhəri, 20 Yanvar küçəsi, 12

Telefon nömrəsi: +99455 500-45-99 ; +99455 204-15-20

***Tender komissiyası***

## “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyəti
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

Maşin mexanizimlər üçün ləvazimatların satın alınması.

Tender iştirakçıları **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübə, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri olan potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**İştirak haqqı - 200 AZN**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142330**

**İştirak üçün ödənilən vəsait heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbarı ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müfaviq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **20 noyabr 2020-ci il saat 12:00-a** qədər, tender təklifi və bank təminatını isə **30 noyabr 2020-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **01 dekabr 2020-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
Loan No.8286-AZ

**Assignment Title: Selection of Food Safety Expert**

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:

(i) *Component A - Component A - Support for sanitary and phytosanitary services;*
(ii) *Component B - Agri-food value chain development;*
(iii) *Component C - Financial services to agribusiness;*
(iv) *Component D - project management and implementation.*

Proposed assignment will be implemented under Sub-Component B1.
***Sub-component B1: Investment and advisory services for agribusiness development***

The Sub-component will help develop value chains by partially financing demand-driven investment proposals. The specific activities supported under the sub-component are: (i) providing development support for value chain participants to assist them to establish productive partnerships and prepare sub-project proposals for funding under the Project and (ii) investment support for agribusiness value chains.

Within this component of the project, ACIP facilitates the development of selected value chains through providing investment and technical support to entrepreneurs and farmers in Azerbaijan. The activities aim to increase the value of marketed output of selected value chains. This will be achieved by raising farm productivity, comprehensively addressing constraints along the value chain and facilitating productive partnerships between value chain participants through value chain sub-projects. A productive partnership is a set formal or informal, mutually beneficial, commercial partnership between participants in a value chain which may include buyers (fresh buyers and processors), farmers and input service providers (seeds and input supplier, machinery services, storage and distribution services, advisory and information services, veterinary services).

19 sub-project Proposals (in Samukh, Shamkir, Khachmaz, Jalilabad, Lankaran, Guba, Ismayilli, Oghuz, Salyan, Neftchala, Gazakh, Gabala, Tartar, Goranboy and etc.) have already been approved .

**The general objective of the assignment**

The objectives of this assignment are to (i) develop methodology for analyses of Food Safety in value chain sub-projects; (ii) undertake food Safety analysis for determining the sanitary and hygienic condition of the enterprise, the application of food safety standards, the status of the management system in relation to product safety; and (iii) provide technical assistance to the PMU, VCDS and VCAT for the analysis of Food Safety aspects with the objective to improve their capacity to do the analysis themselves and etc.

***Scope of the work:***

- The Consultant should familiarize himherself with the project. She should look at the Operational Manual, Project Appraisal Document, and other documents that the PMU considers important:
- The Consultant, together with the PMU (Project Management Unit), VCDS (Value Chain Development Staff) and VCAT (Value Chain Assistance Team) shall review VC sub-projects for food Safety analyses;
- The Consultant should work with the PMUVCDSVCAT to collate existing data and collect new data where necessary, in order to establish strategy for food safety arrangements;
- The Consultant should develop a set of methodology and in addition the consultant should pay particular attention to the following:
- Solo-screening of the food safety status of the value chain partners including producers and processors
- To identify the risks in food safety aspects of the value chain projects
- Assessment of compliance with local and international food safety standards
- Preparation of public awareness campaign presentations, conduct workshops, discussions with local farmers, gap analyses assessment
- Development and Provision of recommendations for compliance with local and international food safety standards
- On-site assessment of the food safety and Global GAP requirements on the basis of compliance with sanitary and hygiene requirements
- On-site monitoring of technological process, and review and analysis of export potential
- Assessment of the food safety standards for 19 sub-projects.

***Expected Outcome of the Assignment:***

The Consultant will furnish a comprehensive value chain analysis report having disaggregated data including following, but not necessarily limited to:

- Determine of the sanitary condition
- Activities of companies regarding product quality and safety
- Current problems in production activities and in food chain
- Determining the possibility of implementing food safety standards
- Ability to export products

***Duration:*** It is estimated that a total input sixty (60) workdays will be required, including site missions to above mentioned cities, during the period November 2020 April 2021. Involvement timeline, visits schedule and work schedule shall be discussed and confirmed during the contract negotiation.

***The shortlisting criteria:***

- At least 5 years of experience in related field, including the Good Manufacturing Practices (GMPs) and Hazard Analysis Critical Control Point (HACCP) systems;
- Higher education with university degree in agriculture, food processing, quality standards management or related field, and technical knowledge in food processing andor food production;
- Knowledge in types of hazards and source of contaminations, as well as their prevention and alleviation;
- Knowledge in foodborne illness and microbiologicalchemicalphysical hazards, and allergens;
- Experience in implementing food safety systems (ex: experience developing written programs, conducting AZSGMPHACCP training courses, etc.)
- Knowledge in European food regulation and requirement and export promotion;
- Willingness to work on-site identifying the needs of the relevant processing and production facility;
- Good command of English and Azerbaijani languages;
- Work experience with international organizations;
- Excellent communication and problem solving skills.
- Strong computer literacy especially in MS Office software.

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's *Guidelines: Selection and Employment of Consultants under IBRD Loans and IDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014* (“Consultant Guidelines”), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Expressions of interest must be delivered in a written form (with indication of position) to the address below (in person, or by mail, or by fax, or by e-mail) by November 12, 2020.

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**AZ1108, Ziya Bunyadov av.1965, Chinar Park Business Center, Baku, Azerbaijan**
**Tel: (+99 412) 525 01 17**
**E-mail:a.azimov@akia.gov.az; anarazim@gmail.com; gunelsafaraliyeva@gmail.com; nargiz.acip@gmail.com; n.isgandarova@akia.gov.az**
**Web: www.akia.gov.az**

Further information can be obtained at the address above during office hours 09:00 - 18:00.


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi və kollektivi komitənin sabiq əməkdaşı, Əməkdar mühəndis **MİNARƏ HÜSEYNOVANIN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri və kollektivi Şirvan Apelyasiya Məhkəməsinin hakimi Zəki Babayevə oğlu **İQBALIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi məhkəmənin aparat rəhbəri Samir İsmayıla əzizi **ADİLƏ İSMAYILOVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7400
Sifariş 2536
Qiyməti 40 qəpik